# ICESCO-nun Baş direktoru: Azərbaycan COP29-a ev sahibliyi, təşkilatçılığı ilə böyük nailiyyətə imza atdı

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində keçirilən tədbirlərdə ayrıca heyətlə fəal iştirak edən İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik mediaya açıqlamasında Azərbaycanın COP29 iqlim sammitini yüksək səviyyədə təşkil etdiyini vurğulayıb:**



– Azərbaycan dünyanın iqlim və ekoloji dəyişikliklərlə mübarizə sahəsində ən nüfuzlu tədbiri sayılan Tərəflər Konfransı COP29-a ev sahibliyi edərək və təşkilatçılığı uğurla həyata keçirərək, böyük nailiyyətə imza atdı. Konfrans günlərində Azərbaycan yüksək təşkilatçılıq bacarığını, insan kapitalını və müasir texnoloji potensialını bir daha nümayiş etdirdi. Qeyd etmək istərdim ki, COP29-da 4 min 500-dən çox gəncin könüllü kimi iştirak etməsi də beynəlxalq tədbirin yüksək səviyyədə keçirilməsinə öz töhfəsini verdi.

Azərbaycanın beynəlxalq aləmdəki nüfuzlu mövqeyi onu son illərdə yüksəksəviyyəli konfranslar və beynəlxalq tədbirlər üçün əsas məkanlardan birinə çevirib.

**(ardı 5-ci səhifədə)**


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 260 (30664) 26 noyabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!

## *Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında paylaşımı*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də sosial şəbəkə hesablarında "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!" sərlövhəsi ilə paylaşım edib.**

Paylaşımda bildirilir:

"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu.

Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.

Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

"Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Bütün proses boyu biz inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər. Biz, həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik.

Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu.

Bakı COP-da İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Biz, həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olduq.

Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək edəcək.

Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Mən COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün Tərəflərə, Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığımı bildirirəm".

## Dünyanın nəbzi 2 həftə Bakıda vurdu

***"Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq". Bunu Azərbaycan Prezidenti İlham Əliyev iqlim sammitindən sonra sosial şəbəkədəki rəsmi hesablarındakı paylaşımında bildirib.***



Bəli, Azərbaycan daha bir qürurverici uğura öz imzasını atdı. Bunu təkcə BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasının (COP29) iştirakçıları deyil, bədxahlarımız da etiraf etməyə məcbur oldular.

**Təşəkkürlər, Azərbaycan!**

Təşkilatçı ölkə olaraq Azərbaycana öz təşəkkürünü çatdıran BMT-nin Baş katibi Antonio Quterreş Prezident İlham Əliyevlə görüşündə ölkəmizin COP29-a sədrliyinin uğurla aparılması üçün BMT-nin hər cür dəstək göstərməyə hazır olduğunu bildirdi. Sammitin bağlanış tədbirində isə Baş katib dedi: "COP29-da əldə olunmuş razılaşma iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasını qoyur". İqlim sammitinə hazırlıq işlərinin ən yüksək səviyyədə həyata keçirildiyinə diqqəti yönəldən Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycanın qlobal çağırışlara cəsarətlə qoşulduğunu və bunu yüksək dəyərləndirdiyini söylədi. Avropanın iqlim məsələləri üzrə komissarı Vopke Hoekstra isə COP29-u iqlim maliyyəsində "yeni eranın başlanğıcı" adlandırdı. Baş direktor Bakıda müəyyənləşdirilən "yeni məqsədləri iddialı, amma, eyni zamanda, real" hesab etdiyini bildirdi. Dünyanın iyirmiyə yaxın dövlət və hökumət başçıları İlham Əliyevlə görüşlərində iqlim sammitinə evsahibliyi edən Azərbaycanın bu qlobal tədbirin hazırlanmasında və keçirilməsində böyük işlər gördüyünü məmnunluqla vurğuladılar.

Bakı Sammitin sonuncu günü COP29-un yüksək səviyyəli təşkilinə görə Azərbaycana rəsmi təşəkkür elan edilməsi barədə qətnamənin qəbul olunması tədbirin ev sahibi kimi ölkəmizin çəkdiyi zəhmətə verilən qiymət idi.

**(ardı 4-cü səhifədə)**

## COP29 yaşıl gələcəyin təməlini qoydu

**Bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşıyan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) tarixi uğurlarla yekunlaşdı. 33 saat davam edən müzakirələrdən sonra plenar iclasın davamında yeni iqlim hədəfi qəbul olundu. Belə ki, COP29-un əsas prioriteti olan iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi (YKKH) qəbul edildi. Bu, həm də Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirdi. Bütün tərəflərin yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbul etməsi bunun bariz göstəricisidir. Eyni zamanda, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.**

**(ardı 5-ci səhifədə)**

# İrəvanın anti-Rusiya status-kvosu və səfir Kopırkinin ümidi

## *Ermənistan hara, Avrasiya təhlükəsizlik sistemi hara?*



**Rusiya Ermənistanın Avrasiyada vahid və bölünməz təhlükəsizlik sisteminin inkişafında iştirakına ümidlidir. Bu barədə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin "İzvestiya" qəzetinə müsahibəsində bildirib. Səfirin sözlərinə görə, sözügedən ideya bu il iyunun 14-də Prezident Vladimir Putin tərəfindən irəli sürülüb, ölkənin Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə görüşdə və Kazanda keçirilmiş son BRICS sammiti zamanı yenidən dilə gətirilib.**

Əslində, Avrasiyada vahid və bölünməz təhlükəsizlik sistemi ideyası, kifayət qədər, böyük anlayışdır və heç şübhəsiz, Rusiyanın təkqütblü dünya düzəninə, o cümlədən, ABŞ başda olmaqla, kollektiv Qərbə qarşı irəli sürdürüyü müqavimətin vacib platformasıdır. Səfir Kopırkin məsələnin üzərinə gəlirsə, düşünmək mümkündür ki, rəsmi Moskva İrəvandan mövqeyini müəyyənləşdirmək xüsusunda seçim gözləyir. Belədə sual yaranır, Qərbpərəst Ermənistan Rusiyanın düşərgəsində təmsilçiliyə razılıq verəcəkmi?

***(ardı 3-cü səhifədə)***

# Cənubi Qafqaz sülhə təşnədir

## *Ermənistan isə mane olur*

**Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəsinin İctimai televiziyasına müsahibəsində bildirdikləri İrəvanın Bakı ilə sülh gündəliyinin perspektivi barədə düşünməyə vadar edir. Əlbəttə ki, mövcud xüsusda hansısa pozitivlik yoxdur. Çünki Nikol, ilk baxışdan, hər şeydən danışır, amma heç nə demir.**

### Paşinyanın manipulyasiyası



Məsələn, erməni baş nazir bildirir ki, Ermənistanla Azərbaycan arasında strateji sövdələşmə İrəvanın və Bakının təkcə de-yure deyil, həm də de-fakto bir-birinin ərazi bütövlüyünün tanınması kontekstində olmalıdır. Yəni ki, Sovet Azərbaycanının ərazisi Azərbaycanda, Sovet Ermənistanının ərazisi Ermənistanda qalmalıdır. Burada Paşinyanın tanınmada "sosial-psixoloji və digər səviyyələrdə de-fakto" fikri önəmlidir.

**(ardı 3-cü səhifədə)**

# Prezident İlham Əliyev Donald Trampı təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa zəng edib.**

Telefon danışığı əsnasında dövlətimizin başçısı Donald Trampı Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib. Azərbaycan Prezidenti qeyd edib ki, seçkilərdə inamlı qələbə Amerika xalqının onun yürütdüyü siyasi xəttə böyük dəstək və etimadın aşkar ifadəsidir.

Dövlətimizin başçısı vurğulayıb ki, Prezident Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynacaqdır. Birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını bildirib.

Prezident Donald Tramp öz növbəsində səmimi təbriklərə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib. Donald Tramp ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə birgə səylərlə çalışmağın vacibliyini bildirib.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***

# Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Zati-aliləri xanım Jelka Tsviyanoviçə

**Hörmətli xanım Sədr!**

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Bosniya və Herseqovina arasında dostluq və əməkdaşlıq əlaqələrinin səviyyəsi məmnunluq doğurur.

Bakıda keçirilən COP29 çərçivəsində Sizinlə görüşümü xoş təəssüratlarla xatırlayıram.

İnanıram ki, dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Bosniya və Herseqovina xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 noyabr 2024-cü il**

# Surinam Respublikasının Prezidenti Zati-aliləri cənab Çandrikapersad Santoxiyə

**Hörmətli cənab Prezident!**

Surinam Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Sizin COP29-da iştirak etmək üçün Bakıya səfəriniz Azərbaycan ilə Surinam arasında əlaqələrin tarixində xüsusi yer tutur. Mən Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram.

Biz Surinam ilə dövlətlərarası münasibətlərimizə və əməkdaşlığımıza böyük əhəmiyyət veririk. İqtisadi-ticari əlaqələrimizi inkişaf etdirmək üçün Azərbaycan ekspertlərindən ibarət nümayəndə heyəti ölkənizə səfər etməyə hazırdır.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında dostluq əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim firavanlıq və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 noyabr 2024-cü il**

# G.B.Baxşəliyevanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə və elmin inkişafında xidmətlərinə görə Gövhər Baxşəli qızı Baxşəliyeva "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2024-cü il**

# Prezident İlham Əliyev Kəlbəcər Şəhəri Günü münasibətilə paylaşım edib



**Prezident İlham Əliyev Kəlbəcər Şəhəri Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

XQ paylaşımı təqdim edir: "Zəfər tariximiz – Kəlbəcərin Ermənistan işğalından azad edilməsindən 4 il ötür".

# Şalva Papuaşvili yenidən Gürcüstan parlamentinin sədri seçilib

**On birinci çağırış Gürcüstan parlamentinin ilk iclasında təşkilati məsələyə baxılıb. Şalva Papuaşvili yenidən Gürcüstan parlamentinin sədri seçilib.**



Parlamentin 88 deputatı Şalva Papuaşvilinin seçilməsini dəstəkləyib.

Parlamentin sədri seçildikdən sonra Gürcüstanın Dövlət Himni səsləndirilib.

Şalva Papuaşvili deputatlar qarşısında çıxış edib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin dekabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **Daxili işlər naziri** Vilayət Eyvazov | Balakən | Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ | 04 |
| 2 | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | 04 |
| 3 | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | 04 |
| 4 | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Saatlı | Saatlı, Sabirabad, İmişli | 05 |
| 5 | **Baş prokuror** Kamran Əliyev | Sumqayıt | Sumqayıt, Qubadlı | 06 |
| 6 | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Xaçmaz | Xaçmaz, Şabran | 06 |
| 7 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | İsmayıllı | İsmayıllı, Ağsu, Şamaxı, Qobustan | 06 |
| 8 | **Ədliyyə naziri** Fərid Əhmədov | Kürdəmir | Kürdəmir, Ucar, Ağdaş, Yevlax | 13 |
| 9 | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Quba | Quba, Qusar | 13 |
| 10 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Ağcabədi | Ağcabədi, Ağdam, Laçın | 13 |
| 11. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Salyan | Salyan, Biləsuvar, Neftçala | 13 |
| 12 | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Gəncə | Gəncə, Samux, Göygöl, Daşkəsən, Goranboy, Kəlbəcər | 13 |
| 13 | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Qax | Qax, Şəki | 13 |
| 14 | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Gədəbəy | Gədəbəy, Şəmkir | 13 |
| 15 | **Mədəniyyət naziri** Adil Kərimli | Kürdəmir | Kürdəmir, Ucar, Zərdab, Ağdaş, Yevlax, Mingəçevir, Göyçay | 14 |
| 16 | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Abşeron | Abşeron, Zəngilan | 19 |
| 17 | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Gəncə | Gəncə, Samux, Kəlbəcər | 19 |
| 18 | **Elm və təhsil naziri** Emin Əmrullayev | Tərtər | Tərtər, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Şuşa, Xocalı, Xocavənd | 20 |
| 19 | **Energetika naziri** Pərviz Şahbazov | Lənkəran | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad | 20 |
| 20 | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Sumqayıt | Sumqayıt, Abşeron, Qubadlı | 20 |
| 21 | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Siyəzən | Siyəzən, Xızı | 20 |
| 22 | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Masallı | Masallı, Yardımlı | 20 |
| 23 | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Qəbələ | Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən | 20 |
| 24 | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Beyləqan | Beyləqan, Füzuli, Xocavənd | 20 |
| 25 | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Saatlı | Saatlı, Sabirabad | 23 |
| 26 | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan | 26 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# DİN-in hərbi qulluqçuları ilə görüş

**Ümummilli lider Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü, ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və COP29, eləcə də hüquqi biliklərlə bağlı maarifləndirmə ilə əlaqədar Hərbi prokuror Xanlar Vəliyev Daxili İşlər Nazirliyinin N saylı hərbi hissəsində hərbi qulluqçularla görüş keçirib.**



Hərbi prokuror Xanlar Vəliyev, Daxili Qoşunlar komandanının müavini, general-mayor İnqilab Muradov, Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov çıxışlarında Ulu öndərin mükəmməl siyasətini yeni müstəvidə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 21 ildə ölkəmizdə görülmüş müstəsna işlərdən, uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm əhəmiyyət kəsb etməsindən söz açıblar. Habelə, ölkəmizdə keçirilən COP29-un mahiyyətindən və əhəmiyyətindən, eyni zamanda, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, suallar cavablandırılıb. Sonda ağaclar əkilib.

***XQ***




# Xüsusi hədəflənmiş kiberhücumların qarşısı alınıb

**Üçüncü rüb ərzində Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən kiberhücumların analizi nəticəsində 828 kiberhücum indikatoru müəyyən edilib.**

Dövlət Xidmətindən bildirilib ki, sözügedən kiberhücum indikatorlarının bloklanması nəticəsində dövlət qurumlarına qarşı hazırlanmış və xüsusi hədəflənmiş APT kiberhücumlarının qarşısı alınıb. Bu kibertəhdidlərin 439-u daxili araşdırma, 389-u isə dövlət qurumlarının müraciətləri əsasında müəyyən olunub.

***XQ***

# Cənubi Qafqaz sülhə təşnədir

(əvvəli 1-ci səhifədə)

Nikol erməni cəmiyyətindəki stereotipləri gözəl bilir. Anlayır ki, hay cəmiyyəti üçün başqasının torpağına qənim kəsilmək kimi mərəz var. Ancaq baş nazir nədənsə bu mənada Ermənistan və Azərbaycan cəmiyyətlərini eyniləşdirir. Ona görə də Sovet Ermənistanı və Sovet Azərbaycanı üzərində dayanır. Halbuki, yanaşma belə olmamalıdır. Həm də ona görə ki, Sovet Azərbaycanının ilkin ərazisi sonrakı ərazilərindən geniş olub. Mövzuya gələcəyik. Hələlik isə...

Maraqlısı odur ki, Sovet Azərbaycanının sərhədlərini tanımayan Ermənistan olub. Ona görə də Azərbaycana qarşı işğalçılıq yolu tutub. İşğalı otuz ilə yaxın müddətdə davam etdirib. Elə Sovet Ermənistanı da Sovet Azərbaycanının ərazisini tanımamışdı. Ona görə də 1929-cu ildə ikincinin torpaqları hesabına birincinin ərazisində Meğri rayonu yaranmışdı. O rayon ki, onun formalaşması ilə Sovet Azərbaycanı ilə Naxçıvan Muxtar Respublikası arasındakı quru əlaqəsi kəsilmişdi. Sonrakı dövrlərdə də ermənilərin respublikamıza qarşı ərazi iddiaları qeydə alınmışdı.

44 günlük müharibədən əvvəlki müddət və Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı hər kəsə yaxşı məlumdur. Söhbət müharibəyə səbəb olmuş sərsəmlikdən gedir. Bəs Ermənistan savaşdan sonra hansı yolu tutmuşdu? Çalışmışdı ki, Qarabağdakı separatçı rejim öz varlığını sürdürsün. Baxmayaraq ki, Nikol Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirmişdi. Ancaq bu da var: 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən əvvəl Paşinyan demişdi ki, Qarabağın özünün seçkili hakimiyyəti var. Yəni, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasının heç bir önəmi yoxdur. O zaman biz indi nə üçün erməni baş nazirin bildirdiklərinə inanaq?

İnanmırıq, çünki Ermənistan bütün səviyyələrdə anti-Azərbaycan siyasət gerçəkləşdirir. Məsələn, rəsmi İrəvan beynəlxalq platformalarda Qarabağ ermənilərinə qarşı etnik təmizləmə, Qarabağın erməni mədəni mirasının məhvi kimi cəfəngiyyatları qaldırır. Deməli, Nikolun ölkələrin bir-birinin ərazi bütövlüklərini tanımaları məntiqini qabardaraq, kommunikasiyaların açılması və iqtisadi əlaqələrin bərpası məsələsindən söz açması səmimiyyətdən uzaqdır. Çünki o, dediklərinin hansı formada reallaşa biləcəyini, necə bir şərtlər daxilində mümkünlüyünü bilir. Bilir ki, Bakı İrəvanın ortaya atdığı "Dünyanın kəsişməsi" avantürası ilə razılaşmayacaq, imkan verməyəcək ki, Ermənistan qlobal kommunikasiya habının həlledici fiquruna çevrilsin.

Bəli, Paşinyan sülhün bütün seqmentlərinin vacibliyini bildirərkən, Azərbaycanın iradəsinə uyğun gəlməyən məsələləri kənara qoymağın zəruriliyini anlamalıdır. Ancaq bunu etmir. Üstəlik, Ermənistan sürətlə silahlanır. Belə olan halda, Paşinyan jurnalistin ilin sonunadək sülh müqaviləsi imzalanmasının mümkünlüyünə dair sualını cavablandıra bilməyəcək, manipulyasiya ilə kifayətlənəcək. Manipulyasiya isə budur: "Bir şeyi deyə bilərəm: sülh müqaviləsinin bağlanması üçün üzərimə düşən işi 100 faiz və ya daha çox edəcəyəm".

## Aİ-nin binokl diplomatiyası

Məlumdur ki, Avropa İttifaqının Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfində keşik çəkən mülki müşahidə missiyası kollektiv Qərbin Cənubi Qafqazda möhkəmlənmək alətidir. Müşahidəçiləri gələcəkdə NATO missiyasına çevirmək kimi planlar da qurulmaqdadır. Yəni, mahiyyətcə, onlar, hələlik, bölgədə Qərb – Rusiya rəqabətinin saat mexanimli bombasıdır. Əlbəttə, "bombanı" işə salmaq mümkünsüzdür. Həm də ona görə ki, Azərbaycan missiyaya qarşıdır və onu ilk gündən Cənubi Qafqazda təxribat formalaşdırmaq məramı sayır.

Onu da bildirək ki, Qərb dairələri dəfələrlə Aİ-nin müşahidəçilərinin şərti sərhədin Azərbaycan tərəfində də keşik çəkmələrinə dair istəklərini ifadə ediblər. Yəni, bu, o demək olub ki, Bakı da İrəvan kimi, Qərbin anti-Rusiya cəbhəsində yer alsın. Əlbəttə, ölkəmiz özünün balanslı siyasət xəttinə sadiqdir və bu xəttə görə, Cənubi Qafqaz qlobal konfrantasiyalar platforması olmamalı, regiona tarixən bağlı ölkələrin maraq və mənafeləri təmin edilməlidir. Elə isə Paşinyan müsahibəsində nə üçün Aİ-nin missiyasına söykənir?



Sərhədin demarkasiya olunmuş ərazilərində müşahidəçilərə ehtiyacın olmadığını deyən N.Paşinyan Ermənistan tərəfindən Azərbaycana demarkasiyası aparılmamış ərazilərdə Aİ müşahidəçilərinin yerləşdirilmələrinin təklif edildiyini vurğulayıb. Məgər, Nikol bilmir ki, belə bir təklif tam mənasız və səmərəsizdir. Əlbəttə ki, bilir. Sadəcə olaraq, sülh prosesinə üçüncü tərəfi qatmaq istəyir. Üstəlik, nəzərə alaq ki, Aİ-nin missiyası, mahiyyətcə, sonsuzluq ritorikasına xidmət edən təsisatdır. Yəni, vaxtilə mövcud olmuş ATƏT-in monitorinq qrupu kimi. Ona görə də Nikol manipulyasiyadan əl çəkməli, sülhün real trayektoriyası üzrə hərəkət etməli, Qərbin "binokl diplomatiyası"nın xidmətlərindən imtina yolu tutmalıdır. Nəzərə almalıdır ki, hazırda Bakı – İrəvan münasibətləri məsələsində ortada olan az-çox pozitiv mənzərə ikitərəfli danışıqların nəticəsində əldə olunub, mövcud xüsusda müşahidəçilərin heç bir rolu qeydə alınmayıb.

## Etibar yoxdursa, barış da yoxdur

Ermənistanın baş naziri bildirir ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalansa, ölkələrin bir-birinə qarşı beynəlxalq platformalardakı iddialarına dair sövdələşmə də ola bilər. Bir qədər əvvəl İrəvanın və havadarlarının dünyanın müxtəlif yerlərində ölkəmizlə bağlı anti-təbliğat apardıqlarını vurğuladıq. Bunun bir adı var - ədavət. Nikol başa düşməlidir ki, ölkəsinin gördüyü iş etimad quruculuğu tədbirlərinə zərbədir. Etmad yoxdursa, sülh də yoxdur. Ortaya elementar sual çıxır: Ermənistan sülh istəyirsə, nə üçün prosesə ayırdığı diqqətdən çox, silahlanmağa və Azərbaycan əleyhinə hədyanlar yağdırmağa vaxt ayırır? Rəsmi İrəvan sülh müqaviləsi layihəsi üzrə təkliflərə aylar keçdikdən sonra cavab verirsə, həmin müddətdə Fransadan və Hindistandan silah alınması istiqamətində əməli fəaliyyət gerçəkləşdirirsə, onun səmimiyyətinə inanmaq olarmı? Yox!

Digər tərəfdən, sülh müqaviləsi birmənalı təbiətə malik olmalıdır. Adından da göründüyü kimi, söhbət barış mühitinin formalaşmasından gedir. Bu mühitin qərarlaşması, istər-istəməz, ədavətlərə son qoymaq deməkdir. Hazırda nəinki Ermənistan rəhbərliyinin, ümumən, erməni cəmiyyətinin ədavət üzərinə köklənməsi müşahidə olunursa, aydındır ki, durum sülh müqaviləsinin imzalanmaması reallığını doğuracaq və doğurur da.

## Mənasız arqumentlər

"Biz bəyan etmişdik ki, danışıqlar masasının gündəliyinə Konstitusiya ilə bağlı məsələ daxil edilməyib", – deyən Paşinyan, müəyyən mənada, haqlıdır. O anlamda ki, Azərbaycanın Ermənistanın konstitusiyasının dəyişdirilməsi ilə bağlı istəyi danışıqlar predmeti deyil. Bu, ölkəmizin sülh müqaviləsinin imzalanması baxımından irəli sürdüyü tələbdir. Nikol isə diqqətə çatdırdığımız sitatdakı fikirləri ilə əslində, konstitusiya dəyişikliyinə gedilməyəcəyinin anonsunu verir və bildirir ki, Bakının tələbi "Azərbaycanın prosesi xüsusi çıxılmaz vəziyyətə" salmasıdır. Buna qədər isə erməni baş nazir ölkəmizin konstitusiya dəyişikliyi tələbini irəli sürməklə ehtiyatlandığı məntiqi üzərində dayanıb. "Ona görə də biz ardıcıl olaraq bu qorxunu arqumentlərlə dağıtmağa çalışırıq", – deyə vurğulayıb.

Əvvəla, Azərbaycan qorxub eləmir. Ölkəmizin prinsipial yanaşması budur ki, sülh təminatlı və dayanıqlı olsun. Özündə hansısa qeyri-müəyyənlikləri və riskləri birləşdirən sülh Azərbaycana lazım deyil. Təminat erməni xalqının iradəsi olmalıdır. İradənin nümayiş meydanı isə konstitusiya dəyişikliyi üçün keçiriləcək referendumdur. Necə olur ki, Paşinyan müsahibəsində Aİ-yə qoşulmaq üçün referendumun keçirilməsi kimi mənasız şeydən danışır, bir növ, Avropa ailəsinin üzvü olmaq məsələsini ilahiləşdirir, amma Azərbaycanla sülhə gəldikdə, ölkəsinin konstitusiya məhkəməsinin çıxardığı kağız parçasına əsaslanır? Deməli, o, barış naminə üzərinə düşən 100 faizlik işi gerçəkləşdirmək niyyətindən uzaqdır.

Hələ Paşinyan həyasızlıq da edir. Azərbaycan Konstutisiyasında Ermənistana qarşı ərazi iddialarının mövcudluğu üzərinə fokuslanan Nikol özünü "sülh göyərçini" qiyafəsində göstərməyə çalışır: "Sual yaranır: o zaman biz niyə Azərbaycan konstitusiyasına dəyişiklik məsələsini qaldırmırıq? İki səbəbə görə: birincisi, bu, həqiqətən, sülh prosesini dalana dirəyəcək, ikincisi isə sülh müqaviləsinin artıq razılaşdırılmış hissəsində maddə var ki, tərəflərdən heç biri ona müraciət edə bilməz. Bu, müqavilə üzrə öhdəliklərini yerinə yetirməməsi üçün daxili qanunvericiliyə istinaddır".

Göründüyü kimi, Paşinyan Azərbaycanla Ermənistanı, bir növ, eyniləşdirməyə çalışır. Halbuki, nəzərə almalıdır ki, işğalçılıq edən onun ölkəsidir, Azərbaycan yox. Nikol müsahibəsində deyir ki, Ermənistanın İstiqlaliyyət bəyannaməsində yazılanlar konstitusiyada əksini tapmır və buna görə etibarsızdır, sənədin özü isə xalqın, sanki, romantik ruhunun məhsuludur.

Məsələ ondadır ki, Azərbaycan otuz ildən artıq müddətdə həmin "romantikanın" acı təsirlərini daşıyıb, nəticələrinə qatlaşıb. Yəni, Ermənistan sözügedən bəyannamədə yazılanları gerçəkləşdirməyə çalışıb. Ölkəmiz işğalçı mövqe tutmayıb və mövcud kontekstdə bəraət almalı olan tərəf Ermənistandır. Referendum həm də bəraətin yoludur. Ölkənin heç bir sənədində Azərbaycana qarşı ərazi iddiası yer almamalıdır. Çünki, bu, ziyan törədir, indiki halda, həm də sülh üçün təhdid mahiyyəti daşıyır. Yəni, Nikol Ermənistan konstitusiyasında Ermənistan Respublikasının ratifikasiya etdiyi beynəlxalq müqavilələrinin daxili qanunvericilikdən üstünlüyünün vurğulanması müddəasını arqument kimi göstərməsi yolverilməzdir. Çünki illər ərzində İrəvanın beynəlxalq sənədlərə münasibətdə aşkar saygısızlığı nümayişini görmüşük.

## Hiyləgərlik

Nəhayət, bilavasitə, Nikolun hiyləgərliyi üzərinə gələk. Paşinyan müsahibəsində Ermənistan konstitusiya məhkəməsinin İstiqlaliyyət bəyannaməsində yer alan, ancaq Əsas qanunda əksini tapmayan müddəaların etibarsızlığına dair qərarını qabartmaqla əsaslandırmaq istəyir ki, Ermənistanın ana qanununun dəyişdirilməsinə ehtiyac yoxdur. Bu, dolayısı ilə Bakının tələbin yerinə yetirilməyəcəyi deməkdirsə, erməni baş nazirin əlyeri qoyduğu da görünür. Diqqət yetirək, Paşinyan deyir: "İndi tutaq ki, Ermənistanla Azərbaycan sülh müqaviləsi imzalayıblar. Hökumət bunu istər-istəməz Konstitusiya məhkəməsinə göndərməlidir. Konstitusiya məhkəməsi müqavilənin Konstitusiyamıza zidd olduğuna qərar verərsə, biz seçim etməli olacağıq: ya Konstitusiyanı dəyişdirək, ya da müqavilədən imtina edək. Amma Konstitusiya məhkəməsi bu sazişin konstitusiyaya uyğun olduğuna qərar verərsə, bu halda sazişin Milli Assambleyaya göndərilməsinə və ratifikasiyasına heç bir manəə olmayacaq".

Bəli, Paşinyanın bu sitatdakı fikirləri hiylədən, qeyri-səmimi davranışdan və manipulyasiyadan başqa bir şey deyil. Aydındır ki, Ermənistanın Konstitusiya məhkəməsi sülh müqaviləsinin ana qanuna uyğunsuzluğuna dair qərar verməyəcək ki, proses konstitusiya dəyişikliyinə doğru uzansın. Ancaq Nikol, öz aləmində, əsas qanunun dəyişdirilmə ehtimalını qabardır. Bunu edir ki, Azərbaycanı, natamam sülh müqaviləsi məsələsində razı salsın, şirniklədirsin.

Digər yandan isə Paşinyan, deyəsən, erməni qanunvericilik sisteminin ədalətinə inanır, ya da bizi inandırmaq istəyir. İnansa dərd yarıdır, hərçənd buna şübhəmiz var. Bizi inandırmaq istəyirsə, bunun özü böyük qələtdir. Yaxşı olar ki, erməni baş nazir gedib bu cür yarımçıq diplomatikliyi ölkəsindəki müxaliflərə münasibətdə həyata keçirsin.

Azərbaycanın tələbi qətidir və heç bir şəkildə mübahisələndirilə, şübhələndirilə bilməz. Ermənistan Konstitusiyası, bütövlüklə, ölkənin İstiqlaliyyət bəyannaməsini istinadı aradan qaldırmalıdır. Bunun yolu referendumdur. İkincisi, hətta, həmin bəyannamənin özünə də dəyişiklik edilməlidir. Bir halda ki, Nikol sənəddən danışarkən, "çünki təsəvvür edin, biz yeni müstəqil dövlət yaradırıq, Azərbaycan və Türkiyə ilə münaqişə məntiqi ortaya qoyuruq" deyir, o zaman, belə bir bəyannamə nəyə lazımdır? Hələ erməni baş nazirin bu fikri də var: "Biz İstiqlaliyyət bəyannaməsinə ətraf mühitimizlə uzun və dərin ziddiyyətləri nəzərdə tutan bir məntiq yaratdıq".

Təbii ki, özündə ziyanlı tezisləri birləşdirən bəyannamə Ermənistana, qətiyyən, lazım deyil. Ancaq Paşinyan köklü yanaşmadan uzaqdır. Bu səbəbdən Nikolun jurnalistin "Konstitusiyaya dəyişikliklərin edilməsi və İstiqlaliyyət bəyannaməsinə istinadın konstitusiyadan çıxarılması təklifi ilə ictimaiyyətə müraciət edəcəksinizmi?" sualına cavabına nəzər salaq: "Bu məsələləri bir-biri ilə əlaqələndirməyək. Çünki Konstitusiya məhkəməmiz artıq bəyan edib ki, bizim İstiqlal bəyannaməmiz yalnız konstitusiyada sözbəsöz ifadə olunan hissələrlə de-yure hüquqi qüvvəyə malikdir. Qeyd etdiyim hissələrin heç biri konstitusiyada sözsüz ifadə olunmayıb".

Sonda onu deyək ki, Ermənistan baş nazirinin ölkəsinin İctimai televiziyasına müsahibəsində ölkəmizlə sülh məsələsində səsləndirdikləri siyasi spekulyasiya idi. Əvvəldə də bildirdik ki, Nikol hər şeydən danışdı, amma heç nə demədi. Deməli, obrazlı desək, Cənubi Qafqazda sülh közərtilərinin yeri yalnız üfüq olaraq qalır. Görünür ki, 2024-cü ilin qarşıdakı ay yarımdan az bir müddətində də mövcud istiqamətdə ciddi irəliləyiş əldə olunmayacaq.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

# İrəvanın anti-Rusiya status-kvosu və səfir Kopırkinin ümidi

(əvvəli 1-ci səhifədə)

Suala cavab vermək üçün Moskva–İrəvan münasibətlərindəki hazırkı trayektoriyanın üzərində dayanmağa ehtiyac var. Nəzərə alaq ki, bu trayektoriya üzrə iki məqam səciyyəvidir. Birincisi, Ermənistanla Kremlin hakim mövqe tutduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının münasibətləri, ikincisi, Moskvanın Azərbaycan-Ermənistan nizamlamasında iştirakı.

Doğrudur, Ermənistan Rusiyanın başlıca rol oynadığı Avrasiya İqtisadi İttifaqı ilə münasibətlərini rəvan saxlamaqdadır. Ancaq eyni sözü KTMT müstəvisində demək mümkünsüzdür. İrəvanın sözügedən qurumla münasibətləri kəskindir. Baxmayaraq ki, təşkilata üzvlükdən rəsmən imtina etmir. Əlbəttə, erməni rəsmiləri, sanki, bəhanə axtarır, istəyirlər ki, KTMT, faktiki olaraq, üzvlük öhdəliklərini yerinə yetirməyən Ermənistana münasibətdə sərt addımları işə salsın. Amma qurumun rəhbərliyindəkilər səbrlidirlər. Yəni, Rusiya təmkinli davranır, körpüləri yandırmağa tələsmir.

Ermənistan–KTMT müstəvisindəki ziddiyyətlər özünü 2022-ci ildən göstərməyə başlayıb. İrəvan təşkilatın Azərbaycanın təcavüzkarlıq kimi qiymətləndirdiyi hərəkətlərinə hüquqi-siyasi qiymət verməsini istəyib, lakin bu alınmayıb. Məsələ ondadır ki, Ermənistan KTMT-nin timsalında Rusiyanın Azərbaycana qarşı çıxmasına çalışıb. Amma buna qarşılıq heç bir addım atmaq niyyətində olmayıb. O zaman sual yaranır: Rusiya nə üçün özünü tam şəkildə Qərbə çevirmiş Ermənistana görə Azərbaycanla münasibətlərin kəskinləşməsinə getməlidir?

Əlbəttə, söhbət heç də onda deyil ki, əgər Ermənistan Rusiyanın orbitinə qayıtsa, ikinci birincinin Azərbaycanla ədavətində açıq tərəf qismində çıxış edəcək. Hər bir halda, Moskva İrəvan üçün nələrisə edə bilər. İndiki durumda isə bu, mümkünsüz kimi görünür. Halbuki, şanslar var idi. Şanslardan söz düşmüşkən, Ermənistan-Rusiya ziddiyyətlərinin səbəb tyaketoriyasını müəyyənləşdirən daha bir cəhətə keçid almazdan əvvəl deyək ki, İrəvan hazırda KTMT-nin tədbirlərinə qatılmır, haqqında söz açdığımız mövqeyini çox aydın və nümayişkaranə şəkildə göstərir. İrəvan, həmçinin KTMT-yə qarşı qurumun Ermənistandakı səlahiyyət dairəsini müəyyənləşdirməsi kimi aşağılayıcı ton seçir. Erməni rəsmiləri bunun baş verməyəcəyi təqdirdə münasibətləri qaydaya salmayacaqlarını vurğulayırlar.

Qeyd edək ki, noyabrın 28-də Astanada KTMT-nin Xarici İşlər Nazirləri Şurasının, Müdafiə Nazirləri Şurasının və Təhlükəsizlik Şuraları Katibləri Komitəsinin birgə iclası, eləcə də KTMT Kollektiv Təhlükəsizlik Şurasının sessiyası keçiriləcək. Tədbirlərdə kollektiv təhlükəsizlik regionlarında hərbi-siyasi vəziyyətə dair fikir mübadiləsi, qurum çərçivəsində əməkdaşlığın nəticələrinin və kollektiv təhlükəsizlik sisteminin gələcək inkişaf perspektivlərinin müzakirəsi nəzərdə tutulur. Habelə, toplantılarda İkinci Dünya müharibəsində Qələbənin 80 illik yubileyinin birgə qeyd edilməsinə hazırlıq məsələlərinə də xüsusi diqqət yetiriləcəyi aydındır. Rusiya Prezidenti V.Putinin noyabrın sonunda Qazaxıstana səfər edəcəyi rəsmən təsdiqlənib. Ermənistan baş nazirinin Astanaya gedib-getməyəcəyi ilə bağlı suala gəldikdə, onun mətbuat xidmətinin cavabı belədir: "Baş nazirin bütün səfərləri barədə vaxtında məlumat verilir".

***

Ermənistan-Rusiya ziddiyyətlərinin ikinci qütbünü bilavasitə Kremlin Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsindəki mövqeyi təşkil etməkdədir. Bəli, hazırda Bakı-İrəvan tənzimlənməsində vasitəçilik institutu işlək deyil. Amma zamanında Moskva bu baxımdan öndə idi. Ermənistan Qərbi mövcud trayektoriyada əsas fiqura çevirmək istədi və əməlini Rusiyanın roluna zərbə vurmaqla reallaşdırdı. Deməli, hazırda səfir Kopırkin, əslində, olmayan məsələdən söz açır. Ancaq bir qədər fərqli şəkildə. Hiss olunur ki, elçinin münasibəti də ölkəsini vasitəçi ampluasında göstərməkdən uzaqdır.



Beləliklə, Rusiyanın Ermənistandakı səfiri deyir ki, Moskva Bakı ilə İrəvan arasında davamlı sülhün tezliklə bərqərar olmasında maraqlıdır. Söhbət sülh müqaviləsinin imzalanmasından gedir. "Region üçün taleyüklü olan bu sənədin, tərəflərdən heç biri üçün "acı dad" verməyən, bütün qarşılıqlı narahatlıqların ədalətli həllinə əsaslanması vacibdir. Biz aydın görürük ki, İrəvanla Bakı arasında qarşılıqlı məqbul kompromislərə nail olmaq, SSRİ-nin dağılmasından sonrakı və əvvəlki hadisələri nəzərə alsaq, çətin və vaxt aparan prosesdir", – deyən Kopırkin onu da bildirir ki, Kreml Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında 2020-2022-ci illərdə imzalanmış üçtərəfli sazişlər toplusunun ruhuna uyğun olaraq, ikitərəfli münasibətlərin tənzimlənməsində erməni və azərbaycanlı tərəfdaşlara yardım göstərməyə hazırdır. Yardımın formaları və həcmini isə danışıq aparan tərəflər özləri seçməlidirlər: "Bu baxımdan biz şadıq ki, oktyabrın 24-də Kazanda keçirilən BRICS sammitində Ermənistan və Azərbaycan arasında ən yüksək səviyyədə məhsuldar təmaslar olub və bu, münasibətlərin normallaşması üzrə dialoqa faydalı təkan verməyə imkan verib".

Bəli, Ermənistan rəhbərliyi Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında Kazanda BRICS sammiti zamanı yaranmış təmasın faydaları üzərində dayanır. Amma bu təmas, heç bir halda, Rusiyanın vasitəçiliyi kontekstində dəyərləndirilmir. O ki qaldı, üçtərəfli bəyanatlar sisteminin icrasına, hazırda İrəvan əvvəllər olduğu kimi buna qarşıdır. Ayrıca, Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 9-cu bəndinin icrasından yayındığını vurğulamalıyıq. Xatırladaq ki, sözügedən bənddə İrəvanın Naxçıvana yol xüsusunda üzərinə götürdüyü maneəsiz keçidi təmin etmək öhdəliyi yer alıb və həmin yolda təhlükəsizliyin Rusiya Federal Təhlükəsizlik Xidmətinin təmin edəcəyi bildirilib. Ermənistan nəinki bu müddəanı danır, ümumən, son durum belədir ki, ölkədəki rus hərbi mövcudluğu tam şəkildə tarix olmağa yaxındır. Daha doğru desək, 2025-ci ilin yanvarında rus hərbi kontingentinin Ermənistandan tamamilə çıxması məsələsi var. Ümumən, Moskva-İrəvan münasibətlərində hansısa müsbət impuls yoxdur. Deməli, səfir Kopırkinin Ermənistanın Avrasiyada vahid və bölünməz təhlükəsizlik sisteminin inkişafında iştirakına ümid bəsləməsi bir o qədər yerinə düşmür.

*Ə.RÜSTƏMOV*
*XQ*

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Dünyanın nəbzi 2 həftə Bakıda vurdu

(əvvəli 1-ci səhifədə)



İki həftə davam edən, olduqca mühüm qərarların qəbul edildiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) bağlanış plenar iclasındakı çıxışlarda Bakı Sammitinin uğurla başa çatdığı birmənalı olaraq vurğulandı. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil öz çıxışında COP29-da önəmli qərarların qəbul olunduğunu nəzərə çatdırdı. O, İqlim Maliyyə Hədəfinin 3 dəfə artırılması barədə razılığın əldə edildiyini, bunun iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalanlara dəstək üçün önəmli olduğunu dedi. BMT rəsmisi təxminən 10 il davam edən çətin fəaliyyətdən sonra məhz Bakı Sammitində qlobal karbon bazarı barədə razılığın əldə olunmasını yüksək qiymətləndirdi.

## Sözümüzü daha ucadan deyəcəyik

Bəli, Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün öz səylərini əsirgəmədi. Bunun nəticəsində beynəlxalq ictimaiyyət Bakıda əldə olunan tarixi nailiyyətə şahidlik etdi. Bəs, COP29-a ev sahibliyi etmiş Azərbaycanın qazandığı əsas siyasi dividendlər hansılardır?

**Bu barədə XQ ilə fikirlərini bölüşən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyova** görə, əsas dividend 44 gün-



lük Vətən müharibəsindən sonra "kollektiv Qərb"in, ermənipərəst qüvvələrin Azərbaycanı təkləmək planlarının baş tutmamasıdır: "Onların BMT Təhlükəsizlik Şurası, onun Baş Assambleyasında ölkəmizə qarşı hər hansı siyasi təzyiq imkanları olmadı. Amma Avropa Şurası, Avropa Parlamenti Azərbaycana qarşı çeşidli hücumlar təşkil etməyə çalışırdılar. Bakının COP29-u yüksək səviyyədə keçirməsi, bura dünyanın bir çox dövlət başçılarının, nümayəndə heyətlərinin gəlməsi onların məkrli planlarının üstündən xətt çəkdi. Azərbaycana qarşı boykot təşəbbüsləri də baş tutmadı.

Ölkəmizin əldə etdiyi ikinci qazanc ondan ibarətdir ki, iqlim gündəliyi bundan sonra beynəlxalq münasibətlərdə xüsusi yer tutacaq. Bu baxımdan COP29 konfransını öz ərazisində keçirən Azərbaycan böyük təcrübə topladı. Gələcəkdə bu cür qlobal tədbirlərdə Azərbaycanın iştirakı əhəmiyyətli olacaq. Biz o tədbirlərdə hazırlıqlı şəkildə iştirak edəcəyik. Yəni, iqlim sammiti üzrə mütəxəssislərimiz yetişdi və onlar dünya ilə lazımi əlaqələr qurdular.

Ən önəmli amillərdən biri də 70 mindən çox insanın Azərbaycana gəlməsi, onların ölkəmizin inkişafını öz gözləri ilə görməsi respublikamızın dünyanı narahat edən qlobal məsələrin həllinə yaxından qoşulmasının, onun beynəlxalq miqyasda çəkisinin və nüfuzunun artmasının göstəricisidir. Nəhayət, dördüncü qazancımız ondan ibarətdir ki, Bakı Sammiti çərçivəsində həm ikitərəfli, həm də çoxtərəfli təmaslar, dövlət rəhbərləri, baş nazirlər, nazirlər səviyyəsində keçirilən görüşlər ölkəmizin işgüzar əməkdaşlıq pespektivinə öz töhfəsini verəcəkdir. Bütün hallarda Azərbaycan COP29-dan siyasi və iqtisadi dividendlərlə yanaşı, eyni zamanda, informasiya sahəsində də ciddi qazanc əldə etmiş oldu".

İki həftəlik beynəlxalq konfransı izləyən dünya Azərbaycanı özü üçün yenidən kəşf etdi. Bugünədək ölkəmizi tanımayanlar onun planetin üzləşdiyi qlobal problemlərin həllinə həssas yanaşmasının, iqlim dəyişmələrindən əziyyət çəkən xalqlara yardım çağırışlarının şahidi oldular. Yəni, COP29 bundan sonra keçiriləcək beynəlxalq tədbirlərdə Azərbaycana sözünü daha ucadan və ərklə demək haqqını qazandırdı.

## Bakının uğuru çoxtərəfliyin təntənəsidir

"Bakı COP-da İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Biz, həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olduq. Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək edəcək". Prezident İlham Əliyev rəsmi paylaşımında Bakı Sammitinin ən böyük uğuru kimi çoxtərəfliliyin təmin edilməsini vurğulayıb: "Həqiqətən də, BMT COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Mən COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün tərəflərə – Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığımı bildirirəm",

İndi Azərbaycanın uğura sevinməyə haqqı var. Amma bu uğur heç də asan əldə edilmədi – desək, yanılmarıq. İstər COP29-a hazırlıq dövründə, istərsə də BMT-nin bu nüfuzlu iqlim sammitinin keçirildiyi günlərdə Azərbaycana qarşı "kollektiv Qərbin" başına topladığı müxtəlif ölkə, təşkilat, erməni lobbisinin şəbəkələndirdiyi media qurumları tərəfindən qısqanclıq, paxıllıq və riyakarlıqdan yoğrulmuş təhdidlərin şahidi olduq. Müxtəlif mərkəzlərdən idarə olunan və maliyyələşdirilən anti-Azərbaycan şəbəkəsinin qarayaxma kampaniyası ilə konkret məqsədlərə çatmağı hədəflədiyi sirr deyildi. Amma alınmadı. Reallığın və tarixi ədalətin diktəsi ilə qalibiyyət bu dəfə də Azərbaycanın tərəfində oldu.

## Çanaq öz başlarında çatladı

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən, 23 saatlıq antiteror əməliyyatı nəticəsində ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra bölgədə söz, nüfuz və güc sahibinə çevrilməsini həzm edə bilməyənlərin "çete"si BMT-nin ən genişmiqyaslı tədbirini – COP29-a Bakıya təzyiq və güzəştlər qoparmaq fürsəti kimi baxırdı. Bir çox hallarda xristian təəssübkeşliyi ilə "süslənmiş" ermənipərəst qüvvələrin çatmaq istədikləri əsas hədəflərdən biri nüfuzlu iqlim sammitinin ev sahibini belə beynəlxalq məqamda öz imicinə xələl gətirməyəcəyi düşüncəsi ilə tezbazar Ermənistanla sülh müqaviləsini imzalamağa məcbur etmək idi. Yalan, böhtan və dezinformasiya maşınını tam gücü ilə işə salmış haypərəst düşərgənin hədəfləri sırasına xalqımıza qarşı hərbi cinayətlər törətdiklərinə görə Bakıda həbsxanada istintaq altında olan keçmiş separatçıların sərbəst buraxılmasına nail olmaq, Qarabağı könüllü tərk etmiş ermənilərin geriyə dönüşünü təmin etmək və bu yolla bölgədə yeni terrorizm və separatizm ocağını qalamaq, nəticədə özlərinin məkrli planlarını həyata keçirmək üçün "münbit geosiyasi, hərbi" kriminogen durum yaratmaq daxil idi. Onların "COP29-a total hücum" şərti kodu altında hazırladıqları "əməliyyat planı"nda neft-qaz sənayesinə malik ölkəmizi qeyri-real və ağlasığmaz öhdəliklərlə "yükləmək" və bu üsulla iqlim sammitini və deməli, Azərbaycanı gözdən salmaq da nəzərdə tutulmuşdu. Amma "kollektiv Qərb" və ermənipərəst "çete" COP29-la bağlı "nişangaha götürdüyü" hədəflərdən heç birinə çatmadı!

Əksinə, başlatdıqları Azərbaycana qarayaxma kampaniyası bumeranq effekti verərək, özlərinə qarşı çevrildi. Məkrli ideoloji ssenarinin müəllifləri BMT-nin qlobal iqlim sammitində iştirak etmək üçün dünyanın dörd tərəfindən Bakıya təşrif buyurmuş 76 min qonaqla yanaşı, tədbiri və buradakı çıxışları canlı izləyən milyardlarla insanın gözündə özlərini biabır etdilər. Bakı Sammitinin möhtəşəmliyi qarşısında diz çökən "kollektiv Qərb" bumeranq effektinin "yaşıl yumruq" effektinə çevrilməsini özü təmin etdi. Necə deyərlər, çanaq öz başlarında çatladı. Bu sonluq Azərbaycan Prezidenti İlham Əliyevin COP29-un Liderlər Sammitinin açılışında söylədiyi proqnozları ilə tam üst-üstə düşdü. Qərəzli kampaniya ifşa olundu və Azərbaycan beynəlxalq tədbirdə yeni uğura imza atmaqla nüfuzunu daha da artırdı.

## "İnkişaf etmişlər"in xəsisliyinə baxmayaraq...

Bir həqiqəti də təəssüf hissi ilə qeyd etməliyik ki, ermənipərəst düşərgəni dəstəkləyən və yemləyənlərdən biri də ABŞ Dövlət Departamenti, Co Bayden Administrasiyası oldu. 2024-cü ilin aprelindən etibarən Avropa İttifaqı–Fransa–ABŞ "üçlüy"ü Hayastanı siyasi, hərbi və maliyyə cəhətdən dəstəkləməklə məşğuldur. O da məlumdur ki, bizə qarşı aparılan bu hibrid təhdidlərin arxasında erməni diasporu və dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni lobbi təşkilatları dayanır.




Özlərini "demokrat" adlandıranlar iqlim dəyişikliyinin fəsadları ilə mübarizədə ən önəmli tədbirə – COP29-a ev sahibliyi edən Azərbaycana qarşı qərəzlərini açıq-aşkar nümayiş etdirdilər.

**Bakı Politoloqlar Klubunun rəhbəri, siyasi icmalçı Zaur Məmmədov** hesab edir ki, Azərbaycan daha bir qlobal tədbiri yüksək səviyyədə keçirməyə nail oldu: "Xarici qonaqların qarşılanmasından hotellərdə yerləşdirilməsinə, nəqliyyat və təhlükəsizlikdən tədbirin baş tutduğu zallardakı rahatlığa qədər hər şey peşəkarlıqla həyata keçirildi. Azərbaycan həm tədbirin təşkilatçısı, həm də prezidenti kimi, Qlobal Cənub ilə Qlobal Şimalı bir araya gətirməyi bacardı. Bakı planetar miqyaslı problemlərin effektiv şəkildə müzakirəsinə ev sahibliyini böyük əzmkarlıq və professionallıqla keçirməyə qadir olduğunu bir daha tədiqlədi. Tarixində ilk dəfə olaraq 76 mindən çox insan tədbirlərdə iştirak etdi. Əksər dövlətlərin liderlərinin, prezident, baş nazir və ya nazirlərinin, 2200-ə yaxın QHT-dən 10 mindən çox təmsilçinin, müxtəlif sahələri əhatə edən ekspertlərin, dünya miqyaslı tanınmış şəxslərin Bakı Sammitində iştirakı uğurun göstəricisidir".

Z.Məmmədov bu tədbirlə ölkəmizin imicinin daha geniş coğrafiyada möhkəmləndiyinə diqqəti yönəltdi: "BMT-nin iqlim konfransı təkcə iqlim dəyişmələri ilə bağlı qlobal məsələlərin müzakirə platforması kimi yox, həm də ölkələrin haqq səslərinin eşidilməsi, onların birgə əməkdaşlıq şəbəkələri qurması baxımından da əhəmiyyətli oldu. COP29-da Azərbaycan qlobal problemlərin həllində sözdə deyil, əməldə də fəal iştirakçı olduğunu sübut etdi. Ölkəmizin əksər dövlətlər tərəfindən



etibarlı tərəfdaş kimi qəbul edildiyi bir daha onlar tərəfindən təsdiqləndi. Beləliklə, Azərbaycanı və bəşəriyyət qarşısında duran problemlərin həllini istəməyən qüvvələrin səylərinə baxmayaq, Bakıda keçirilən COP29 tədbirində COP tarixində ilk dəfə olaraq, mühüm razılıqlar əldə edildi. Bu uğurlar rəsmi Bakının sərf etdiyi böyük zəhmət bahasına əldə olundu. Azərbaycan bu kimi tədbirləri keçirən və keçirmək istəyən dövlətlər üçün nümunə rolunu oynadı. Ölkəmiz göstərdi ki, etimadı qazanmaq azdır, onu doğrultmaq lazımdır".

Artıq öz işini başa çatdırmış COP29-un nəticələrindən danışarkən, ilk növbədə, bunları qeyd etmək lazımdır: Azərbaycan BMT-nin iqlim sammitinə ev sahibliyi çərçivəsində ambisiyalı gündəlik formalaşdıraraq, planetin üzləşdiyi problemlərin açıq və şəffaf şəkildə müzakirəsinə nail oldu. Müzakirələr həm də onu göstərdi ki, inkişaf etmiş ölkələr kasıb və iqlim dəyişmələrindən ən çox əziyyət çəkən xalqlara cüzi kompensasiya ödəməyə də xəsislik edirlər. Bunun əvəzində isə, problemə ikili standartla yanaşmanın, iqlim hədəflərinə xəyanətin, Bakıya qarşı COP29 fürsətindən yaralanaraq siyasi təzyiq formalaşdırmağa çalışıldığının şahidi olduq. Bütün bunlara baxmayaraq, Bakı İqlim Sammiti planetar miqyaslı bir tədbir olaraq, iştirakçıların coğrafiyası, sayı və əhatə dairəsinin genişliyi ilə yadda qalacaq.

## Gələcəyə "yaşıl körpü"

Xülasə, yazımızın əvvəlinə qayıdaraq bir daha vurğulamaq istərdik ki, mədə traktında siyasi həzmetmə prosesi pozulmuş, COP29 öncəsi və tədbir zamanı Azərbaycana qarşı iyrənc, qərəzli, aşkar düşmənçilik xarakteri daşıyan kampaniyaya qoşulanlar bizim xeyrimizə işlədilər, – deyə bilərik. Açıq etiraf etmək lazımdır ki, COP29-la bağlı son bir ildə ölkəmizə qarşı aparılan kampaniya "ideoloji diversiya" xarakterli olub, hibrid müharibənin ən eybəcər forması sayılmalıdır. Azərbaycan qlobal dünyamızın reallıqlarına ən adekvat şəkildə davranan dövlətlərdən biridir. Ölkəmizin uzun illər ərzində beynəlxalq arenada qazandığı etibarlı tərəfdaş imici xarici əlaqələrdə, dünya ilə təmaslarda mövqeyimizi gücləndirir, yeni uğurların üfiqlərini müəyyənləşdirir. Ayrı-ayrı ölkələr bu gün Cənubi Qafqazın lider dövləti olan, Avropa qitəsinin enerji təhükəsizliyinin əsas təminatçısı rolunda çıxış edən, qlobal layihələr sayəsində regionun əsas transmilli habına çevrilmiş Azərbaycanla əməkdaşlığın onlara böyük dividendlər qazandırdığını görürlər. Onlar həm də Azərbaycanın imzaladığ bütün müqavilələr üzrə xarici tərəfdaşlar qarşısında götürdüyü öhdəliklərə sonadək sadiq qalacağına tam əmindirlər. Bu, hətta, dünyanın inkişaf etmiş dövlətlərinin heç də hamısının qazana biləcəyi reputasiya deyil.

COP29-un ev sahibi kimi Azərbaycan bütün dünyaya sübut etdi ki, bəşəriyyəti narahat edən məsələlərin müzakirəsi üçün əlverişli məkandır və o, qlobal tədbirləri yüksək səviyyədə təşkil edə və zəruri nəticələrin əldə olunmasına dəyərli töhfələr verməyə qadirdir. Məhz buna görə Azərbaycanla münasibətləri inkişaf etdirmək istəyən, Bakının irəli sürdüyü təşəbbüslərdən, yaratdığı real imkanlardan qarşılıqlı şəkildə faydalanmağa can atan dövlətlərin sayı gündən-günə artır.

Əlbəttə, sadaladığımız bu amillər, eyni zamanda, dövlətimizin xarici arenadakı dost çevrəsini genişləndirir, ölkəmizə və xalqımıza rəğbət bəsləyənlərin sayını daha da artırır. Artıq arxada qoyduğumuz COP bizə dostlarımızı və bədxahlarımızı bir daha yaxından tanımaq imkanı verdi. Əminik ki, dost dediyimiz ölkələr etibarlı tərəfdaşları olan Azərbaycanın haqlı mövqeyinə bundan sonra da dəstək verməyi, maraqlarımızı müdafiə etməyi özlərinə borc biləcəklər.

Bakı Sammitinin uğurları barədə dünyanın nüfuzlu media qurumları reportajlar yayımladılar, geniş xəbərlər dərc etdilər. Almaniyanın nüfuzlu "Deutsche Welle" nəşri öz oxucularına bildirdi ki, BMT-nin Bakıda keçirilən iqlim konfransı iştirakçıları noyabrın 23-də yoxsul ölkələrə iqlim yardımının artırılması barədə razılığa gəliblər. Nəşr daha sonra yazır: "2035-ci ilə qədər sənaye ölkələri tərəfindən bu məqsədlər üçün hər il ayrılan vəsaitlərin həcmi, ən azı, 300 milyard dollara qədər artmalıdır. Ümumilikdə, həm dövlət, həm də özəl maliyyələşdirmə nəzərə alınmaqla, yoxsul ölkələr o vaxta qədər 1,3 trilyon dollar almalıdırlar".

Yazımızın sonunda oxucuların diqqətini Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 24-də sosial şəbəkə hesabında "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!" sərlövhəli paylaşımındakı sitata yönəltmək istərdik: ***"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək".***

Yaratdığı reallığı tarixi gerçəkliyə çevirməyi bacaran Azərbaycan xalqı bədxahlarının planlarının boşa çıxmasının kökünün haradan qaynaqlandığını çox yaxşı anladığı kimi, uğurlarının əsasında nəyin dayandığını da gözəl bilir. Bu, xalq–lider birliyinin sağlam zəminə malik olmasıdır.

Bəli, bizim, lazım gələrsə, dəmirə çevrilə bilən nadir yumruğumuz var. Bu yumruq həm də heç vaxt sarsılmayacaq birliyin, qarşılıqlı anlaşma və güvəncin rəmzidir. İndi bu yumruq bölgədə və dünyada beynəlxalq hüququn qorunması missiyası ilə yanaşı, Yer sakinlərinin ən həssas təbəqələri üçün layiqli və sağlam şəraitin təmin edilməsində Azərbaycanın liderliyinin əyani şəkildə nümayiş etdirildiyi qlobal formatı qəbul etdi.

***İmran BƏDİRXANLI***
***XQ***

COP29 Baku Azerbaijan — COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024 — COP29 Baku Azerbaijan

# COP29 yaşıl gələcəyin təməlini qoydu



**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanda keçirilən COP29-da Paris İqlim Sazişinin 6-cı maddəsinin tam uyğunlaşdırılmasına dair tarixi razılaşma əldə edildi. Bu maddə ilə bağlı 10 ilə yaxın davam edən çoxillik danışıqlar nəticə vermirdi və bu da iqlim dəyişikliyi ilə mübarizəyə əlavə vəsaitin cəlb edilməsinə mane olurdu. Dubayda keçirilən COP28-də Paris Sazişinin 6.4-cü bəndinin razılaşdırılmasına böyük ümidlər olsa da, gözlənilən nəticə əldə edilməmişdi. Bununla belə, Bakıda keçirilən sammitdə tərəflər Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) tam nəzarəti altında karbon bazarının fəaliyyətinə yaşıl işıq yandıraraq, 6.2, 6.4 və 6.8-ci bəndləri razılaşdıra bildilər.

Bundan başqa, COP29-un əsas prioriteti olan iqlim maliyyəsi üzrə YKKH qəbul edildi. Sənədə əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbərliyi nəticəsində 2035-ci ilədək ən azı 300 milyard ABŞ dollarına çatdırılması təmin olunacaq. Bu vəsait dövlət, özəl, habelə çoxtərəfli mənbələr daxil olmaqla bütün mümkün mənbələr hesabına ödəniləcək. Sənəd inkişaf etməkdə olan ölkələri könüllülük prinsipi əsasında iqlim maliyyəsinə töhfə verməyə çağırır. COP29 sədrliyinin əsas prioriteti üzrə əldə olunan bu uğur, əvvəlki 100 milyard dollarlıq iqlim maliyyəsi məqsədindən əhəmiyyətli dərəcədə yüksəkdir və qlobal investisiyaların yeni dalğasını təmin edəcək. Dövlət başçımızın son paylaşımda bildirdiyi kimi, bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək göstərəcək.

Ümumiyyətlə, Azərbaycanın COP29 sədri kimi apardığı intensiv çoxtərəfli diplomatiya nəticəsində Bakı Maliyyə Məqsədi BMM və BMT karbon bazarları üzrə əldə edilmiş irəliləyişlər gözləntiləri üstələdi. Azərbaycan Prezidenti İlham Əliyev sosial şəbəkədəki rəsmi hesablarında bildirdi ki, müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyulduğunu vurğulayan dövlət başçısı əlavə etdi ki, genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

Əlbəttə, bədxah qüvvələr COP29-un uğursuzluqla bitməsini arzulayır və bu istiqamətdə son günlər yalnış informasiyalar yaymağa çalışırdılr. Lakin bütün bu bədnam qüvvələrin əksinə olaraq Bakı Maliyyə Məqsədi qəbul olundu. Geosiyasi parçalanmalara rəğmən COP29-da mühüm qərarlar qəbul edildi. COP29 prezidenti, İtki və Zərər Fondunu (İZF) fəaliyyətə keçirərək, 2025-ci ildə vəsaitin paylanmasını hazır vəziyyətə gətirməyi bacardı. Bu nailiyyətlə BMM növbəti onillikdə milyardları trilyonlara çevirəcək.

COP29 sədrliyi öz fəaliyyət gündəliyi təşəbbüslərinə əlavə olaraq, iddialı iqlim tədbirləri üçün bir neçə prioritet sahədə irəliləyiş əldə etdi. Bu, şəffaflığın inkişaf etdirilməsi və İZF üçün maliyyə təmin edilməsi daxil olmaqla, bir çox sahəni əhatə edir. Sədrlik tərəfindən həyata keçirilən təşəbbüslərə əlavə olaraq, tərəflər və digər maraqlı tərəflər öz öhdəlikləri ilə liderlik göstərdi. Prezident İlham Əliyev son paylaşımında qeyd etdiyi kimi, Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu.

Bakı COP29-da dünyanın gələcəyinə daha ümidlə baxmağa imkan verdi. BMT-nin Baş katibi Antonio Quterreş bəyanatında bildirdi ki, COP29-da əldə olunmuş razılaşma iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasını qoyur. Baş katib qeyd etdi ki, COP29-da əldə olunan razılaşma qlobal istiləşməni 1,5°C-də saxlamaq məqsədini qorumaq üçün həyati əhəmiyyət daşıyır: “Ölkələr vəzifənin öhdəsindən gəldi. Mən maliyyələşdirmə və yumşaldılmada daha iddialı nəticələrə ümid edirdim, lakin bu razılaşma gələcək fəaliyyət üçün möhkəm əsas verir”. BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersen Bakı Sammitinin yekunları ilə bağlı bildirdi ki, COP29-la quracağımız gələcəyin təməli qoyuldu.

Böyük Britaniyanın Xarici işlər naziri Devid Lemmi “X” səhifəsində yazdı ki, “COP29 sazişi vacib bir addımdır”. Onun sözlərinə görə, Böyük Britaniyanın gələcək rifahı və təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edən yeni iqlim maliyyəsinin hədəfi qlobal iqlim tədbirlərini sürətləndirməyə kömək edəcək və planeti pisləşən iqlim böhranından qoruyacaq.

İqlim məsələləri üzrə Avropa Komissarı Vopke Hukstra COP29-un, Kyoto Protokolunun Tərəflərinin görüşünün (CMP19) və Paris Sazişi tərəflərinin görüşünün (CMA6) bağlanış plenarında dedi ki, COP29 iqlim maliyyəsində yeni eranın başlanğıcı kimi xatırlanacaq. O bildirdi ki, hazırda dünya son dərəcə çətin geosiyasi dövrdən keçir və belə zamanda vəziyyətin düzələcəyi ilə bağlı hissə qapılmaq doğru olmaz: "Belə bir məqamda yekun razılığa gəlmək çox böyük nailiyyətdir. Hər birimiz daha çox maliyyə təmin etmək üçün gərgin əmək sərf etdik. 100 milyard ABŞ dollarI hədəfini 3 dəfə artırdıq. Bu, daha real hədəfdir. Biz maliyyəni gələcəkdə artırmağı da qəbul edirik. İqlim qarşısında daha müdafiəsiz ölkələrə dəstək olmaq üçün çox çalışdıq və onların maliyyəyə əlçatanlığı təmin olunacaq".

Eyni zamanda, COP29 sədrliyi enerji saxlama, şəbəkələr, zonalar, dəhlizlər və hidrogen mövzularında öhdəliklər və bəyanatlar təqdim etdi, bunları 150 tərəf təsdiqlədi. 75-dən çox hökumət və rəqəmsal texnologiya sənayesinin 1100-dən çox üzvü emissiyaları azaltmaq və iqlimə dayanıqlılığı gücləndirmək üçün rəqəmsal vasitələrdən istifadə edən bəyanatı təsdiqlədi. Bundan başqa, 8 BMT agentliyi, 3 çoxtərəfli inkişaf bankı və 3 iqlim fondu arasında birgə bəyanat qəbul edildi. Bu bəyanat çərçivəsində İqlim Davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı Rəhbər Prinsipləri qəbul edildi və Bakı COP sədrliklərinin İqlim və Səhiyyə üzrə Davamlılıq Koalisiyası yaradıldı.

Bütün bunlar COP29-un məqsədə çatdığını göstərdi, Azərbaycan gələcək COP-ların da uğurlu olması üçün müsbət presedent yaratdı. Cəsarətlə qeyd etmək olar ki, Bakıda qəbul olunan qərarlar qlobal iqlim dəyişmələri ilə mübarizədə dönüş nöqtəsi sayıla bilər. Bakı nailiyyətini Prezident İlham Əliyev çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirdi. COP29-un iqlim diplomatiyasında dönüş nöqtəsi olduğunu diqqətə çatdıran dövlət başçısı inandığını da açıqladı ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək.

*Səbuhi MƏMMƏDOV*
***XQ***

## ICESCO-nun Baş direktoru: Azərbaycan COP29-a ev sahibliyi, təşkilatçılığı ilə böyük nailiyyətə imza atdı

**(əvvəli 1-ci səhifədə)**



Bakının bu mötəbər tədbirə uğurla ev sahibliyi etməsi İslam ölkələrinin bilik və təcrübəsinin daha da zənginləşməsinə öz töhfəsini verəcək. Bütün bunlara görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya COP29 konfransının uğurla keçməsi münasibətilə səmimi təbriklərimi çatdırıram. Bakı dünyanın daha təhlükəsiz, təşkilatlanmış və inkişaf etmiş paytaxtlarından biri kimi iqlim fəaliyyəti sahəsində aparıcı beynəlxalq iştirakçıları bir araya gətirən belə qlobal tədbirə evsahibliyi etməyə layiq olduğunu bir daha sübut etdi.

ICESCO-nun Baş direktoru rəhbərlik etdiyi heyətin COP29-da fəal və yüksək səviyyədə iştirakından söz açaraq bildirib:

– Mavi Zonada bizim xüsusi pavilyonumuz qurulmuşdu. Bilirsiniz ki, Mavi Zona BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfləri, eləcə də dövlətlərin rəsmi nümayəndə heyətləri, təsdiq olunmuş nəzarətçi statusunda olan nümayəndə heyətləri üçün nəzərdə tutulmuşdu. ICESCO da bu statusu 2023-cü ilin dekabrında alıb. Pavilyonumuzda 50-yə yaxın tədbir keçirildi, iqlim dəyişikliklərinin torpağa, mədəniyyətə və başqa sahələrə təsirləri müzakirə olundu. Bu tədbirlərdə ətraf mühitin qorunması və iqlim dəyişiklikləri üzrə ekspertlər yüksək səviyyədə iştirak etdilər.

ICESCO konfrans çərçivəsində bir sıra təşəbbüs və mühüm strategiya irəli sürdü. Bunlardan biri “Yaşıl innovatorlar ictimai birliyi” təşəbbüsüdür. Əsas hədəf iqlim davamlılığı sahəsində ən yaxşı təcrübələrin qeydə alınması və stimullaşdırılması üçün iqlim fəaliyyətlərinin sürətləndirilməsidir.

Su resurslarının davamlılığı sahəsində əməkdaşlıq üzrə ICESCO-nun yeni platformasının təsis edilməsi, müasir təcrübələrin kənd təsərrüfatına inteqrasiyası və davamlı inkişaf üzrə təşkilatın strategiyasının elan edilməsi, İslam dünyasında təhsilin yaşıllaşdırılması üçün ICESCO Çərçivəsinin fəaliyyətə başlaması, eləcə də təşkilatın pavilyonunda Şuşanın 2024-cü ildə İslam dünyasının mədəniyyət paytaxtı elan olunması tədbirləri çərçivəsində hazırlanmış “Şuşa: Azərbaycanın incisi” kitabının ərəb dilində nəşrinin təqdimat mərasiminin keçirilməsi mühüm hadisələrdən oldu.

Konfrans çərçivəsində, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmək şərəfinə də nail oldum. Görüşdə əlaqələrimizin daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

**XQ**

---

**Köşə**

## Mübarizə bu gün də var, yarın da …

### *Yaxud, dünya, sanki, Hörmüzlə Əhrimənin qarşıdurmasını izlədi*

**Birləşmiş Millətlər Təşkilatının hər il keçirilən İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29 ) Bakıda keçirilməsi barədə qərar qəbul ediləndən dərhal sonra Fransa paytaxtından Azərbaycanın əleyhinə hədyanlar səsləndirilməyə başlamışdı. “COP29 baş tutmayacaq”, “Azərbaycan cəmi 11 ayda heç bir hazırlıq işini tamamlaya bilməyəcək”, “Dünya liderləri Bakıya getməkdən imtina edəcək”, “Açılış mərasimi və Liderlər Sammiti uğursuzluqlarla nəticələnəcək” kimi cəfəngiyyatlar hamının qulağını yağır eləmişdi.**



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

O zaman mən Qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında – Vətən müharibəsindəki Qələbəmizə həsr olunmuş zəfər paradındakı çıxışını xatırlamışdım. O böyük dövlət xadimi həmin çıxışında demişdi ki, Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir: “Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir”. Peyğəmbərcəsinə deyilən uzaqgörənlik idi.

Çünki Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini darmadağın edəndən sonra bir çoxları kimi mən də elə güman edirdim ki, hər şey bitdi, daha heç kəs Ermənistanı ayağa qaldıra bilməz. Ancaq Makron başda olmaqla, Fransa dövləti, yıxıla-yıxıla gəzən Cozef Bayden başda olmaqla ABŞ-dəki bəzi siyasi dairələr və Almaniyadakı anti-Azərbaycan düşüncəli şəxslər Cənubi Qafqazı yeni münaqişəyə, Ermənistanı isə məhvə sürükləyirlər. Bu isə o deməkdir ki, böyük şairimiz Rəsul Rzanın dediyi “Mübarizə bu gün də var, yarın da…” qətiyyəti indi də günün əsas tezislərindəndir.

Ancaq Emmanuel Makronun, ABŞ-dəki ermənipərəst siyasətçilərin, eləcə də dünyanın müxtəlif ölkələrindəki anti-Azərbaycan, anti-türk qüvvələrin istəyinə, arzusuna, hətta, çoxsaylı cəhdlərinə baxmayaraq, COP29 özündən əvvəlki konfransların hamısından uğurlu nəticələrlə həm BMT-nin, həm də Azərbaycanın tarixinə yazıldı. Hətta dünyanın aparıcı simalarından olan – Çin lideri Çi Cinpin, Hindistan Baş naziri Narendra Modi, “Böyük yeddilər”-dən Almaniya, Fransa liderlərinin bu tədbirə gələ bimməməsinə (birinin ölkəsində böhrandır, o birinin Azərbaycan hökuməti ilə münasibəti yaxşı deyil, digərləri isə gözləmə vəziyyətindədir – bəziləri COP30-da iştirak edəcəyi üçün, bu dəfə gəlməməyi seçmiş ola bilər) baxmayaraq, Azərbaycan heyrətamiz nəticələrə imza ata bildi.

Konfransın sədrliyinin yaydığı məlumatda deyilir ki, yeni hədəfdə inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək ən azı 300 milyard ABŞ dollarına çatdırılması təmin edilməsi nəzərdə tutulub. “COP29-da tarixi qərar qəbul olundu” adlı başqa bir xəbərdə isə oxuyuruq ki, inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən qərar qəbul olunub. Bu qərar Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən iqlim dəyişmələrinin fəsadlarının kiçik ada dövlətlərinə törətdiyi çətinliklərin həlli məsələsinin COP29 sədrliyinin prioriteti kimi müəyyən edilməsinə uyğundur.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 24-də sosial şəbəkə hesablarında “COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!” sərlövhəsi ilə paylaşım edib. Orada qeyd edilir ki, müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək: “Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq”.

…Məlum olduğu kimi dünya yaranandan bəri ağıl, fikir, təfəkkür adamlarının danışmaq və yazmaq üçün minlərlə mövzusu olub. Həmin mövzular arasında heç zaman dəyişilməyənlər isə Xeyirlə Şərin mübarizəsi, Vətən sevgisi, Anaya məhəbbət və fərdi münasibət hissləridir. Azərbaycan COP29-a bu şəkildə hazırlaşıb, qeyd olunan miqyasda uğurlar qazanarkən həm Xeyirin Şər üzərindəki qələbəsini təmin etdi ( sanki Azərbaycan Hörmüz, Fransa Əhrimən idi) , həm Vətənimizin dünya miqyasındakı nüfuzunu tamamilə yeni çalarlarla zənginləşdirdi, həm anamız Yer kürəsinin hansısa yaralarının sarınmasına zəmin yaratdı, həm də ölkələr, xalqlar və ayrı-ayrı fərdlər arasında səmimi insani hisslərin yaranmasına stimul oldu. Mən COP29-un keçirildiyi məkanda hansısa Afrika ölkəsindən olan qaradərili oğlanla slavyan görkəmli gənc xanımın necə səmimi, dogma insanlar kimi deyib-güldüyünü, zarafatlaşdığını görəndə bu lövhəni, mənzərəni yaradanlara əhsən!” dedim…

Bu sətirləri də dövlət başçımızın noyabrın 24-də paylaşdığı fikirlərindən seçdiyim arqumentlərlə tamamlayıram: “Yaşıl dünya naminə həmrəylik” şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək, danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı… Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) şahidi oldu… Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək”.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 487** **Bakı şəhəri, 21 noyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" 2014-cü il 1 may tarixli 118 nömrəli və "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanununun tətbiqi və "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 80 nömrəli Fərmanının 2-ci hissəsinin və "Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 81 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I); 2024, № 1, maddə 87, № 4, maddə 470) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"na aşağıdakı məzmunda 9.4-cü və 9.5-ci bəndlər əlavə edilsin:

| | |
|---|---|
| 9.4. | Dərman vasitələrinin dövlət reyestri |
| 9.5. | Dərman vasitələrinin təqib və izləmə sistemi |

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 791 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.9-cu yarımbənddə "dezinfeksiya vasitələrini, immunobioloji preparatları istifadə təlimatlarına və farmakopeya məqalələrinə," sözləri "tibb vasitələrini, dərman maddələrini, immunobioloji preparatları və tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitələrini istifadə təlimatlarına, farmakopeya məqalələrinə və klinik protokola" sözləri ilə əvəz edilsin;

2.2. 3.1.9-1-ci yarımbəndə "dərman vasitəsinin" sözlərindən sonra "və dərman maddəsinin" sözləri əlavə edilsin və həmin yarımbənddə "dərman vasitələrinin" sözləri "onların" sözü ilə əvəz edilsin;

2.3. 3.1.9-2-ci yarımbəndə (birinci halda) "dərman vasitələrinin" sözlərindən sonra "və dərman maddələrinin" sözləri əlavə edilsin və həmin yarımbənddə (ikinci halda) "dərman vasitələrinin" sözləri "onların" sözü ilə əvəz edilsin;

2.4. 3.1.11-ci yarımbənddə "dezinfeksiya vasitələrinin," sözləri "tibb vasitələrinin, dərman maddələrinin və" sözləri ilə əvəz edilsin;

2.5. 3.2.1-ci yarımbəndə "dərman vasitələrindən" sözlərindən sonra "və dərman maddələrindən" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 491** **Bakı şəhəri, 22 noyabr 2024-cü il**

**"Azərbaycan Respublikasında sektorlar üzrə strateji planların hazırlanması Qaydası"nın təsdiq edilməsi və "Azərbaycan Respublikasında büdcə təşkilatlarının sektor strateji planlarının hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 dekabr tarixli 571 nömrəli Qərarının ləğv edilməsi barədə**

"Ortamüddətli xərclər çərçivəsinin tətbiqi, proqram və nəticəəsaslı büdcə mexanizminə keçid islahatlarının genişləndirilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 may tarixli 54 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasında sektorlar üzrə strateji planların hazırlanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərbaycan Respublikasında büdcə təşkilatlarının sektor strateji planlarının hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 dekabr tarixli 571 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2761 (Cild I) ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. bu Qərarın tətbiqi ilə bağlı müvafiq sektorlar üzrə aparıcı qurumların sektorlar üzrə strateji planlarının, habelə həmin sektorlarda fəaliyyəti olan təşkilatların sektorlar üzrə büdcə planlarının tərtibi, icrasına dair hesabatlılığı və monitorinqi sahəsində təlimatlandırma və koordinasiyalı işin təşkilinin təmin edilməsi məqsədilə "Sektorlar üzrə strateji planların və büdcə planlarının tərtibinə dair metodoloji Təlimat"ı Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 492** **Bakı şəhəri, 22 noyabr 2024-cü il**

**"Nümayəndəlik xərclərinin, işçilərin mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərlə, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı xərclərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması normaları və Qaydası"nın təsdiq edilməsi və "Müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclərin, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin normalarının müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 4 iyun tarixli 89 nömrəli Qərarının ləğv edilməsi haqqında**

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Nümayəndəlik xərclərinin, işçilərin mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərlə, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı xərclərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması normaları və Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclərin, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin normalarının müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 4 iyun tarixli 89 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 694 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 493** **Bakı şəhəri, 23 noyabr 2024-cü il**

**"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 7.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2024/2025-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna, Bakı Hərbi Kollecinə, Gəncə Hərbi Kollecinə, Naxçıvan Hərbi Kollecinə, Heydər Əliyev adına Hərbi Liseyə və Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunmuş və həmin müəssisələrdə təhsil alan kursantlara şamil edilir.

**3.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

3.1. "Azərbaycan Ordusunun hərbi qulluqçularının pul təminatı haqqında Əsasnamə"də bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun dəyişikliklərin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla 10 (on) gün müddətində həyata keçirilməsini təmin etsin;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bu Qərardan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**5.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"-nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 494** **Bakı şəhəri, 23 noyabr 2024-cü il**

**Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin, onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 noyabr tarixli 368 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi ləğv edilsin.

**2.** "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1357 (Cild I); 2024, № 1, maddə 108, № 2, maddə 209, № 3, maddə 306) 2-ci və 3-cü hissələri ləğv edilsin.

**3.** "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin, onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 768 (Cild I); 2024, № 1, maddə 107, № 3, maddə 306) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 488** **Bakı şəhəri, 21 noyabr 2024-cü il**

**"Poçt rabitəsinin milli operatorunun qəbul etdiyi poçt əmanətlərinin və poçt hesablarının qalıq vəsaitlərinin idarə edilməsi üzrə İnvestisiya Strategiyası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Poçt rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 2 oktyabr tarixli 696-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 17 nömrəli Fərmanının 3.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Poçt rabitəsinin milli operatorunun qəbul etdiyi poçt əmanətlərinin və poçt hesablarının qalıq vəsaitlərinin idarə edilməsi üzrə İnvestisiya Strategiyası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 490** **Bakı şəhəri, 21 noyabr 2024-cü il**

**"Digər dövlətdə qeydiyyatda olan istismarçılar tərəfindən istismar edilən hava gəmilərinə uçuşların təhlükəsizliyi ilə bağlı nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.19-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Digər dövlətdə qeydiyyatda olan istismarçılar tərəfindən istismar edilən hava gəmilərinə uçuşların təhlükəsizliyi ilə bağlı nəzarətin həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 495** **Bakı şəhəri, 23 noyabr 2024-cü il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 4 oktyabr tarixli 161 nömrəli Qərarı ilə təsdiq edilmiş "Meşə təsərrüfatına dəyən zərərin və itkilərin ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 4 oktyabr tarixli 161 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 595 (Cild I) ilə təsdiq edilmiş "Meşə təsərrüfatına dəyən zərərin və itkilərin ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi və ya meşə fondundan istifadə nəticəsində bu Qaydanın 4-cü hissəsi ilə müəyyən edilmiş hallarla bağlı meşə təsərrüfatına dəyən zərər və itkilər tam şəkildə ödənilməlidir.".

**2.** 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi və ya meşə fondundan istifadə nəticəsində meşə təsərrüfatına dəyən zərər və itkilər Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında" 1993-cü il 27 dekabr tarixli 636 nömrəli, "Respublika meşələrində əsas meşə və kol cinslərinin yeni kökü̈stə buraxılış nırxlarının təsdiq edilməsi haqqında" 1994-cü il 24 avqust tarixli 312 nömrəli qərarları və 2000-ci il 15 mart tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş "Meşələrin iqtisadi qiymətləndirilməsinin Metodikası"na uyğun olaraq tənzimlənir.".

3. 5-ci hissə aşağıdakı məzmunda verilsin:

"5. Bu Qaydanın 4-cü hissəsinə əsasən meşə təsərrüfatına dəyən zərər və itkilərə görə hesablanmış məbləğin təqsirkar fiziki və hüquqi şəxslər tərəfindən ödənilməsi üçün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ziyanın miqdarı ilə bağlı qərar (hesabat sənədi ilə birlikdə) təqsirkar olan fiziki və hüquqi şəxslərə şəxsən təqdim olunur və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla göndərilir. Meşə təsərrüfatına dəymiş ziyanın ödənilməsi təqsirkar fiziki və hüquqi şəxslər üçün məcburidir, bununla əlaqədar mübahisələr inzibati qaydada və məhkəmə qaydasında həll edilir.".

4. 6-cı hissədə "və Azərbaycan Respublikası Meşə Məcəlləsinin pozulması ilə əlaqədar" sözləri ", və ya meşə fondundan istifadə nəticəsində" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İqlim dəyişmələri ekotarazlığı pozub

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil Azərbaycan mediasına müsahibəsində "İqlim dəyişikliyi ilə mübarizə səylərində inkişaf etməkdə olan ölkələrin rolunu necə qiymətləndirirsiniz və onlara hansı dəstək tədbirləri lazımdır?" sualını belə cavablandırıb: "İnkişaf etməkdə olan dövlətlər iqlim böhranında ən az paya malik olan, lakin onun təsirlərindən ən çox əziyyət çəkən ölkələrdir. Bu səbəbdən onların qlobal böhrana ən çox töhfə verən və haqqında danışılan məsələdə məsuliyyət daşıyan inkişaf etmiş, sənayeləşmiş ölkələri bu istiqamətdə hərəkətə gətirmək üçün təsir göstərməyə mənəvi haqqı var. Həmçinin düzgün dəstək nəticəsində onlar yerli səviyyədə uyğunlaşma və dayanıqlığın yaradılması istiqamətində reallaşdırıla biləcək tədbirlərə liderlik edə bilərlər".**

S.Stil müsahibədə hazırda istixana qazı emissiyalarının azaldılmasında və iqlim dəyişikliyinə uyğunlaşmada problemə çevrilən maneələrdən də bəhs edib. İnkişaf etməkdə olan ölkələrə vəd olunan vəsaitlərin çatışmazlığından narahatlığını bildirib və bu problemin həlli yolları ilə bağlı fikirlərini diqqətə çatdırıb. Eyni zamanda, iqlim dəyişikliyi ilə mübarizədə səmərəli prinsiplərin mövcudluğunu, maliyyə və texniki çətinliklərin aradan qaldırılmasının mümkünlüyünü, lakin bu yolda siyasi iradənin çatışmadığını təəssüflə xatırladıb.

İcraçı katib, eyni zamanda, bu il hazırlanan və gələn il Braziliyada təqdim ediləcək yeni iqlim planlarının ölkələrin milli səviyyədə öhdəliklərini müəyyənləşdirəcəyinə, nəticədə emissiyaların 2030-cu ilə kimi yarıyadək, 2035-ci ilədək isə 60 faizə qədər azaldıla biləcəyinə əminliyini vurğulayıb.

S.Stil müsahibənin sonunda "Azərbaycan da Birləşmiş Ərəb Əmirlikləri kimi neft ölkəsidir və COP konfransına sədrlik edir. Neft ölkələrinin COP-a sədrlik etməsinin, sizcə, nə kimi müsbət tərəfləri var?" sualını belə cavablandırıb: "Dubayda əldə edilən qəti nəticə neft və qazdan, qalıq yanacaqlardan imtinanın vacibliyini göstərir. Bu, iqlim böhranından yaranan təsirlərlə mübarizədə əsas diqqət edilməli məqamdır. Neft, qaz və kömür istehsal edən dövlətlər qalıq yanacaqdan uzaqlaşmanın əhəmiyyətini və bunun emissiyaların azaldılmasına təsirlərini göstərməkdə lider ola bilər".

Göründüyü kimi, bu gün bütün dünya zəlzələlər, torpaq sürüşmələri, daşqınlar, qasırğa və digər təbii fəlakətlərlə üz-üzədir. Təbii ki, bütün bunların ilkin səbəbi planetimizin qeyri-humanist münasibətlərin real hədəfinə çevrilməsidir. Bir çox mənfi amillər də dünyanın ekosisteminə ziyan vurmaqdadır. Yaşadığımız elmi-texniki inqilab əsrində əhalinin sürətlə artması, yeni təbii ehtiyatların istifadəyə verilməsi, kənd təsərrüfatının sənayeləşdirilməsi, texniki tərəqqinin sürətləndirilməsi ətraf mühitə öz təsirini göstərir. Texniki tərəqqinin nailiyyətləri bir tərəfdən əhalinin təbiətdən asılılığını azaldırsa, təbii ehtiyatlardan səmərəli istifadəni asanlaşdırırsa, digər tərəfdən bu nailiyyətlərdən düzgün istifadə olunmaması ekoloji tarazlığın pozulmasına gətirib çıxarır. Hava, dəniz, şirin su hövzələri çirklənir, meşələr məhv olur, torpaq örtüyü sıradan çıxır, nadir bitki və heyvan növlərinin sayı azalır.

***XQ***




# Azərbaycanın COP zəfəri

I MƏQALƏ

### İqlim dəyişikliyi və bəşəriyyət

Yaxşı ki, iqlim dəyişərək xeyir gətirəndə və zərər verəndə də ölkələr arasında "ayrı-seçkilik" – hər birinə eyni dərəcədə təsir edir. Əgər iqlimin də "dövlət seçimi" olsaydı, bir sıra eqoist və daha güclülər onu "BMT TŞ"-nin daimi üzvlərinin iradəsindən asılı vəziyyətə salardılar. Əslində, COP29 göstərdi ki, böyük güclər iqlim kimi ümumbəşəri olayı belə qısqanırlar. Onu bu mənada özlərinə daha çox sərf edən, lakin faydalı olmayan şərtlər çərçivəsinə salıb siyasi və geosiyasi istismar etməyə cəhdlər göstərirlər.

Özlüyündə COP29 yalnız vurğulanan kontekstdə diqqətləri çəkmədi. Lakin, sözün həqiqi mənasında, tədbir ərəfəsi və gedişində eqoizmlə dünyəviliyin çarpışma meydanı oldu. Burada biz "eqoizm" dedikdə müasir politologiyada bəzi dövlətlərin öz identikliklərini eqoist maraqlar prizmasında müəyyən etdiklərini nəzərdə tuturuq. Bununla bağlı Qərbin tanınmış bir neçə politoloqu, sosioloqu, filosofu konkret fikir bildirmişlər. Aparılan təsnifatlarda belə də yazılır: "eqoist dövlət identikliyi"!

### Vendt və Blum

A.Vendt eqoist identikliyi olan dövlətləri onların "başqası"na öz məqsədlərinə nail olmaq üçün "manipulyasiya obyekti kimi baxması" ilə müəyyən etmişdir.

U.Blum isə öz identikliyindən xarici siyasətində başqalarına təzyiq etmək və onları öz iradəsinə tabe etdirmək strategiyası ilə istifadə edən dövlətləri eqoist adlandırmışdır. Nümunə kimi ABŞ və Rusiyanı göstərmişdir. Bu kursun "messian millətçiliyinə" və ümumilikdə aqressivliyə gətirib çıxardığını vurğulamışdır.

Deməli, hansısa dövlətin və ya dövlətlər qrupunun uzun müddət identikliyində eqoizm üstünlük təşkil edirsə, onun (və ya onların) hər hansı başqa əhəmiyyəti olan məsələdə belə obyektiv, ədalətli və konstruktiv olacağını gözləmək əbəsdir. Xalq dili ilə desək, "xasiyyətləri buna imkan vermir".

### Geosiyasi-ideoloji reallıq və COP

Belə alınır ki, fəlsəfi, siyasi-nəzəri və geosiyasi təfəkkürlərində dövlət identikliyi ilə bağlı möhkəmlənmiş obrazları olan, lakin gücü sayılan dövlətlərin özləri üçün belə əhəmiyyətli məsələlərdə ədalətli və dünya üçün faydalı mövqe tutmaları ehtimalı çox azdır. Təcrübə göstərir ki, onların heç iqlim kimi taleyüklü problem belə saxlaya bilmir. Təbiətin bu prosesi ilə "oyunayırlar", özləri üçün müəyyən etdikləri oyunlar prizmasında dünya miqyasında iqlimə baxırlar. Təəccüblü, təəssüf doğuran və həyəcanlandıran situasiyadır.

Görünür, onlar üçün təsəvvür etmək istədikləri və dünyaya sırımağa çalışdıqları "geosiyasi və ideoloji reallıq" anlayışları əsas yerdə durmaqdadır – dünyanın, insanın, bəşər sivilizasiyasının taleyi onları az maraqlandırır! Bunu Fələstində və Ukraynada hərb meydanında əyani müşahidə etməkdəyik!




Lakin, şübhə etmirəm ki, XX əsrin sonlarından başlayaraq bu günə qədər bu mərhəmətsizliyi, şəfqətsizliyi, ədalətsizliyi və antihumanitarlığı azərbaycanlılar qədər öz üzərlərində hiss edən xalq olsun! Bəlkə də Afrikada Fransa müstəmləkəsindən daha çox əziyyət çəkirlər. Etirazımız yoxdur, lakin Avrasiyada bizim səviyyədə haqsızlıq, antiinsani münasibət görən ikinci toplumu tanımıram.

Uzun müddət Azərbaycan liderləri (Heydər Əliyev və İlham Əliyev) bununla mübarizə apardılar və qalib gəldilər. Azərbaycan xarici təcavüzün və daxili separatizmin başını əzdi. Zəfərə aparan yolun hər pilləsində məhz böyük dövlətlərin eqoist identikliyinin neqativ təsirlərini öz üzərində hiss etdi. Ancaq sınmadı, dayanmadı, türk qətiyyəti və əzmi ilə yüksək zəkasını harmoniya edərək Qalib oldu! Bütün sahələrdə –siyasətdə, geosiyasətdə, ideologiyada , sosial-mədəni inkişafda hərbi meydanda, enerjidə, əməkdaşlıqda, təhlükəsizlikdə, milli təhlükəsizlik arxitekturasının qurulmasında, sülh və barış ruhunda, inteqrasiyada, zəfərə nail oldu!

Bütün bunlar COP29-a qədər baş verənlərdir. Təsadüfən COP-u fərqləndirmirik. Bu hadisənin tarixi və siyasi ilə yanaşı, geosiyasi, milli, mənəvi, mədəni və strateji əhəmiyyətini tam mənimsəmə insanlar üçün bir qədər uzun zaman alacaqdır. Çünki COP müasir dövrdə elə strateji faktorlardandır ki, onun qlobal anlamını sürətlə dərk etmək çox çətindir.

Kənardan dinc tədbir təsiri bağışlayır, məzmunca indi dəbdə olan faktorlara aid edilmir, "adi iqlim məsələsidir" deyib keçənlər vardır. Ancaq bəşəriyyətin və bütövlükdə insanlığın mövcud ola bilməsi prizmasından baxanda iqlim dəyişikliyinə qarşı kollektiv sinerji yarada bilən COP-un ən aktual məsələlərdən olduğuna əmin olursan!

Bu anlamda COP faktiki olaraq dövlətlərin, xalqların, iqtidarların özlərinə, ölkələrə və təbiətə olan münasibətinin vicdan tərəfidir. Dünyanı necə görmək istəyirsənsə, özünü də elə görürsən, mənsub olduğun mədəniyyət və sivilizasiyaya elə münasibət göstərirsən.

COP29 ərəfəsi bir sıra dövlətlərin ümumbəşəri maraqları tamamilə unudub, Azərbaycanı ittiham etmələri bütün bunlara görə, böyük haqsızlıq və ədalətsizlik olmaqla yanaşı, özlərinə ciddi zərər verən manipulyativ olaydır. Məsələnin məhz bu tərəfinin daha geniş mənası olan başqa geosiyasi və ideoloji reallıqlarla sıx bağlantısı mövcuddur.

### "Dəmir yumruq"dan "yaşıl yumruğ"a

Əsas məsələ Azərbaycanın təkbaşına Vətən müharibəsində böyük Qələbə əldə etməsinə olan münasibətlə bağlıdır. Bu hadisəyə özlərinin sırf eqoist dövlət identikliyi prizmasında baxan bir sıra böyük ölkələr bərpa olunası tarixi ədaləti, müstəqil dövlətin öz ərazi bütövlüyünü bərpa etməsini deyil, özlərindən qondardıqları faktorları qabartdılar. Aydın göründü: sürətlə inkişaf edən və müstəqil siyasət yeridən bir müsəlman dövlətinin uğurlarını həzm edə bilmirdilər.

Buna görə də intensiv olaraq qarayaxma, şər-böhtan kampaniyalarına başladılar. Haqqı-ədaləti necə tapdaladıqlarını müşahidə etmək insanlığın son damlasının gəldiyi təəssüratını yaradırdı. Azərbaycan hamısını boşa çıxardı. Siyasəti, diplomatiyası, öz torpaqlarında qurub-yaratmaq eşqi, praktiki quruculuq fəaliyyəti və proqramları ilə dost olmayanların qarşısını kəsdi.

Onda aydın oldu ki, Azərbaycanı sırf Qarabağ məsələsində dayandırmaq mümkün deyildir. Bədxahlar məsələyə daha geniş kontekstdə – bütövlükdə siyasi, diplomatik, geosiyasi, təhlükəsizlik və əməkdaşlığın bütün sferaları prizmasında baxmağa başladılar. Lakin burada da rəsmi Bakının çox səmərəli bir gedişi onlar üçün əngəl yaratdı.

Bu, Azərbaycan Prezidentinin qələbədən sonra başlayan postmüharibə mərhələsində tam sülh, barış, əməkdaşlıq və təhlükəsizlik siyasəti yeritməsi ilə bağlıdır. Müxtəlif tərəflərdən nə qədər təxribatçı təsirlər etməyə çalışsalar da, Azərbaycanı yenidən savaş meydanına təhrik etməyə cəhdlər göstərsələr də, ölkə rəhbərliyi qətiyyətlə sülh və əməkdaşlıq xəttini inkişaf etdirdi. Aydın oldu ki, Azərbaycan rəhbərliyi postmüharibə dövründə yalnız əməkdaşlığa, sülhə, təhlükəsizliyə xidmət edən kurs aparacaqdır.

Azərbaycanın xarici siyasətində postmüharibə dövrü üçün dəqiq və konkret sülh, əməkdaşlıq və təhlükəsizlik trekinin müəyyən edildiyi hər kəsə aydın oldu. Nəticədə eqoist dövləti maraqları olanlar daha geniş kontekstdə Azərbaycana qarşı ədalətsiz mövqe tutmağa üstünlük verdilər. Bunun əyani təsdiqi COP29-a onların münasibətidir.

### Yeni mərhələ: Strateji kontekst

Belə alınır ki, Azərbaycan müstəqil dövlət kimi Vətən savaşından sonra real aspektdə inkişafının yeni mərhələsini başlamışdır. Bu mərhələnin başlıca özəlliyi quruculuq kursunu dövrün tələblərinə uyğun dinc şəraitdə, münaqişəsiz, müharibəsiz və qarşıdurmasız davam etdirməkdən ibarətdir. Şuşa Bəyannaməsi, Qarabağ Bəyannaməsi və həyata keçirilən yeni sosial, iqtisadi, enerji, informasiya, kommunikasiya təşəbbüsləri kompleks halda həmin kursun müxtəlif aspektlərini ifadə edirlər. Azərbaycan bu prosesləri Prezidentin müəyyən etdiyi yeni tarixi mərhələ çətiri altında aparır. Bu o deməkdir ki, söhbət düşünülmüş, planlaşdırılmış, elmi–nəzəri əsası dəqiq müəyyən edilmiş və strateji anlamı olan dövlət siyasətindən gedir. Azərbaycan Respublikası müstəqil dövlət olaraq, müəyyən etdiyi strateji inkişaf kursunu davamlı reallaşdırmaqda israrlıdır.

Bu, bütövlükdə dünya dövlətlərinin siyasi, geosiyasi və əməkdaşlıq kontekstlərində Azərbaycan münasibətlərinin məzmun, məqsəd və strategiyasını müəyyən edən faktordur. COP29-u bu cür geniş miqyasda Azərbaycanın müstəqil dövlət olaraq tutduğu yer, oynadığı rol və müəyyən etdiyi strateji məqsədlər prizmasında qiymətləndirmək adekvat ola bilər!

### COP29-a daxildən baxış

Azərbaycan vətəndaşları və dövlət qurumları üçün COP29 tarixi hadisədir. İlk dəfədir ki, çox geniş miqyasda dövlət mühüm beynəlxalq tədbir keçirirdi. Aydındır ki, müstəqil Azərbaycan Respublikası çox sayda beynəlxalq əhəmiyyəti olan tədbirlərə ev sahibliyi etmişdir. Onları yüksək səviyyədə təşkil etmiş və səmərəli nəticələr almışdır. Qəbul edilən qərarlar regional və qlobal miqyaslarda öz müsbət təsirini göstərmişdir. Məsələn, Azərbaycan mədəniyyətlər, dinlər və sivilizasiyalar arasında dialoqun təşkili məsələsində kifayət qədər fəallıq göstərməkdədir. Bakı Qoşulmama Hərəkatı çərçivəsində beynəlxalq miqyasda ədalətin, humanitarlığın təmin edilməsində son dərəcə səmərəli addımlar atmaqdadır. Azərbaycanın BMT, MDB, TDT kimi təşkilatlarda aktiv fəaliyyəti, etdiyi təşəbbüslər göz qabağındadır.

Bunlarla yanaşı, COP-un siyasi, geosiyasi, hüquqi və strateji anlamı bir qədər fərqlidir. Hər şeydən öncə, iştirakçıların əhatə dairəsi çox genişdir. Bakıya 70-mindən (!) artıq nümayəndə gəlmişdi. Tədbirin təşkilatçılığı BMT səviyyəsində diqqətdə idi. COP, demək olar ki, bütün müstəqil dövlətləri əhatə etmişdir. Mövzusu bütövlükdə bəşəriyyət üçün vacib olan məsələ ilə bağlıdır. Bu mövzu ətrafında dünyanın ən güclü dövlətləri belə mübahisə və müzakirə aparırlar. Hətta, D.Trampla demokratlar həmin məsələ ilə əlaqədar ciddi fikir ayrılığına getdilər.

Bütün bunlar COP-u status və funksiya cəhətdən bütün digər beynəlxalq tədbirlərdən fərqləndirir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki, fəlsəfə elmləri doktoru*

# Avropa iqlim dəyişikliyinə uyğunlaşmağa hazırdırmı?

**Avropa İttifaqı ölkələri planetdə daha tez-tez və intensiv ekstremal hava hadisələrinə səbəb olan iqlim dəyişikliyinə daha yaxşı hazır olmalıdır. İspaniyanın Valensiya şəhərində dağıdıcı daşqınlar kimi ekstremal təbiət hadisələri daha intensiv və tez-tez baş verəcək. Bunu Bakıda keçirilən BMT-nin COP29 iqlim konfransında "Euronews"un müxbirinin suallarını cavablandıran İspaniyanın Kənd Təsərrüfatı, Ərzaq və Ətraf Mühit Nazirliyinin iqlim dəyişikliyi bürosunun rəhbəri Valvanera Ulargui Aparicio deyib.**

O bildirib ki, Avropa İttifaqı (Aİ) təkcə qlobal istiləşmənin qarşısını almaq üçün deyil, həm də iqlim dəyişikliyinin təsirlərini yumşaltmaq üçün çalışır. Bu, xüsusilə atmosferə istixana qazı emissiyalarının azaldılmasını nəzərdə tutur. Bu istiqamətdə işləməyə davam etməyin vacibliyini vurğulayan Valvanera Ulargui Aparicionun sözlərinə görə, Aİ ekspertləri iqlim dəyişikliyinə uyğunlaşma tədbirləri hazırlayırlar. Avropa İttifaqı ölkələri də bu cür hadisələrə daha yaxşı hazır olmalıdırlar.

İspaniyalı qonaq daha sonra bildirib: "Yeni Avropa Komissiyasının çox yaxşı imkanları var. Sədr Aİ-nin yeni uyğunlaşma planını elan edib, bu planda bütün ölkələr hər bir regionun fərqli spesifik aspektlərini təqdim etməlidirlər, çünki iqlim dəyişikliyinə uyğunlaşma çox lokal xarakter daşıyır və nəticələri də yerlidir".

Avropa Komissiyanın sədri Ursula Fon der Lyayen də Avrpopanın iqlim dəyişikliyinə nə dərəcə hazır olduğuna münasibət bildirib. O deyib: "İspaniyada baş verən son on ilin ən güclü daşqını göstərdi ki, Avropa hələ də istiləşmənin təsirlərinə hazır deyil. Bu iqlim dəyişikliyi dramatik reallığıdır və biz buna hazır olmalıyıq".



COP29 tədbirlərində iştirak etmək üçün Azərbayacana gələn İspaniyanın Elcano Kral İnstitutunun baş elmi işçisi Elena Lopezin sözlərinə görə, onun ölkəsinin böyük bir hissəsi Aralıq dənizi bölgəsindədir. Bu ərazilərin iqlim dəyişikliyinin təsirlərinə daha çox məruz qaldığını, xüsusən də ölkənin cənub hissəsinin daha çox quraqlıq keçirdiyini, bəzi ərazilərin isə son vaxtlar daşqınlardan ziyan çəkdiyini bildirən ekoloq-alim deyib ki, bu problem kənd təsərrüfatı sektoruna ciddi təsir edir. "Uyğunlaşma baxımından İspaniya lazım olan tədbirləri görməyə çalışır. Hazırda ölkəmiz üçün risk və zəiflik təhlili yenilənir", – deyə o əlavə edib.

Valensiyada baş verən daşqın Aİ ölkələrinin təbii fəlakətlərə hazır olmadığını təsdiq edib. Məsələn, Valensiyanın yerli hakimiyyəti etiraf edib ki, əhaliyə xəbərdarlıq mesajı yalnız 20:12-də –ilk sel xəbəri alınandan 8 saat, Milli Meteorologiya Agentliyinin xəbərdarlığından isə 10 saat sonra göndərilib. Bu, fövqəladə hallar xidmətinin koordinasiyasına cavabdeh olan yerli hakimiyyət üçün fiaskodur.

Yeri gəlmişkən, bu il təbii fəlakət təkcə İspaniyada baş verməyib. Bundan əvvəl, sentyabrda Mərkəzi və Şərqi Avropa ən güclü daşqınlardan birinə məruz qalıb. Polşada 400-ə yaxın insan təbii fəlakət zonasından təxliyə edilib, Çexiyada sel səbəbindən 60 min ev işıqsız qalıb, Rumıniyada isə sel 5 nəfərin ölümünə səbəb olub. Daşqının təsirinə ən çox Qalati məruz qalıb. Orada 5 min evə ziyan dəyib. Axtarış və xilasetmə işlərinə yardım etmək üçün Black Hawk helikopteri göndərilib. Ümumilikdə, Rumıniyanın 18 mahalının 19 qəsəbəsində fırtına baş verib. Güclü küləklər nəticəsində aşan ağaclar maşınlara ziyan vurub, yolları bağlayıb.

Almaniyada isə daşqınlar Bavariyanın cənubunda və Saksoniyanın bir hissəsində fəsadlar törədib. Beləliklə, on minlərlə ev su altında qalıb, körpülər və yollar dağılıb. Havanın kəskin dəyişməsi regionda sentyabr ayının əvvəlində istilərin müşahidə olunmasından sonraya təsadüf edib. Alimlər bu il Yer kürəsində ən isti yayın keçdiyini qeydə alıblar. Bu, həm də yüksək maliyyə xərcləri deməkdir.




Xatırladaq ki, Bakıda keçirilən konfransda iqlim dəyişikliyinin təsirləri ilə mübarizə aparmaq üçün inkişaf etməkdə olan ölkələrə veriləcək vəsaitdən də söhbət açılıb. Hətta COP29-un ilk günlərində iqlimin maliyyələşdirilməsi üzrə öhdəliklərin artırılmasına dair razılıq əldə edilib.

İspaniyadakı son daşqınlardan sonra icmalar iqlim dəyişikliyi ilə bağlı fəlakətlərin idarə edilməsində regional hökumətlərin roluna diqqət yetirirlər. COP29-da isə Avropanın regional liderləri vəziyyətə uyğunlaşmaq üçün investisiyaların artırılmasını xahiş edirlər.

BMT-nin İqlim Dəyişikliyi Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində dünyanın yoxsul ölkələrinin maraqları nəzərə alınmaqla hazırlanmış iqlim proqramlarının maliyyələşdirilməsinə dair yeni saziş layihəsi 2035 ildək illik ən azı 1,3 trilyon dollar vəsaitin ayrılmasını nəzərdə tutur. Bakıda dərc olunan 34 səhifəlik sənəddə bəzi mübahisəli məsələlər hələ də həll olunmamış qalsa da, vəsaitlərin verilməsi üçün konkret variantlar hazırlanıb. Həmin vəsaitdən İspaniya da yararlanacaq.

O da məlum olub ki, iqtisadi cəhətdən ən az inkişaf etmiş ölkələr – əsasən, Afrika ölkələri 220 milyard dollara, dəniz səviyyəsinin yüksəlməsindən təsirlənən kiçik ada dövlətləri isə 39 milyard dollara ümid bəsləyirlər.

*P. ƏFƏNDİYEV*
*XQ*

# Milli Məclisin plenar iclasında 2025-ci ilin dövlət büdcəsinin müzakirəsinə başlanılıb

## *Azərbaycanda ilk dəfə "yaşıl büdcə"nin xərcləri açıqlanıb*

**Noyabrın 25-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.**



İclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.

Milli Məclisin sədri Sahibə Qafarova iclası açaraq Bakıda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının uğurla başa çatdığını bildirib. Sonra o, 2025-ci ilin dövlət büdcəsi layihəsi barədə fikirlərini bölüşüb. Deyib ki, 2025-ci ilin dövlət büdcəsi iqtisadi inkişaf, dayanıqlılıq və inklüzivlik təməlləri üzərində qurulub.

Daha sonra iclasda parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov çıxış edib.

O bildirib ki, "Büdcə sistemi haqqında" Qanunun 12-ci maddəsinə uyğun olaraq "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər layihələr Prezident İlham Əliyev tərəfindən Milli Məclisə təqdim olunub. O, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və digər komitələrin iclaslarında müvafiq dövlət orqanlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə qanun layihələrinin geniş müzakirə olunduğunu deyib.

Makro-iqtisadi göstəricilər barədə məlumatda bildirilib ki, ölkənin strateji valyuta ehtiyatları 73 milyard dollar təşkil edir. 2024-cü ilin on ayında müşahidə olunan müsbət makro-iqtisadi meyllər 2025-ci il üzrə proqnozlar üçün pozitiv əsaslar yaradır. Proqnozlara görə, növbəti ildə ümumi daxili məhsul 3,5 faiz, qeyri-neft-qaz ümumi daxili məhsulu 4,9 faiz artacaq. ÜDM-də qeyri-neft-qaz sektorunun payının 68 faizdən 71,3 faizə çatacağı gözlənilir. Adambaşına ÜDM-in 2025-ci ildə 7412 ABŞ dolları təşkil edəcəyi proqnozlaşdırılır. İnflyasiyanın səviyyəsi 4,6 faiz nəzərdə tutulur.

Qeyd olunub ki, dövlət büdcəsinin gəlirləri 38,3 milyard manat, xərcləri 41,4 milyard manat, kəsiri isə 3 milyard 52 milyon manat proqnozlaşdırılır.

Qeyd edilib ki, büdcə gəlirlərinin 49 faizi neft, 51 faizi isə qeyri-neft gəlirlərinin hesabına formalaşacaq. Gəlirlərin 15,5 milyard manatı Dövlət Vergi Xidmətinin, 14,5 milyard manatı Dövlət Neft Fondundan transfertin, 6,6 milyard manatı Dövlət Gömrük Komitəsinin, 840 milyon manatı büdcə təşkilatlarının daxilolmalarının, 895 milyon manatı digər gəlirlərin payına düşür.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsi xərclərinin 60,1 faizini cari xərclər, 34,1 faizini əsaslı xərclər, 5,8 faizini dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edir. Sosialyönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir. Növbəti ildə minimum əməkhaqqının və minimum pensiyanın artırılması, sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Ümumilikdə sosial paket 3 milyon insanı əhatə edəcək.

Komitə sədri söyləyib ki, 2025-ci ilin dövlət büdcəsi layihəsində iqtisadi strategiyanın icrası üçün 2,5 milyard manat vəsait nəzərdə tutulur. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri əsas prioritetlərdəndir. Növbəti ilin dövlət büdcəsi layihəsində bu məqsədlər üçün 4 milyard manat nəzərdə tutulub.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsi layihəsi tərtib edilərkən neftin qiyməti 70 dollar götürülüb. 2025-ci ilin büdcə zərfinə əsasən Dövlət Neft Fondundan dövlət büdcəsinə ayrılan transfertlər artırılaraq 14.481 milyon manat nəzərdə tutulur.

Nəzərə çatdırılıb ki, büdcə layihəsində müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 8,4 milyard manat nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə 17,8 faiz çoxdur. Hərbi xərclər büdcə məxaricinin 20,3 faizini təşkil etdiyi halda, sosialyönümlü xərclər 41 faizini, iqtisadi fəaliyyətlə bağlı xərclər 21 faizini təşkil edir.

Sonra maliyyə naziri Samir Şərifov çıxış edib. O, Azərbaycan xalqının və dövlətinin bir sıra əlamətdar hadisələrlə yadda qalacaq 2024-cü ili uğurla başa vuracağını qeyd edib.

Maliyyə naziri deyib ki, dövlət başçısının qarşıya qoyduğu vəzifələrin icra olunması 2025-ci ilin dövlət büdcəsi layihəsi hazırlanarkən əsas götürülüb. Eyni zamanda, qeyd edilib ki, 2025-ci ilin dövlət büdcəsində təklif olunan 41367,7 milyon manat xərclərin üçdə ikisi və yaxud 27691 milyon manatı məhz yuxarıda qeyd olunan prioritet istiqamətlərin maliyyələşdirilməsi üçün ayrılacaq. Diqqətə çatdırılıb ki, 2025-ci ildə sosialyönümlü xərclər 16910 milyon manat və ya dövlət büdcəsi xərclərini 41 faizini təşkil edəcək. Növbəti ildə əhalinin sosial cəhətdən həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi və sosial təminat xərcləri üçün 4812 milyon manat, ünvanlı dövlət sosial yardım üçün 457 milyon manat, keçmiş məcburi köçkünlərin sosial müdafiəsi üçün 311 milyon manat vəsait ayrılacaq.

Bildirilib ki, büdcə layihəsində təhsil xərclərinə 4946,1 milyon manat ayrılması proqnozlaşdırılır və bu, 2024-cü illə müqayisədə 395,7 milyon manat və ya 8,7 faiz çoxdur. Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin və keçmiş məcburi köçkünlərin övladları olan tələbələrin, müharibə veteranlarının ali təhsil xərclərinin dövlət hesabına ödənilməsi üçün 41 milyon manat vəsait ayrılacaq.

Səhiyyə xərcləri üçün dövlət büdcəsindən 1999,0 milyon manat vəsait nəzərdə tutulur ki, bu, 2024-cü illə müqayisədə 7,1 faiz çoxdur.

2025-ci ildə mədəniyyət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti üzrə ayrılan vəsait cari illə müqayisədə 10,4 faiz artırılaraq 635,0 milyon manat təşkil edəcək.

Dövlət büdcəsi layihəsində iqtisadi fəaliyyət xərclərinə 4444 milyon manat vəsait proqnozlaşdırılır. Bununla yanaşı, kənd təsərrüfatı xərcləri üçün 1172 milyon manat vəsait yönəldiləcək. Növbəti ildə iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsi sahəsində aparılan islahatlar çərçivəsində "yaşıl büdcə" üzrə xərclərin işarələnməsinə başlanılıb və bu istiqamət üzrə 1,3 milyon manat vəsait nəzərdə tutulur.

Vurğulanıb ki, 2025-ci ildə ölkəmizin beynəlxalq aləmdə mövqelərinin təmin edilməsi, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi, beynəlxalq fəaliyyətin həyata keçirilməsi, o cümlədən xarici ölkələrə və beynəlxalq təşkilatlara yardımların göstərilməsi məqsədləri üçün 754,0 milyon manat vəsait ayrılması nəzərdə tutulur.

2025-ci ilin dövlət büdcəsinin xərclərinin maliyyə təminati ilə bağlı diqqətə çatdırılıb ki, xərclərin 92,6 faizinin və ya 38316 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına təmin edilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 540 milyon manat səviyyəsində, Muxtar Respublikaya ayrılan dotasiya isə 320,5 milyon manat proznozlaşdırılır.

Sonra çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov gələn ilin büdcəsinin iqtisadi parametrlərindən danışıb. Bildirib ki, büdcənin tərtibatı prosesində sosial-iqtisadi inkişaf proqnozları baza, optimist və pessimist ssenarilərdə hazırlanaraq gözlənilən risklərin qiymətləndirilməsi üçün istifadə edilib. Qeyd olunub ki, ÜDM-in növbəti ildə 3,5% (qeyri-neft-qaz sektorunda 4,9%), 2025-2028-ci illərdə isə orta illik hesabla 3,3% ( qeyri-neft-qaz sektorunda isə 5%) artacağı proqnozlaşdırılır. Qeyri-neft-qaz sektorunun ÜDM-də payının hazırki 66,4% səviyyəsindən ortamüddətli dövrün sonuna 77,8%-ə çatacağı gözlənilir. 2025-ci ildə ÜDM-in nominal həcmi 129,2 mlrd. manat, qeyri-neft-qaz sektorunda ÜDM-in nominal həcmi isə 92,2 milyard manat proqnozlaşdırılır.

Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov çıxışında 2024-cü ilin gözlənilən icra göstəriciləri ilə müqayisədə 2025-ci ildə dövlət büdcəsinin cəmi xərclərinin konservativ (5,4%) artımını məqbul qiymətləndirib, 2024-cü ilin büdcəsi ilə müqayisədə 2025-ci il üzrə büdcə kəsirinin 303 mln. manat azaldılmasını da müsbət dəyərləndirib. Diqqətə çatdırılıb ki, aparılan qiymətləndirmələrə görə, 2025-ci ilin dövlət büdcəsində büdcə xərclərinin inflyasiyaya 0,2 faiz bəndi artırıcı təsiri gözlənilir. Bu da əsasən cari xərclərdən irəli gəlir. Hesablamalara görə, əsaslı xərclərin inflyasiya təsiri əhəmiyyətli deyil.

2025-ci il üzrə Mərkəzi Bankın pul siyasətinin prioritetləri barədə danışan Taleh Kazımov əsas məqsədin 12 aylıq inflyasiyanın hədəf diapazonunda saxlanmasının təmin edilməsi olduğunu deyib. O, Mərkəzi Bankın 2025-ci il üzrə iqtisadi artım, inflyasiya, o cümlədən maliyyə sisteminin əsas sektorları üzrə proqnozlarını və qarşıya qoyduğu hədəfləri barədə məlumat verib.

Daha sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinə dair Palata tərəfindən hazırlanmış rəyi təqdim edib.

Palata sədri vurğulayıb ki, dövlət əsaslı vəsait qoyuluşu xərcləri hesabına növbəti ildə maliyyələşdirilməsi nəzərdə tutulan ümumi dəyəri 21513,6 mln. manat təşkil edən 169 layihə üzrə proqnozlaşdırılmış vəsaitdən 444,2 mln. manat 14 yeni layihə, 1345,3 mln. manat isə 155 keçid layihəsi üzrə olmuşdur. Ümumi dəyəri 798,4 mln. manat təşkil edən 85 layihənin 2025-ci ildə başa çatdırılması üçün 267,8 mln. manat vəsait proqnozlaşdırılır.

Qeyd olunub ki, növbəti il 3,1 milyard manat proqnozlaşdırılan büdcə kəsirinin 1,8 milyard manatının daxili dövlət borclanması hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

2025-ci ilin dövlət büdcəsində büdcə təşkilatlarının büdcədənkənar xərcləri büdcədənkənar gəlirlərindən 100,0 milyon manat artıq olmaqla 940,0 milyon manat məbləğində nəzərdə tutulmuşdur ki, bu da cari illə müqayisədə 13,1% çoxdur.

Sonra iclasda fasilə elan edilib.

Fasilədən sonra iclasda "Azərbaycan Respublikasının 2025-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi ətrafında müzakirələr aparılıb.

Müzakirələrdə Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov, Siyavuş Novruzov, Əli Hüseynli, Fazil Mustafa, Zahid Oruc, Tahir Rzayev və başqaları çıxış edərək rəy və təkliflərini səsləndiriblər.

2025-ci ilin dövlət büdcəsi layihəsinin müzakirələri noyabrın 26-da davam etdiriləcək.

**XQ**

# Fransa səfirinin siyasi hoqqabazlığı

**Fransanın Ermənistandakı səfiri Olivye Dekotini vaxtaşırı Azərbaycanla bağlı hansısa xoşagəlməz addımlar atmaqdadır. Ölkəmizin əleyhinə açıqlamalar vermək, qara yaxmaq Dekotininin, necə deyərlər, həyat amalına çevrilib. Halbuki, fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsinə malik olan bu şəxsin vəzifəsi üçüncü ölkələrə qarşı fəaliyyət aparmaq yox, Fransa–Ermənistan münasibətlərinin inkişafı üçün çalışmaqdan ibarət olmalıdır. Görünür, səfir Azərbaycan əleyhinə fəaliyyəti Paris–İrəvan əlaqələrinin inkişafına mühüm töhfə hesab edir.**

Dekotini noyabrın 24-də "X" platformasındakı hesabında İran ərazisində yerləşən Qərbi Azərbaycan ostanının (əyalət) xəritəsini yerləşdirib. Səfirin xəritəni "Tək və yeganə" sözləri ilə paylaşması diqqəti cəlb edir. Qeyd etdiyimiz kimi, Azərbaycana qarşı bütün platformalarda anti-təbliğat aparan diplomat bu paylaşımla da Vətən müharibəsindən sonra ölkəmizdə xüsusi intişar tapan Qərbi Azərbaycana qayıdış ideyasına, ümumiyyətlə, bu sözə qarşı çıxdığını nümayiş etdirib. Bizim daşdan keçən arqumentlərimizə qarşı öz aləmində əks arqumentlər irəli sürən Dekotini demək istəyib ki, Qərbi Azərbaycan yalnız İrandadır.

Səfirin diqqətinə çatdırmaq istərdik ki, Qərbi Azərbaycan sözü tarixən Azərbaycan Respublikasının qərbində yerləşən coğrafi ərazini müəyyən etmək üçün işlədilib. Bura ölkəmizin İrəvan şəhəri, Göyçə, Vedi, Zəngəzur, Zəngibasar, Şörəyel, Dərələyəz kimi tarixi mahalları daxildir. Əsrlər boyunca geniş ərazilərə malik Azərbaycan torpaqlarını adlandırmaq üçün şimal, cənub, şərq və qərb kimi coğrafi cəhətlərdən istifadə edilib. Bu ərazilərin Ermənistan adlanan dövlətə verilməsinin tarixi qədim dövrlərə gedib çıxmır. İrəvan şəhəri 1918-ci ilin mayında ermənilərə güzəştə gedilib. Zəngəzur qəzası isə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklər tərəfindən yeni yaradılmış Ermənistana bağışlanıb.



Yeri gəlmişkən qeyd edək ki, İrəvanın və Zəngəzurun ermənilərə verilməsi ilə bağlı fikirlərini vaxtaşırı Prezident İlham Əliyev də açıqlayır. Dövlətimizin başçısı həmin hadisələrin baş verməsini bağışlanılmaz səhv, xəyanət adlandırır, bu hadisələrin sonrakı bəlalarımızda başlıca rol oynadığını, Azərbaycanın digər bölgələri ilə Naxçıvanın və Türkiyənin, bütövlükdə, Türk dünyasının quru əlaqəsinin kəsildiyini bildirir. Prezident 2021-ci il aprelin 13-də ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda bu barədə demişdir: "Mən deyəndə ki, Zəngəzur qədim Azərbaycan torpağıdır, bu, həqiqətdir. Zəngəzur 1920-ci ildə Ermənistana verilmişdir – 101 il əvvəl. Ondan əvvəl o torpaq bizə məxsus idi. Onların bu gün Sevan adlandırdığı Göyçə gölünün ətrafında azərbaycanlılar yaşayıblar. Bu da bir həqiqətdir. XX əsrin əvvəlindəki xəritələrə baxsanız Sevan deyil, Göyçəni taparsınız. İrəvanla bağlı da məsələ eynidir. Onlar İrəvanın tarixi hissəsini məhv ediblər. Bunlar hamısı faktlardır. Azərbaycanlılar orada yaşamışlar, o cümlədən mənim ulu babalarım..."

Cənab İlham Əliyev bildirmişdi ki, bunlar hamısı faktlardır, lakin bizim ərazi iddiasında olmağımız anlamına gəlməməlidir: "Bilmirəm bunu eşitmisiniz, yoxsa yox, mən demişəm ki, biz oraya qayıdacağıq. Ancaq mən demədim ki, biz oraya tank üzərində qayıdacağıq. Biz Zəngəzur dəhlizinə qayıdıb orada yoldan istifadə edəcəyiksə, niyə biz İrəvana qayıtmayaq? Hesab edirəm ki, vaxtı gələndə biz bunu da edəcəyik. Bir daha bu suala görə təşəkkür edirəm. Bu sual məsələyə aydınlıq gətirməyə və öz mövqeyimi ortaya qoymağa imkan yaratdı. Biz tariximizi yadda saxlayacağıq, ancaq Ermənistan da daxil olmaqla, heç bir ölkəyə qarşı ərazi iddiamız yoxdur".

Səfirin diqqətinə onu da çatdırmaq istərdik ki, İrandakı Qərbi Azərbaycan ostanı isə Güney Azərbaycan ərazisinin 6 ostana bölünməsi nəticəsində yaradılmışdır.

Qeyd etdiyimiz kimi, Qərbi Azərbaycan ideyası Vətən müharibəsinin başa çatmasından sonra daha geniş intişar tapıb. Fransa səfiri isə indiyədək verdiyi müsahibələrdə və etdiyi paylaşımlarında Ermənistan–Azərbaycan münasibətləri, Qarabağ erməniləri və sair kimi bir çox məsələlərə münasibət bildirsə də, Qərbi Azərbaycan məsələsinə toxunmamışdı. Səfirin belə bir təxribatçı paylaşım etməsi təəccüblü olmadığı kimi, onun noyabrın 24-də baş verməsi də təsadüfi deyil. Məsələ ondadır ki, baş nazir Nikol Paşinyan noyabrın 22-də Ermənistanın ictimai televiziyasına müsahibəsində azərbaycanlıların Qərbi Azərbaycana qayıdış ideyası və ermənilərin "Qərbi Ermənistan" hərəkatı məsələsinə münasibətini açıqlamışdı. Qeyd etmişdi ki, "Qərbi Ermənistan" hərəkatının hüquqi məntiqi yoxdur. Bildirmişdi ki, azərbaycanlıların öz yurd-yuvalarına qayıdışı beynəlxalq hüquqda qaçqın təsnifatına uyğundur, ermənilərin "Qərbi Ermənistan" hərəkatı isə birbaşa Türkiyəyə ərazi iddiasıdır. Onun apardığı paralellik Qərbi Azərbaycan ideyasını qayıdış hüququ, "Qərbi Ermənistan" hərəkatının isə ərazi iddiası olduğunu göstərirdi. Beləliklə, Paşinyan hayları bir növ, ərazi iddialarından imtina etməyə çağırırdı.

Paşinyanın bu fikirləri ölkəsində ciddi müzakirələrə səbəb olmuş və əleyhdarları onu "növbəti xəyanət"də, rəsmi Bakının Qərbi Azərbaycana qayıdış konsepsiyasını legitimləşdirməkdə ittiham etmişdilər. Bu mənada, səfir O.Dekotininin Qərbi Azərbaycan paylaşımı həm də rəsmi Parisin bu məsələdə Paşinyan iqtidarı ilə eyni mövqeyi bölüşmədiyinin göstəricisi kimi qəbul olunmalıdır. Səfir "siyasi jonqlyorluq" edərək, Paşinyanı gələcəkdə bu cür açıqlamalar verməkdən çəkindirmək, ümumiyyətlə, mövqeyini dəyişdirmək istəyini ortaya qoyur.

**Milli Məclisin Elm və təhsil komitəsinin sədri, tarix elmləri doktoru, professor Anar İsgəndərov** XQ-yə açıqlamasında bildirdi ki, Fransanın Errmənistandakı səfiri bununla bizə dərs keçməyə çalışır. Onun sözlərinə görə, guya, Qərbi Azərbaycan bizim nəzərdə tutduğumuz tarixi-coğrafi ərazi deyil, indiki İran İslam Respublikasının ərazisində yerləşən bir əyalətdir: "Yüz minlərlə azərbaycanlı öz dədə-baba torpağından qovularaq çıxarılıb, qaçqın həyatı yaşamağa məcbur edilib. Özü də bu proses bir yox, bir neçə dəfə baş verib. Bu hadisə bütün dünyanın gözləri önündə baş verib. Səfirin paylaşımından isə bu qənaətə gəlmək olur ki, guya, biz bunu bilmirik. Ermənistan ərazisinə dünən qədəm qoymuş bir fransız isə bizə dərs



keçməyə cəhd edir. Əslində, o torpaqlar da birmənalı olaraq bizimdir".

A.İsgəndərovun fikrincə, fransız siyasətçilər 30 il ərzində göstərdilər ki, onlarda ədalət deyilən bir hiss yoxdur. Onlar sübut etdilər ki, haqqın nə olduğunu bilmirlər: "Onlar qəlblərində erməni məhəbbəti gəzdirirlər. Erməni məhəbbəti də onların gözlərini kor edib. Bununla da dünyanın gözündən düşüblər və ilk növbədə, azərbaycanlıların nifrətini qazanıblar. Elə bu səfirin, görəsən, doğrudanmı gözləri görmür?! Məncə, görür, amma görmək istəmir. Əgər o, ermənilərin 30 il ərzində törətdikləri vandallıqları görmürsə, o zaman bu düşüncədə olan fransızlar barədə nə demək olar?! Amma cənab səfirə demək istəyirəm ki, mən də orta məktəbdə fransız dilində təhsil almışam. Əgər imkanı olsaydı, neytral bir ölkədə görüşərdik və mən ona bu dərsi keçərdim. Azərbaycan deyiləndə hara nəzərdə tutulur, İran İslam Respublikası haradır və Qərbi Azərbaycan deyiləndə nədən söhbət gedir. Nə edək, mənim də müəllim kimi borcum, işim öyrətməkdir. Bəlkə bir fransızı haqq yoluna gətirə bildik. O da bundan sonra, bəlkə ədalətli ola. Amma, gərək ağlı yerində və bəsirət gözü açıq ola".

***Səxavət HƏMİD***
***XQ***

## Azərbaycanı tanıdanlar

# Alim soydaşlarımızın İstanbul görüşü





**Türkiyədə fəaliyyət göstərən Azərbaycanlı Elm Adamları Dərnəyinin İstanbulda ilk iclası keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsi, Türkiyə–Azərbaycan Dərnəkləri Federasiyası və Azərbaycanlı Elm Adamları Dərnəyinin birgə təşkil etdiyi toplantıda qardaş ölkədə fəaliyyət göstərən alimlərimizin təşkilatlanması, Vətənlə əlaqələrinin yüksək səviyyədə qurulması və ölkəmizin uğurlrının, ədalətli mövqeyinin xarici aləmə daha geniş çatdırılması kimi məsələlər diqqət mərkəzində olub.**

Məclisdə Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, Azərbaycanlı Elm Adamları Dərnəyinin sədri, Türkiyənin Bilkent Universitetinin professoru Əmirulla Məmmədov, Türkiyə parlamentinin müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil məsələləri üzrə müşaviri Nəcibə Nəsibova, Türkiyə–Azərbaycan Dərnəkləri Federasiyasının rəhbəri Ədalət Turan, Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Müjdət Həsənov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Qarabağ Universitetinin Elm şöbəsinin müdiri Elçin İbrahimov, Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Rövnəq Rzayev qardaş ölkədə yaşayıb-çalışan elmi ziyalıların qarşıya qoyduğu məramın müzakirə edilən məsələlərlə bağlı mülahizə və təkliflərini bildiriblər, quruma nəcib fəaliyyətində uğurlar arzulayıblar.

Müxtəlif ölkələrdə yaşayan alimlərimizin bu dərnəyə qoşulmasının qurumun gələcək fəaliyyətinə verə biləcəyi töhfələrdən danışan natiqlər bildiriblər ki, dünyanın hər bir bölgəsində azərbaycanlı elm adamlarına, eləcə də mədəniyyət xadimlərinə və həkimlərə rast gəlmək olar və bu insanlar öz sahələri üzrə müəyyən zirvəyə çatmış şəxsiyyətlərdir.

Qeyd edilib ki, dünyaşöhrətli bu insanların ilk elm ocağının məhz Azərbaycan olması sevindirici haldır. Son 30 il ərzində Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizəyə toxunan çıxışçılar 44 günlük Vətən müharibəsi nəticəsində əldə etdiyimiz şanlı Zəfəri xatırladıblar.

Bildirilib ki, bəzi mənfur qüvvələr ölkəmizi davamlı olaraq informasiya cəbhəsində hədəfə alır. Sonuncu bədnam kampaniya COP29-un Azərbaycanda keçirilməsinə maneə törətmək məqsədilə daha geniş miqyas və kəskin xarakter aldı. Bütün bunlara baxmayaraq, Azərbaycan ən yüksək səviyyədə COP29-a evsahibliyi edərək bir daha öz siyasi, mədəni, bəşəri gücünü dünyaya nümayiş etdirdi.

2 gün davam edən iclasda Türkiyədə fəaliyyət göstərən Azərbaycanlı Elm Adamları Dərnəyinin növbəti toplantılarından birinin Bakı Dövlət Universitetində təşkili, alimlərin Azərbaycanın ali təhsil müəssisələri ilə əməkdaşlığı, universitetlərin gələcək dayanıqlılığının artırılması istiqamətində birgə fəaliyyəti, ortaq seminarların, layihələrin təşkili məsələləri müzakirə olunub.

**Toplantı barədə XQ-yə açıqlama verən Azərbaycanlı Elm Adamları Dərnəyinin sədri, Türkiyənin Bilkent Universitetinin professoru Əmirulla Məmmədov bildirdi:**

– Yeni diaspor qurumu Azərbaycanın elm və təhsil sahəsindəki inkişafına töhfə vermək məqsədilə 2024-cü ilin aprel ayında İstanbulda qurulub. Dərnək Qarabağ Zəfərindən sonra Azərbaycanda həyata keçirilən inkişaf proseslərinə xüsusi diqqət yetirmək və bu proseslərin bir hissəsi olaraq elm və təhsil sahəsində keyfiyyətli və davamlı inkişafı təmin etməkdir.

Bu məqsədlə dünyanın müxtəlif ölkələrində təhsil alan azərbaycanlı gənclərə magistr və doktorantura proqramlarına daxil olmağa kömək edəcək bir "bilik bankı" yaratmaq nəzərdə tutulub. Bu, gənclərin elm dünyasında irəliləməsi və daha yüksək təhsil səviyyəsinə çatması üçün bir platforma olacaq. Bundan əlavə, dərnək gənclərin dünya üzrə məşhur elm adamları ilə tanışlığını təmin etməyə, onların təcrübə və biliklərindən faydalanmağa da imkan yaradacaq. Elm adamları ilə birbaşa ünsiyyət qurmaq gənclərin daha geniş bir perspektivə sahib olmalarını və elm sahəsində yeni nailiyyətlər əldə etmələrini təmin edəcək.

Dərnək bu əlaqələri ilə həm Azərbaycanın elm və təhsil sahəsindəki inkişafına dəstək olmağı, həm də gənclərin beynəlxalq arenada daha güclü mövqe tutmalarını qarşıya məqsəd qoyub. Eyni zamanda, elm və təhsil sahəsində əməkdaşlığı gücləndirməyi, təhsil sistemini müasir standartlara uyğunlaşdırmağı və elmi tədqiqatların inkişafını təşviq etmək üçün müxtəlif layihələr həyata keçirməyi planlaşdırırıq. Azərbaycanın elm və təhsil sahəsindəki mövqeyini möhkəmləndirmək və dünyadakı elmi əməkdaşlıq şəbəkələrinə qoşulmaq üçün mühüm layihələri həyata keçirmək niyyətindəyik.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov isə toplantı haqqında təəsüratlarını belə ifadə etdi:**

– Türkiyə həm strateji tərəfdaş, həm də qardaş ölkə olaraq, azərbaycanlıların ən çox fəaliyyət göstərdiyi ölkədir. Türkiyənin ali təhsil müəssisələrində çalışan azərbaycanlı elm adamları elmi inkişaf və tədqiqat sahəsindəki müstəsna töhfələri ilə diqqət çəkirlər. Onların elmi nailiyyətləri həmişə qardaş ölkədə yüksək qiymətləndirilmiş və özünəməxsus əhəmiyyətə malik olmuşdur. Bu baxımdan Azərbaycan və Türkiyə arasında təhsil və elm sahəsindəki əməkdaşlığı da qarşısına əsas hədəflərdən biri kimi qoyan yeni qurum və onun gələçəyə hesablanan planları böyük əhəmiyyət kəsb edir.

Azərbaycanlı Elm Adamları Dərnəyinin fəaliyyəti 2 qardaş ölkə arasındakı əməkdaşlığı daha da dərinləşdirərək, elmi tədqiqatların inkişafına, yeni kəşflərin həyata keçirilməsinə və işgüzar mühitin daha da yaxşılaşdırılmasına xidmət edir. Dünyanın müxtəlif guşələrində azərbaycanlı elm adamları, mədəniyyət xadimləri fəaliyyət göstərir və onlar öz sahələrində mühüm nailiyyətlər əldə etmiş şəxsiyyətlərdir. Hər bir bölgədə bu insanlar öz bacarıq və bilikləri ilə tanınır, müxtəlif sahələrdə irəliləyişlərə imza atırlar. Bir çox ölkələrdə fəaliyyət göstərən alimlərimizin ABİD kimi təşkilatlara qatılmasının həm ölkəmizin, həm də təşkilatın gələcək inkişafına əhəmiyyətli töhfələr verəcəyinə inanıram.

**Qarabağ Universitetinin elm şöbəsinin rəhbəri Elçin İbrahimov iclasla bağlı dedi:**

– Türkiyədəki alimlərimizin Qarabağ Universitetində onlayn seminarların, ustad dərslərinin təşkili, onların bu ali təhsil müəssisəsinə qısa və ya uzun müddətə ezam olunmaları vacibdir. Toplantıda ikili diplom proqramları, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi və Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurası tərəfindən dəstəklənən layihələrin icrasında Türkiyədəki alimlərimizlə əməkdaşlıq, Türkiyə və Azərbaycan universitetlərində ikili diplomların verilməsi, eləcə də Qarabağ Universitetində nəşr olunacaq elmi jurnalların həm də redaksiya heyətində təmsil olunmaları kimi məqamlar ətrafında fikir mübadilələri aparıldı.

Gündəmdə olan digər məsələlər isə Qarabağ Universitetində açılan və gələcəkdə açılacaq laboratoriyaların quruluşu və fəaliyyətində, dərsliklərin və dərs proqramlarının hazırlanmasında Türkiyənin ali təhsil müəssisələrində çalışan elm adamlarımızın təcrübələrindən faydalanmaq, birgə elmi seminarlar keçirməkdir. Bütün bu məqamları nəzərə alsaq İstanbulda təşkil olunan bu görüş çox faydalı oldu.

*Namiq QƏDİMOĞLU*
*XQ*

## Replika

# "Binokllular" yaman fikrə dalıblar...

**Kinorejissor Georgi Daneliyanın "Mimino" filmində bir epizod var. Gürcü Valiko Mizandari (Vaxtanq Kikabidzenin Miminosu) ilə hoteldə bir nömrədə qalan sürücü Rubik Xaçikyan (erməni aktyoru Frunzik Mkrtçyanın yaratdığı obraz) məhkəmədə şahid qismində ifadə verirlər. Hakim ondan Miminonun Telavidə bacısını atıb Moskvaya qaçdığına görə əzişdirdiyi zərərçəkəni tanıyıb-tanımadığını soruşur. Vəziyyətin qəlizləşdiyini görən Rubik rusca pis danışdığını bəhanə gətirərək, zərərçəkənin kim olduğunu (кто такой потерпевший?) tanımadığını bildirir. Cavabdan bir şey anlamayan hakim fikrə gedir...**



İndi Avropa Şurasının Ermənistanda "lövbər salmış" mülki missiyasının başçısının köməkçisi Marek Kuberskinin onların səlahiyyət müddətnin nə zaman bitəcəyi barədə "NEWS.am"ın sualını cavablandırarkən "dərin fikirlərə" dalıb. O, Aİ-nin bu barədə yekdil qərara gəlmədiyini deyib: "Biz bunun üzərində işləyirik. Brüsseldəki tərəfdaşlarımız məsələni Aİ-yə üzv ölkələrin paytaxtları ilə məsləhətləşirlər. Qərar Aİ-nin 27 üzvü tərəfindən qəbul ediləcək. Biz artıq Ermənistan hakimiyyəti ilə, vətəndaş cəmiyyəti təşkilatları ilə məsləhətləşmələr aparmışıq. Bununla bağlı qərar hazırlanır".

Qeyd edək ki, avropalı missionerlərin Ermənistanda mandatı gələn il fevralın 19-da başa çatır. Alman hərbçisi Markus Ritterin rəhbərlik etdiyi bu missiya iki aydan sonra nə edəcəkləri barədə suala cavab tapmaq üçün baş sındırmaqla məşğuldur.

Erməni jurnalistin Azərbaycanın Aİ müşahidəçilərinin Ermənistandan çıxarılmasını tələb etməsinin səbəbləri barədə sualı qarşısında çaş-baş qalan Kuberski, ümumiyyətlə, Azərbaycanın müşahidəçilərin sərhəd zolağında olmasından narahatlığı və Bakının informasiya hücumları ətrafında ikibaşlı sözlər danışıb: "Bizim Azərbaycan tərəfi ilə birbaşa əlaqəmiz yoxdur. Ona görə də bu suala cavab vermək bizim üçün çətindir." Ardınca isə Aİ missioneri lap "gül vurub": "Əlbəttə ki, bizim mandatımız sərhəddə insidentlərin azaldılmasına kömək etmək, sərhəddə yaşayan insanların təhlükəsizlik hissini artırmaq, həmçinin etimadın yaradılmasına kömək etməkdir. Biz onlara məqsədimizin Ermənistanın hakimiyyət orqanları və əhalisi ilə Azərbaycan hakimiyyəti və əhalisi arasında daha yaxşı, etimad mühiti yaratmaq olduğunu izah etməyə çalışırıq".

Markus Ritterin köməkçisinin sözlərindən belə çıxır ki, Aİ-nin mülki missiyası iki ölkənin sərhədində pusquda dayanıb, insidentin baş verəcəyi məqamı gözləyir. Üstəlik, iki dövlətin və iki xalqın arasında inam və etimad mühitini yaratmağa iddialı danışan Kuberski özlərinin "mülki, silahsız missiya olduğunu, sərhəddəki vəziyyəti izləyən və bu barədə missiyanın Brüsseldəki rəhbərinə məlumat verdiklərini" açıq şəkildə bəyan edib. Amma, o, bu zaman şeflərinə ötürdükləri informasiyanın hansı xarakterdə və məzmunda olduğunu açıqlamayıb. Yəni, Aİ-nin adı mülki, özü hərbi-kəşfiyyat xarakterli missiyasının üzvü Daneliyanın qəhrəmanı Rubik Xaçikyan kimi özünü də dolaşdırıb, birbaşa rəisi Markus Ritteri də. Rəsmi Bakı üçün isə bu "binokllu" missionerlərin əsl missiyasının nədən ibarət olduğu hələ də müəmma olaraq qalır...

*İ.HƏSƏNQALA*
*XQ*

## Fəallıq kampaniyası

# Qadın zorakılığına "Yox!"

**25 Noyabr Qadınlara Qarşı Zorakılıqla Beynəlxalq Mübarizə Günü ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT Azərbaycan ilə birlikdə "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyasına start verib.**



Kampaniyanın əsas məqsədi qadınlara qarşı törədilən zorakılığın insan hüquqlarının kobud pozulması kimi təbliği istiqamətində yerli, milli, regional və beynəlxalq səviyyədə maarifləndirmə işinin aparılmasıdır. Hər il kampaniya çərçivəsində müxtəlif formatda tədbirlər həyata keçirilir, dünya ictimaiyyətinə qadınlara və qızlara qarşı zorakılığın qarşısını almaq və aradan qaldırmaq çağırışı edilir.

**Kampaniyanın başlanması ilə əlaqədar AQUPDK–nin sədri Bahar Muradovanın videomüraciətində deyilir:**

– Dəyərli həmvətənlər, bu gün bütün dünyada və Azərbaycanda "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyasına start verilir. Hər il noyabrın 25-də – "Qadınlara Qarşı Zorakılıqla Beynəlxalq Mübarizə Günü"ndə başlayıb dekabrın 10-u – "Beynəlxalq İnsan Hüquqları Günü"ndə başa çatan kampaniya ərzində bütün tərəfdaşlarımızı, bütövlükdə, cəmiyyəti bu fenomenlə qətiyyətli mübarizə aparmağa səsləyirik. Çünki bu qlobal problem yalnız fərdlərə deyil, ailələrə və cəmiyyətimizə ciddi mənfi təsirlər göstərir, onun inkişaf və tərəqqisini sarsıdır. Zərərçəkənlərin bütün proseslərdə tam hüquqlu iştirakına maneələr yaradır, şərəfli və təhlükəsiz həyat sürmək hüququnu pozur.

Qadınlara və qızlara qarşı zorakılıq ciddi iqtisadi və sosial problemlərə yol açmaqla milli iqtisadiyyata da zərbə vurur, ictimai sağlamlığın təmin olunmasını əhəmiyyətli dərəcədə ləngidir.

Azərbaycan Respublikası ölkədə qadın hüquqlarının müdafiəsi ilə bağlı mühüm nailiyyətlər əldə etmiş, bütün hüquqi normativ çərçivədə səmərəli icra mexanizmləri yaratmışdır. Lakin hüquqların qorunması üçün yalnız hüquqi tədbirlər deyil, eni zamanda, ictimai dəstək və həmrəylik də vacibdir. Biz hamılıqla patriarxal davranış normaları və selektiv münasibəti sındıra, ənənəvi gender streotiplərini müsbət düşüncə tərzinə transformasiya edə, qadın və qızları səlahiyyətləndirərək diqqətimizi daha yaxşı bir dünya qurmaq naminə işə yonəldə bilərik. Gəlin, 16 günlük fəaliyyət kampaniyası çərçivəsində güclərimizi birləşdirək, zorakılığa qarşı sıfır dözümlülük sərgiləyərək, hamı üçün daha ədalətli bir gələcək uğrunda birlikdə mübarizə aparaq.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# "Nəsimi" operasının ilk tamaşası AMK-də müzakirə edildi



**Dünən Azərbaycan Milli Konservatoriyasında "Nəsimi" Operasının premyerası və Milli musiqi təhsili mövzusunda mətbuat konfransı keçirilib. "Sənət məbədində bir gün" adlı toplantıda AMK-nın mətbuat katibi Aysel Fikrət yeni operanın ilk tamaşası barədə ətraflı məlumat verib. Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi Azərbaycan milli musiqi təhsili və "Nəsimi" operası ilə bağlı mətbuat nümayəndələrinin suallarını cavablandırıb.**

Suallardan biri milli musiqi təhsilimizin vəziyyətinə həsr edilib. Xalq artisti Siyavuş Kərimi tədbir iştirakçılarını, media nümayəndələrini maraqlandıran bu suala cavab verərək deyib:

– Bu gün beynəlxalq festivallarda konservatoriyanın tələbələri uğurla çıxış edirlər. Bu baxımdan demək istəyirəm ki, hər bir mədəniyyətə milli rəng, çalar, əhval-ruhiyyə qatıb onu milliləşdirmək olar. Bir rektor kimi sevinirəm ki, ucqar rayonlardan belə təhsil almağa gələn gənclər Azərbaycan milli musiqisini elə bir səviyyədə ifa edirlər ki, biz onlarla fəxr edə bilərik.

Təsəvvür edin, dünyadakı beynəlxalq caz festivallarında milli musiqi alətlərimiz – tar, kamança müvəffəqiyyətlə nümayiş olunur. Bu milli alətlərdə ifa edən gənclərimiz Azərbaycan musiqisini elə məharətlə təbliğ edirlər ki, biz həyata keçirdiyimiz musiqi təhsilimizlə bağlı proqramların əhəmiyyətini görürük. 2006-cı ildən bu musiqi ocağında "İnstrumental muğam" kafedrası fəaliyyət göstərir. Bu onu göstərir ki, milli musiqi təhsilimiz hər gün püxtələşir və uğurlara doğru addımlayır. "İnstrumental muğam" kafedrası bu günümüz, sabahımız, gələcəyimiz naminə ifaçılıq məharəti ilə fərqlənən gəncləri yetişdirib. Onlar Azərbaycan musiqisini bütün dünyaya yayacaqlar.

**Siyavuş Kərimi bu günlərdə Heydər Əliyev adına sarayda "Nəsimi" operasının uğurlu təqdimatı ilə bağlı musiqi ictimaiyyətini maraqlandıran sualları da cavablandırıb. O bildirib ki, uzun müddətdən sonra Azərbaycan musiqi tarixində "Nəsimi" operası kimi ciddi əsərin yazılması milli musiqimizin uğurudur:**

– Bu məsuliyyəti dərk etdiyimə görə əsərin hər bir çalarına fikir verirdim. Opera müğənnilərinin mənə etimadı, sanki, bu əsəri yazmağımı daha da sürətləndirdi. Bu əsər 6 ay müddətinə ərsəyə gəlib. Pandemiya zamanı gecə-gündüz saata belə baxmadan bu operanın üzərində işləməyə başladım. Əlbəttə, bu, çox məsuliyyətli işdir. Mən də belə bir elit janrın Azərbaycan musiqi tarixinə yeni bir nəfəs gətirəcəyinə inanaraq, "Nəsimi" operasını sevə-sevə yaratdım.

Nəsimi haqq şairidir. Mən onun Ənəlhəqq fəlsəfəsini tamaşaçıya çatdırmaq üçün musiqinin sehrinin bütün pillələrindən istifadə etməyi özümdə cəsarət tapdım. Çünki mən öz əqidəsi yolunda şəhid olan bir haqq şairinin taleyini gözlərim önündə canlandırır, musiqinin kaloritini bütün cazibədarlığı ilə yaratmağa davam edirdim. Məni ən çox təsirləndirən o oldu ki, Heydər Əliyev Sarayında boş yer qalmamışdı. Tamaşaçılar axıra qədər operanı dinlədilər. Ən kövrək hisslər isə o idi ki, insanların təsirlənərək ağladığını gördüm. Və onda əmin oldum ki, çəkdiyim əziyyət, yuxusuz gecələrim hədər getməyib. Bütün tamaşaçılara və mənim yaradıcılığıma dəyər verən media nümayəndələrinə təşəkkür edirəm.

Xatırladaq ki, operanın librettosu akademik Rafael Hüseynova məxsusdur.

*Fidan SALMANOVA*
*XQ*

# Ələsgər yurdunda erməni vəhşilikləri

## *15–16 iyul 1988-ci il Göyçə mitinqlərinin tarixçəsi*

**Qərbi Azərbaycandan azərbaycanlıların son deportasiya dalğası 1988–1989-cu illərdə baş verdi. Bu dövrdə azərbaycanlı əhali zorakılıq, hücumlar və təzyiqlər nəticəsində öz yurdlarını tərk etmək məcburiyyətində qaldılar. Amma o dövrdə də yerli əhali bu haqsızlıqlara qarşı əzmlə mübarizə apardı. Vaxtı ilə Göyçə mahalının Ardanış kəndinin sakini olmuş Əli Vəliyev redaksiyamıza göndərdiyi məktubunda bu barədə ətraflı məlumat verib.**



Xalqımlızın tarixinə qara həriflərlə yazılmış 1988-ci ilin hələ də bilinməyən səhifələrindən biri də erməni daşnaklarına qarşı 15–16 iyul 1988-ci il tarixində Çəmbərək rayonunu Şorca kəndində keçirilən Cil, Ardanış, Şorca, Toxluca və Ağbulaq kəndlərinin sakinlərinin təşkil etdiyi mitinqidir. 1988-ci ilin iyulunda belə bir mitinq 2 gün Basarkeçər rayonunun kəndlərində də keçirilmişdir.

Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsi gündəmə gələndə ermənilər Xankəndində, İrəvanda mitinqlər təşkil etməyə başladılar və indiki Ermənistan ərazisində yaşayan soydaşlarımızın deportasiyasına başlanıldı. Göyçə mahalının Ardanış kəndində yaşayan bir qrup ziyalı bu dözülməz hala cavab olaraq bölgədə yaşayan soydaşlarımızın mintinqini təşkil etməyi təklif etdlər. 14 iyul 1988-ci ildə axşamüstü Krasnoselsk rayon partiya komitəsində təlimatçı işləyən rəhmətlik Fəxrəddin Paşayev, Ardanış kənd orta məktəbinin direktoru Haqverdi Əliyev və sovxozda anbardar işləyən rəhmətlik Bəxtiyar Əliyev qonşu Cil kəndinə uzun müddət rəhbər vəzifələrdə işləmiş Göyçə ağsaqqalarından olan Abbas Mazanovla məsləhətləşməyə getdilər. Abbas müəllim Ermənistan Ali Sovetnin deputatı olmuş təqaüddə olan rəhmətlik Məsmə Abbasovanı çağırtdırdı və qərara alındı ki, 15 iyul saat 12-də Şorca kəndində dəmiryol vağzalının önündə mitinq keçirilsin. Çəmbərək (Krasnoselo) rayonunun Şorca ətrafı 4 kəndinin (Cil, Ardanış, Toxulca və Ağbulaq kəndləri) sakinlərinin də burada toplaşmasını təmin edilməsi üçün tapşırıqlar verildi. Abbas Mazanov erməni riyakarlığını bildiyindən vəzifədə işləyən soydaşlarımıza zərər toxunulmaması üçün sovxoz və kənd soveti sədrlərinin, məktəb direktorlarının,ilk partiya təşkilatlarının katiblərinin kəndlərdən çıxıb başqa yerə getmələrini məsləhət gördü.

Həmin gecə 15 iyul 1988-ci il mitinqinə hazırlıq başlandı və səhər saat 11 radələrində Cil və Ardanış kəndlərindən soydaşlarımız yük və şəxsi minik avtomabilləri ilə dəmir yolu vağzalının qabağına yığışmağa başladılar. 5 kənddən 2000 nəfərə qədər adam toplaşdı. O vaxt Şorca dəmir yolu vağzalında işləyən rəhmətlik İsgəndər müəllim mitinq işkirakçılarını mikrofonla təmin etdi. Mikrofonun elekrtik enerjisi ilə təmin olunması üçün onu Cil kəndindən gəlmiş rəhmətlik Nürəddinin motoskletinin akkumlyatoruna qoşdular. Yaxın üç saat ərzində mitinq iştirakşıları rayon rəhbərlərinin mitinqə gəlmələrini, Göyçə və soydaşlarmızın sıx yaşadığı ərazilərə muxtariyyət verilməsini, Azərbaycan dilində TV kanalların yaradılmasını, soydaşlarımız yaşayan kəndlərdə xəstəxana və ambulator mərkəzlərin açılmasını, kəndlərə qaz çəkilməsini, ali təhsilli gənclərin işlə təmin olunmasını tələb etdilər. Mitinqdə Yusif Hümbətov, Fazilə Hüseynli, İmamət Kərimov və bir çoxları



olduqca kəskin çıxış etdilər. Qərara alındı ki, 16 iyulda mitinq daha da geniş tərkibdə keçirilsin. 1988-ci ildə Sovetlər İttifaqının dünyaya meydan oxuduğu bir vaxtda, DTK-nin qulaqlarının hər yerdə olduğu bir vaxtda belə bir mitinqin təşkili möhtəşəm idi.

16 iyul 1988-ci ildə saat 10 radələrindən kəndlərdən soydaşlarımız Şorca kəndinə toplaşmağa başladılar. Təsəvvür edin, insanlar mitinqə çatmaq üçün kəndlər arasındakı 5-10 km-lik yolu piyada gəlirdilər.



15 iyul mitinqindən təşvişə düşən Krasnoselo rayonunun rəhbərləri bütün kəndlərin vəzifəli şəxslərinə soydaşlarımızın mitinqə çıxmasına mane olmağı tapışırsalar da 16 iyul mitinqində iştirakçıların sayı 3500 nəfərdən çox idi. Mitinqdə şüarlar da qaldırılmışdı. “Göyçə mahalına muxtariyyət”, “Azərbaycan xalqına eşq olsun”, “Eşq olsun Azərbaycana” və s. kimi şüarlar mitinq iştirakıçılarını daha da ruhlandırırdı. Şüarlar Ardnış və Cil kəndində gecə hazırlanmışdır. O dövrdə vatman kağızlarının tapılması, onların taxta üzərinə yapışdırılaraq şüar yazılması olduqca çətin idi. Bu işin öhdəsindən Bakı Dövlət Universitetinin hüquq fakultəsində qiyabi təhsil alan I kurs tələbəsi Ardanış sovxozunda fəhlə işləyən Yusif Hümbətov və onun qardaşı Etibar Hümbətov, cilli Fazilə Hüseyinli və bir neçə vətənpərvər gənc layiqincə gəldilər.

Mitinq saat 12 radələrində başladı. Mitinqdə səsin daha gur eşidilməsi üçün Ardanış kənd orta məktəbində elektrik işləyən Gürzalı Süleymanov və ATS müdiri Mayıs Hüseynov Ardanış kənd orta məktəbinin radio qovşağını dinamiki ilə birlikdə söküb motoskiletə yerləşdirmişdilər. Həm də mitinqin audio yazısını yazmaq üçün maqinitofon da gətirmişdilər. Mitinqdən fotoları Mayıs Hüseynov, rəhmətlik Zülal Yusifov çəkmişdirlər. 16 iyul 1988-ci ildə İrəvanda Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin iclası keçirilirdi və bütün rayonların vəzifəli şəxsləri bu iclasda idilər. Şorcada mitinqə toplaşanların sayının sürətlə artdığığnı görən Krasnoselsk rayon partiya komitəsinin 2-ci katibi Dallakyan, 3-cü katibi Nina Bloxina və rayon milis idarəsinin rəisi Mejlumyan İrəvana mitinq haqqında məlumat verdilər. Saat 13 radələrində İrəvanda iclas yarımçıq dayandırıldı və rayonların vəzifəli şəxsləri rayona qayıtdılar. I katib Serqo Nazinyan və İcrayyə Komitəsini sədri Mahal Əliyev iclasdan birbaşa mitinq keçirilən Şorca kəndinə gəldilər. Artıq Krasnoselsk rayonun bütün rəhbər işçiləri, milliyətcə moldavan olan DTK-nin bölgə rəisi, rayonun bütün milisləri Şorca mitinqini dağıtmaq istəyirdilər. Mitinq isə öz axarı ilə davam edirdi. Ardanışdan Haqverdi İbrahimov, Yusif Hümbətov, Nazanı Həsənova, rəhmətlik Mikayıl Həsənov, Sahib Əhmədov, Fazilə Hüseynli, rəhmətlik Məsmə Abbasova, Kəmalə Hacıyeva, Vidadi Əliyev və başqaları 15 iyul mitinqinin tələblərinin yerinə yetirilməsini tələb etdilər. Çıxış edənlər torpaqdan pay olmamasından, Qarabağın heç vaxt erməni ərazisi olmadığından, Göyçə və digər azərbaycanlılar yaşayan rayonların da onların tarixi torpaqları olduğundan, Göyçə mahalına da muxtariyyət verilməsindən, işsiz ali təhsilli azərbaycanlı gənclərin işlə təmin olunmasından, milli və dini ayrı seçkiliyə son qoyulmasından, kəndlərdə gənclərə lazımi şərait yaradılmamasından, Azərbaycan dilində televiziya kanalının olmamasından danışdılar.

Mitinqdə maraqlı anlar da yaşanıldı. DTX-nin nümayəndəsi maqnitofon qoyulmuş motoskiletə yaxınlaşıb soydaşlarımızın nə etdikləri ilə maraqlandıqda Mayıs Hüseynov cəld audiokaseti çıxarıb yanında dayanmış Cil kəndinin poçt müdürü rəhmətlik Oruc Zeynalabdiyevə vermiş və gizlədə bilmişdilər. Biz indi o kaseti axtarırıq və oradakı qiymətli çıxışlardan istifadə etməyin vaxtı çatıbdır. Haqverdi İbrahimov I katibin əlindən mikrofonu alıb katibin boş-boş danışmasından yox, mitinqdə səsləndirilən tələblərin yerinə yetirilməsi haqqında fikir bildirməsini tələb etmişdir. Yusif Hümbətov ali təhsilli gənclərin işlə təmin edilməsini tələb edənddə I katibin “onların hamısı təhsili müəllimdir, bizdə də müəllimə yer yoxdur” çavabına uyğun olaraq, yaxınlıqda dayanan milliyətcə erməni olan rayon ticarət idarəsinin rəisini göstərib “o da idman müəllimidir, görün harada işləyir” demişdir.

Dörd saatdan çox davam edən mitinq sona çatdıqdan sonra soydaşlarımız öz kəndlərinə qayıtdılar. Ermənilərin mitinq təşkilatçılarına qarşı təqibi başladı. Mitinqin təşkilatçılarından Yusif Hümbətov, Fazilə Hüseynli, mikrofonu I katibin əlindən alan Haqverdi İbrahimov həbsdən qurtarmaq üçün məcbur olub Bakı şəhərinə getdilər. Bəzi rəhbər işçilərin vəzifəsini dəyişdirdilər və işdən çıxardılar.

15–16 iyul 1988-ci il Göyçə mahalının Şorca kəndində təşkil olunmuş mitinq Qərbi Azərbaycanda soydaşlarımızın Sovet Rus imperiyasına və erməni daşnaklarına qarış son mitinqi oldu. Artıq 2 aydan sonra Çəmbərək rayonunda I katibi, rayon milis idarəsini rəisi, rayon prokuroru dəyişdirildi və saqqallı daşnaklar vəzifəyə gətirildilər. Onlar isə qısa bir zamanda Sovet ordusunun köməyi ilə bütün Qərbi Azərbaycandakı soydaşlarımızı deportasiya etdilər.

# Qərbi Azərbaycan İcması beynəlxalq konfransa hazırlaşır

**Qərbi Azərbaycan İcması “Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi” mövzusunda ikinci beynəlxalq konfransa hazırlıq işlərini başa çatdrıb və konfrans dekabrın 5-6-da keçirəcək. İcmadan XQ-yə bildirilib ki, beynəlxalq mərasimə 51 ölkədən 100-dən çox xarici qonağın qatılması gözlənilir. Konfransda Qərbi azərbaycanlıların Ermənistandan zorla deportasiya olunmasının tarixi, onların qayıdış hüququnun əsasları, mədəni irsinin bərpası və bu sahədə diplomatik təşəbbüslər müzakirə olunacaq.**




Dekabrın 6-da isə konfransın mədəni hissəsi keçiriləcək. Bu gün, həm də 1987–1991-ci illərdə Qərbi azərbaycanlıların deportasiya edilməsi ilə əlaqədar anım günüdür. Ötən il keçirilən analoji beynəlxalq konfransda da “Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışını təmin etmək: qlobal kontekst və ədalətli həll” mövzusunda müzakirələr aparılmışdı. Həmin mərasimdə 44 ölkədən 100-dən çox nümayəndə iştirak etmişdi.

# Toponimlər tarixin möhürdür

**İndi ölkəmizdə müzakirə olunan ən başlıca mövzulardan biri Qərbi Azərbaycandan olan vətəndaşlarımızın qayıdışı ilə bağlıdır. Bunun həyata keçirilməsi üçün başda Qərbi Azərbaycan İcması olmaqla bir çox təşkilatlar və dövlət qurumları daim fəaliyyətdədirlər.**

ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İbrahim Bayramov bildirir ki, Ermənistan ərazisindəki toponimlərin tədqiqi aydın şəkildə sübut edir ki, indi Ermənistan adlanan Qərbi Azərbaycan, Azərbaycanın tarixi torpaqlarıdır. Qərbi Azərbaycanın bir çox türk mənşəli toponimləri tarixin yalddaşına çevrilib, mənəvi soyqırımına məruz qalıb. Ona görə də Qərbi Azərbaycan toponimlərinin öyrənilməsinin xüsusi nəzəri və praktiki əhəmiyyəti vardır. Bu toponimlər yerli xalqın – Azərbaycan türklərinin tarixini, türk tayfalarının adını (quqark, gorus, sak, aynın, qıpçaq, qaraqoyunlu, şirak, peçenek, axta, kəvər və s.) əks etdirir və tədqiqat nəticəsində aydın olur ki, ərazinin toponimləri həm də qədim türk sözləri (balıq, yazı, art, bək, kəpəz və s.), Azərbaycan dili ilə bağlı coğrafi adlar (dağ, dərə, düz, təpə, tap, taxt, yal, nüvək, ova, gədik və s.) əsasında formalaşmışdır. Bütün bunlar Qərbi Azərbaycan toponimlərinin tarixi coğrafiyasının öyrənilməsində xüsusi rol oynayır.




Professor qeyd edir ki, bu torpaqlar Azərbaycandan mərhələ-mərhələ qoparılaraq qondarma erməni respublikası yaradılıb və həmin vaxtdan da ermənilər yer adlarımızı dəyişdirərək erməni mənşəli adlarla əvəz edib, Azərbaycan türklərinin bu ərazidəki izlərini tarixdən silməyə çalışıb. Bu faktları özündə əks etdirən tarixi sənədlər "toxunulmazlıq" qrifi ilə Ermənistanın arxivlərində saxlanılır. Yalnız ən etibarlı mənbə ərazinin toponimləridir ki, tarixi həqiqətlərə işıq salır, aydınlıq gətirir. O, nümunə olaraq bir neçə coğrafi adı da qeyd edib: "Quqark" rayonunun adı "Quqar" sözündən yaranıb. Bu söz isə türk mənşəli tayfa olan Göyər tayfasının adı ilə bağlıdır. Bir digər toponim Gorus rayonudur. Bu rayonun da adı qədim türk tayfası olan qoros-gorus tayfa adındandır. Daha bir ad isə Gümrü şəhərinin adı ilə bağlıdır. Bu ad isə Kimmer terk tayfa adındandır ki, bu tayfa da türk tayfasıdır. Bir toponim də Qafan şəhərinin adı ilə bağlıdır. Bu ad isə türk mənşəli Peçeneqlərin qapan tayfa adından gəlir.




Alim qeyd edib ki, bu kimi misalların saysız çoxdur və toponimlər təsdiqləyir ki, indi Ermənistan adlanan ərazi Azərbaycanın tarixi torpaqlarıdır.

*Səhifəni hazırladı:*
*Namiq QƏDİMOĞLU*
*XQ*

Gövhər Baxşəliyeva – 70

# Alim ömrünün ziyası

*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın prezidenti, akademik*

**Azərbaycanda şərqşünaslıq elminin bir sıra görkəmli nümayəndələri olmuşdur ki, ərəbşünas, iranşünas və türkoloq kimi onların adları dünya şərqşünaslığında yaxşı tanınır. Yeni tarixi mərhələdə şərqşünaslıq elmini ölkəmizdə AMEA-nın həqiqi üzvü Gövhər Baxşəliyeva layiqincə təmsil edir.**

Baxşəliyeva Gövhər Baxşəli qızı 26 noyabr 1954-cü ildə Bərdə şəhərində doğulub. 1977-ci ildə ADU-nu fərqlənmə diplomu ilə bitirərək, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda işə qəbul olunub, baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, Şərq filologiyası şöbəsinin müdiri vəzifələrində çalışıb. 1993-cü ildən Şərqşünaslıq İnstitutu direktorunun elmi işlər üzrə müavini, 1997-ci ildən direktor vəzifəsini icra edən, 2002-ci ildən isə direktorudur.



2022-ci il yanvarın 26-dan AMEA vitse-prezidenti vəzifəsini icra edir. İctimai Elmlər Bölməsi Elmi Şurasının sədridir. 1984-cü ildə namizədlik, 1996-cı ildə doktorluq dissertasiyalarını müdafiə edib. 2004-cü ildən professordur. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür (İnsbruk, Avstriya). 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə həqiqi üzvü seçilib. "Qızıl qələm" mükafatı laureatıdır. Klassik və müasir ərəb ədəbiyyatı, ərəbdilli Azərbaycan ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr və mənbəşünaslıq üzrə ölkəmizdə tanınmış mütəxəssislərdən biridir.

Gövhər xanımın əsərləri keçmiş sovet respublikalarında və ərəb ölkələrində elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb, haqqında mətbuatda yazılar verilib, tədqiqatlarda əsərlərinə çoxsaylı istinadlar edilib. O, 4 fundamental monoqrafiyanın – "Абд ас-Салам Уджейли. Очерки жизни и творчества" (B., Elm, 1989, 5,7 ç.v.), "Книга песен" Абу-л-Фараджа ал-Исфахани и классическая азербайджанская литература" (B., İrşad, 1998, 14,75 ç.v.), "Современный сирийский рассказ" (B., ANE, 2007, 22 ç.v.), "Литературные взгляды Тауфика ал-Хакима" (Bakı, Elm, 2015, 31,75 ç.v.), habelə 16 kitabın, o cümlədən Orta əsr mənbələrindən olan "Əbülfərəc İsfəhani. "Bir Məcnun vardı..." Ərəb dilindən tərcümə, ön söz və şərhlər (1990), "İlahi eşq dastanları" (2001), "Абу-л-Фарадж ал-Исфахани. Рассказы о Кайсе ибн Мулаввахе по прозвищу Меджнун и арабоязычных азербайджанских поэтах" (2006), "Ölməzliyə aparan yol" (2009), Əbülfərəc İsfahani. Ölməzliyə aparan yol" (2010) kimi dəyərli əsərləri tərcümə edərək fililoji şərhlərlə birlikdə nəşr etdirmişdir. Onun "Hamıdan ucadır alimin yeri" (2003) və "Məqalələr, məruzələr, müsahibələr..." adlı dördcildliyi çap edilmişdir (2011–2020). G.Baxşəliyevanın və Ə.Abbasovun tərtibatı ilə "İslam. Ensiklopedik lüğət" (2013), "Əsassız erməni iddiaları və tarixi faktlar" (2016), Армянские инсинуации и исторические факты. Вопросы и ответы" (2021) kitabları işıq üzü görmüşdür.

Akademik Gövhər Baxşəliyevanın rus, ingilis və fars dillərində nəşr edilmiş "Nizami Gəncəvinin milli mənsubiyyəti" monoqrafiyası (2021–2022) Azərbaycan nizamişünaslığının əhəmiyyətli əsərlərindəndir. Alimin "Unudulmaz lider" (2023) kitabında görkəmli dövlət xadimi Heydər Əliyev haqqında elmi baxışları və memuarları öz əksini tapmışdır. Onun 250-dən çox elmi məqalə və məruzələrindən 27-si nüfuzlu xarici nəşrlərdə dərc olunmuşdur. Orijinallığı, zənginliyi, dərin nəzəri səviyyəsi və konseptuallığı ilə seçilən elmi əsərləri ilə Gövhər Baxşəliyeva Azərbaycan şərqşünaslıq elmini zənginləşdirmiş, tədqiqatları nəticəsində şərqşünaslıq elminə yeni səhifələr əlavə etmişdir. Azərbaycan şərqşünaslıq elmini dəfələrlə xarici ölkələrdə layiqincə təmsil edən Gövhər xanım Rusiya, Çin, Böyük Britaniya, Türkiyə, İran, Rumıniya, Macarıstan, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Səudiyyə Ərəbistanı, Macarıstan, Polşa, Fransa, Almaniya və İtaliyada elmin aktual problemlərinə dair məruzələrlə çıxış etmişdir.

Akademik Gövhər Baxşəliyevanın rəhbərliyi və tərtibçiliyi ilə bir sıra kitablar işıq üzü görmüşdür. O, Şərq filologiyası və mənbəşünaslıq sahəsində bir çox əsərin elmi redaktorudur. Bir sıra elmi jurnalların redaksiya heyətinin üzvüdür. "Şərq araşdırmaları" və "Azərbaycan şərqşünaslığı" elmi və elmi-kütləvi jurnallarının baş redaktorudur, "Şərq filologiyası məsələləri" dövrü toplusunun elmi redaktorudur.

Yüksək ixtisaslı şərqşünas kadrların hazırlanmasında bilavasitə iştirak edən Gövhər xanımın elmi rəhbərliyi ilə 25 namizədlik və 2 doktorluq dissertasiyası müdafiə olunmuşdur. "Türk xalqları ədəbiyyatı", "Dünya ədəbiyyatı" (ərəb ədəbiyyatı), "Dünya ədəbiyyatı" (fars ədəbiyyatı) ixtisasları üzrə Müdafiə Şurasının sədridir. Uzun illər şərqşünaslıq sahəsində Respublikada aparılan elmi işlərin koordinasiyası üzrə Problem Şurasının sədri olmuşdur. O, pedaqoji fəaliyyətlə də məşğul olmuş, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatı fənni üzrə xüsusi kurs aparmışdır.

Elm təşkilatçısı kimi də Gövhər Baxşəliyeva mühüm işlər görmüşdür. Onun AMEA Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə şərqşünaslıq elminin ən müxtəlif sahələrinə aid çoxsayda tədqiqat işləri hazırlanıb çap olunmuş, beynəlxalq və respublika elmi konfransları və simpoziumları keçirilmiş, institutun perspektiv inkişaf planları işlənib hazırlanmışdır. Beləliklə, institutun profili və aparılan elmi-tədqiqatların başlıca istiqamətləri genişlənmiş, Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-fəlsəfi fikri, filologiyası, mədəniyyəti, Azərbaycanın Şərq ölkələri ilə tarixi-mədəni əlaqələrinin aktual problemləri, Şərq–Qərb qarşılıqlı münasibətlərinin kompleks şəkildə tədqiq edilməsi təşkil olunmuşdur. 1990-cı illərin əvvəllərində institutun şərqşünaslıq kadrlarının axınının qarşısı Gövhər xanımın fəaliyyəti nəticəsində alınmış və istedadlı gənc mütəxəssislərin cəlb olunması ilə kollektivin elmi potensialı möhkəmləndirilmişdir. Qədim tarixi ənənələrə malik Azərbaycan şərqşünaslıq elmi Gövhər Baxşəliyevanın rəhbərliyi ilə özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İnstitutda aparılan elmi-tədqiqat işlərinin istiqaməti genişlənmişdir. Onun səyləri nəticəsində institutda Şərq ölkələrinin tarixinin, iqtisadiyyatının, ictimai-fəlsəfi irsinin, filologiyasının öyrənilməsi ilə bərabər, habelə Şərq ölkələrinin Azərbaycanla tarixi-mədəni əlaqələrinin aktual məsələləri, Şərq–Qərb qarşılıqlı əlaqə və təsir problemləri də hərtərəfli şəkildə tədqiq edilmişdir.

Eyni zamanda, Şərqşünaslıq İnstitutunda ənənəvi klassik istiqamətlərlə yanaşı, Azərbaycan elminin müasir tələblərinə uyğun olaraq, yeni tədqiqat sahələrinin inkişafına da diqqət yetirilmişdir. Bu məqsədlə institutun strukturunda dəyişikliklər aparılmış, yeni şöbələr ("Şərq–Qərb", "Cənubi Azərbaycan", "Mərkəzi Asiya", "Asiya–Sakit Okean regionu ölkələri", "Şərq ölkələrinin tarixşünaslığı", "Şərqşünaslıq elminin tarixi və nəzəriyyəsi" şöbələri) yaradılmışdır.

Gövhər Baxşəliyevanın rəhbərliyi ilə son illərdə institutun beynəlxalq elmi əlaqələri xeyli genişlənmişdir. Hazırda institutda ABŞ, Almaniya, İtaliya, Hollandiya, Çin, Rusiya, Türkiyə, Rumıniya, Polşa, Macarıstan, Misir, İraq, Suriya, BƏƏ, İran, Özbəkistan, Qazaxıstan və s. bu kimi bir sıra xarici ölkələrdəki şərqşünaslıq mərkəzləri ilə fəal elmi mübadilələr həyata keçirilməkdədir. Son illərdə burada Misirin Qahirə Universiteti, Pakistanın Bəhriyyə Universiteti, Rumıniyanın Kluj-Napoka Universiteti, Türkiyənin Səlcuq Universiteti, İtaliyanın Şərq Universiteti, Rusiya Elmlər Akademiyası Şərqşünaslıq və Şərq Əlyazmaları İnstitutu, M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu, Polşanın Şərq və Aralıq Dənizi Araşdırmaları İnstitutu ilə, Gürcüstanın Tbilisi Universiteti, Özbəkistan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutu, Misirin İsgəndəriyyə kitabxanası və digərləri ilə əməkdaşlıq haqqında memorandumlar imzalanmışdır.

Gövhər xanım 2011–2012-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən maliyyələşdirilən "Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən qədim və yeni dövr xəritələrin axtarışı və surətlərinin ölkəyə gətirilməsi" mövzusunda layihə çərçivəsində İspaniya və Fransada, Böyük Britaniyada elmi ezamiyyətdə olmuş, Madrid, Eskorial, Paris, London və Oksford şəhərlərinin bir sıra kitabxanalarında və arxivlərində, habelə Misirin Dər əl-kutub və İsgəndəriyyə kitabxanalarında, Vatikanın Apostol kitabxanasında və Romanın mərkəzi milli kitabxanasında elmi axtarışlar aparmış, şərqşünaslıq elminin mənbəşünaslıq bazasını daha da zənginləşdirmişdir.

Respublikanın ictimai-siyasi həyatında da fəal iştirak edən Gövhər Baxşəliyeva 2000-ci ildə 57 saylı Bərdə–Ağcabədi seçki dairəsindən Azərbaycan Respublikasının II çağırış Milli Məclisinə deputat seçilmişdir. O, 2000-ci ilin iyun ayından 2005-ci ilin dekabr ayınadək Azərbaycan Respublikası Milli Məclis Sədrinin müavini olub. Milli Məclis Sədrinin müavini kimi sosial qanunvericilik sahəsinə kurator olaraq bu sahədə qəbul olunan bir sıra qanunların hazırlanmasında yaxından iştirak edib. 2005-ci, 2010-cu və 2015-ci illərdə III, IV və V çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilib. Milli Məclisin Elm və Təhsil məsələləri və Mədəniyyət üzrə daimi komitələrinin üzvü kimi səmərəli fəaliyyət göstərib. Gövhər xanım 2000–2019-cu illər Azərbaycan Respublikası Milli Məclisinin İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqında nümayəndə heyətinin rəhbəri, təşkilatın icraiyyə komitəsinin üzvü idi. Onun rəhbərlik etdiyi parlament nümayəndə heyəti İƏT Pİ-nin sessiya və konfranslarında Ermənistanın Azərbaycana təcavüzünü pisləyən, Xocalı soyqırımını insanlığa qarşı cinayət adlandıran, üzv parlamentlərə bu haqda qanunvericiliyə əlavələr təklifini verən, işğal olunmuş Azərbaycan ərazilərində müqəddəs İslam məbədlərinin, məscidlərinin və məqbərələrinin dağıdılmasını kəskin şəkildə pisləyən bir sıra qətnamələrin qəbuluna və yekun bəyannamələrə (İstanbul, Qahirə, Əbu Dabi, Kuala-Lumpur, Dəməşq, Palembanq, Bağdad, Tehran, Ankara, Niamey, Bamako, Rabat, Xartum deklarasiyaları və s.) müvafiq maddələrin salınmasına nail olmuşdur.

Gövhər Baxşəliyeva uzun illər Milli Məclisin Azərbaycan–Misir dostluq qrupunun rəhbəri olmuşdur. O, Azərbaycan Parlamentini Qərbi Avropa İttifaqının Parlamentlərarası Assambleyasının 51-ci sessiyasında (Paris, Fransa, 2005), Bərpa olunan enerji ehtiyatlarından istifadə (Bonn, Almaniya, 2004), Uşaq haqlarının müdafiəsinə həsr olunmuş Ümumdünya Qadın parlamentarilərin konfransı (Roma, İtaliya, 2004), Beynəlxalq enerji təhlükəsizliyinə həsr olunmuş beynəlxalq konfranslar (Uels, Avstriya, 2006), İstanbulda İƏT Parlament İttifaqının VIII sessiyası və konfransı, İƏT Parlament İttifaqının IX sessiyası və konfransı (2006), İƏT Parlament İttifaqının X sessiyası (Kuala Lumpur, Malayziya, 2008), İƏT Parlament İttifaqının fövqəladə sessiyası (İstanbul, Türkiyə, sentyabr 2008), İƏT Parlament İttifaqının XI sessiyası (Niamey, Niger, 2009), BMT-nin "Sivilizasiyaların alyansı", II forum (İstanbul, Türkiyə, 2009), İƏT Pİ İcraiyyə Komitəsinin iclası və sessiyası (2009), İƏT Pİ II fövqəladə konfransı (Dəməşq, Suriya, 2010); İƏT Pİ XIII sessiyası və konfransı (Əbu-Dabi, BƏƏ, 2011), İƏT Pİ XII konfransı (Cakarta, İndoneziya, 2012) və s. mötəbər məclislərdə layiqincə təmsil etmişdir.

Akademik Gövhər Baxşəliyevanın elmi əsərlərində keçmiş Sovetlər Birliyində ilk dəfə olaraq müasir Suriya ədəbiyyatı tədqiq edilir, bu ədəbiyyatda intişar tapmış əsas ideya-bədii cərəyanları təhlil olunur, bir sıra müasir Suriya yazıçılarının, o cümlədən Hənna Mina, Səid Hayraniya, Şauki Bağdadi, Tamer Zəkəriyyə, Ğadə əs-Səmmən və digərlərinin yaradıcılığı araşdırılır. Müasir Suriyanın ən görkəmli və populyar yazıçısı olan Əbd əs-Səlam əl-Üceylinin yaradıcılığının tədqiqi nəticəsində Suriya ədəbiyyatının inkişafında onun rolu və yeri müəyyənləşdirilir, yazıçının yaradıcılıq fərdiyyəti, formalaşdığı ictimai-siyasi mühit, yaradıcılığının ideya-tematik və bədii-estetik xüsusiyyətləri araşdırılır.

Elmi araşdırmaları qədim ərəb ədəbiyyatını da əhatə edən Gövhər Baxşəliyevanın "Əbülfərəc İsfahani. Bir Məcnun vardı..." kitabı Şərqin ən dəyərli yazılı abidələrindən sayılan X əsr ərəb filoloqu və ensiklopediyaçısı Əbülfərəc İsfahaninin 24 cildlik "Nəğmələr kitabı"nın iki fəslinin şərhli tərcüməsinə həsr edilmişdir. Bu fəsillər Bənu Amir qəbiləsindən olan şair Qeys ibn Müləvvəh – dünyanın Məcnun kimi tanıdığı ölməz aşiq haqqındadır. Tərcümədə Məcnunun həyatı, Leyliyə sevgisi haqqında maraqlı rəvayətlər və Məcnunun dildən-dilə düşən şerləri toplanmışdır. Kitaba tərcüməçi tərəfindən təqdim edilən mövzu ilə bağlı geniş tədqiqatda müəllif qeyd edir ki, min ildən bir az da əvvəl görkəmli ərəb ədəbiyyatçısı Əbülfərəc İsfahaninin (897–967) tərtib etdiyi nəhəng ədəbi abidə - "Kitab əl-əğani ("Nəğmələr kitabı") bu gün də böyük dəyərini saxlayır. Bu əsər yalnız ərəb şerinin uzaq dünənini, ərəb şairlərinin həyatını və irsini öyrənmək üçün deyil, həm də Şərq xalqları ədəbiyyatları arasındakı əlaqələri, münasibətləri, qohumluqları araşdırmaq üçün də müstəsna əhəmiyyətə malikdir.

"Книга песен" Абу-ль-Фараджа ал-Исфахани и классическая азербайджанская литература" adlı monoqrafiyası Gövhər Baxşəliyevanın araşdırılan problem üzrə çoxillik müstəqil axtarışlarının yekunudur. Azərbaycan ədəbiyyatında Leyli və Məcnun süjetinin ideya-məzmun və bədii-estetik təkamülünü izləmək üçün kitabda orta əsrlər ərəb-müsəlman mədəniyyətinin parlaq abidəsi kimi əsərin ümumi səciyyəsi verilmiş, onun Orta əsrlər Azərbaycan ədəbiyyatını öyrənmək baxımından mənbəşünaslıq əhəmiyyəti müəyyənləşdirilmiş, Məcnun haqqında ərəb hekayətinin süjet və kompozisiyası struktur və ideya-məzmun baxımından təhlil edilmiş, ərəb hekayəti ilə Azərbaycan şairləri Nizami Gəncəvi, Əşrəf Marağayi, Füzuli, Əbdi bəy Şirazi, Həqiri, İsmayıl bəy Nakamın, Mirzə Hüseyn Çakərin və digərlərinin Leyli və Məcnun süjeti əsasında yazdıqları poemalar müqayisəli şəkildə araşdırmaya cəlb olunmuşdur. Həmçinin haqlı olaraq qeyd edilmişdir ki, Məcnundan daha artıq bir ədəbi obraz olan Məcnun obrazı səkkiz yüz ildən çoxdur ki, dünyanı fəth etmişdir. İlk dəfə dahi Azərbaycan şairi Nizami Gəncəvinin qələmində sanballı ədəbi qəhrəmana çevrilən Məcnun XII əsrdən bəri onlarca Şərq və Azərbaycan şairlərinin müxtəlif dillərdə yazdıqları məsnəvilərlə geniş şöhrət qazanmışdır. Xüsusən, böyük Azərbaycan şairi Məhəmməd Füzulinin məşhur "Leyli-Məcnun" poeması Azərbaycan ədəbiyyatı ilə yanaşı, həm də Yaxın və Orta Şərq ədəbiyyatının mühüm ədəbi hadisəsidir.

Monoqrafiyada alim belə bir nəticəyə gəlmişdir ki, bütövlükdə Azərbaycan şairləri Məcnun haqqındakı ərəb rəvayəti ilə tanış olaraq, ərəb invariantının ideya-tematik və bədii məzmununu yaradıcı şəkildə mənimsəmiş, onun milli ədəbi ənənələrlə üzvi sintezinə nail olmuşlar. Gövhər Baxşəliyeva "İlahi eşq dastanları". Tərcümə və şərhlər adlı kitabına orta əsrlərdə yaşamış iki Azərbaycan şairinin "Leyli və Məcnun" mövzusunda yazdığı məsnəvilərin filoloji tərcüməsini daxil etməklə özünün uzun illər ərzində üzərində çalışdığı "Leyli-Məcnunnamə"sini daha da zənginləşdirmişdir. Eyni zamanda, Gövhər xanım 2012-ci ildə nəşr olunan böyük Misir dramaturqu, yazıçısı və ədəbiyyatşünası Taufiq əl-Həkimə həsr olunmuş "Литературно-критические взгляды Тауфика ал-Хакима" adlı əsərində zəngin nəzəri biliklərə və müxtəlif mənbələrə əsaslanaraq, ərəb ədəbiyyatının ədəbi-nəzəri problemlərinə əsaslı münasibət bildirmişdir. Müəllif kitabda Taufik əl-Həkimin yaradıcılığını bütövlükdə nəzərdən keçirməyi və bununla da yazıçının ictimai-siyasi fikirlərinin onun yaradıcılığı ilə sıx bağlı olduğunu göstərməyi əsas məqsəd kimi qarşıya qoymuş, nəzəri cəhətdən əsaslandırmışdır.

Görkəmli şərqşünas alimin yaradıcılığının digər istiqaməti onun elmi və ictimai fəaliyyətini əks etdirən və müxtəlif illərdə çap olunan məqalələr, müsahibələr, məruzələr, rəylər, yeni nəşrlərə ön söz, müqəddimə və s. yazılarıdır. Bu yazılar müəllifin kitablarında toplanaraq çap olunmuşdur. Birinci kitab – "Hamıdan ucadır alimin yeri" məqalələr, müsahibələr və rəylərdən ibarətdir. Kitabın başlığı Nizami Gəncəvinin "İsgəndərnamə" poemasındakı:

**Əmr etdi, verildi belə bir fərman:**
**"Alimdir gözümdə ən əziz insan!**
**Elmlə, hünərlə! – Başqa cür heç kəs**
**Heç kəsə üstünlük eləyə bilməz!**
**Rütbələr içində seçilir biri –**
**Hamıdan ucadır alimin yeri!**

– misrasından götürülmüş və bu motiv müəllifin müxtəlif dövrlərdə, ayrı-ayrı mövzu və janrlarda qələmə aldığı yazıların ümumi ruhu, leytmotivi həmin kəlamların işığında öz əksini tapmışdır. Dahi Nizami Gəncəvinin səkkiz əsr bundan öncə irəli sürdüyü və sivil dünyanın son yüzilliklərdəki inkişaf təcrübəsi ilə təsdiqlənən bu fikrini bir daha vurğulamaqla, Gövhər xanım eyni zamanda müstəqil dövlətimizdə ahəngdar cəmiyyətin qurulmasında, ölkəmizin tərəqqisi işində elmin və alimin rolunu ön plana çəkmişdir.

Kitabın ən müxtəlif ictimai-siyasi məsələlərə həsr olunan ikinci və üçüncü hissələrində iki məqam xüsusilə diqqəti cəlb edir: ziyalı, vətəndaş mövqeyi və dövlətçilik maraqlarının üstün tutulması, elmi-ədəbi amillərin dəyərləndirilməsi. Kitabda ənənəvi resenziya və təqdimat xarakterli yazılarla yanaşı, ciddi tədqiqat məqalələri də vardır.

AMEA-nın həqiqi üzvü Gövhər Baxşəliyevanın "Məqalələr, məruzələr, müsahibələr" adlı dördcildliyində müəllifin müxtəlif mətbu nəşrlərdə çap olunmuş elmi və ictimai mövzulara həsr edilmiş məqalə, məruzə, müsahibə və çıxışları, müxtəlif əsərlərə yazdığı ön söz və resenziyaları daxil edilmişdir. Eyni zamanda, kitaba müəllifin nəşr ilinədək çap olunmamış bir sıra məqalələri və çıxışları da salınmışdır. Bu kitabda Gövhər Baxşəliyevanın klassik və müasir ərəb ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq və ərəbdilli Azərbaycan ədəbiyyatının müxtəlif məsələlərinə həsr olunmuş məqalələri, bir sıra nüfuzlu beynəlxalq konfranslarda səslənmiş məruzə və çıxışları, mətbuatda dərc olunmuş çoxsaylı müsahibələri, müxtəlif əsərlərə yazdığı ön söz və resenziyaları əhatə edilmişdir. Bu kitab da Gövhər xanımın elmi, ictimai və siyasi fəaliyyətinin uğurlarını özündə əks etdirir. Bu səhifələrdə alim, ziyalı, deputat, elm təşkilatçısı və nəhayət qadın-ananın yüksək dəyərlərinin Gövhər xanımın şəxsində vəhdət tapdığının bir daha şahidi oluruq...



Akademik Gövhər Baxşəliyeva Azərbaycan Milli Elmlər Akademiyasının İctimai Elmlər üzrə vitse-prezidenti vəzifələrini icra edən elm təşkilatçısı kimi də respublikamızda geniş iş aparır.

Bu gün akademik Gövhər Baxşəliyeva elmi-maarifçi mühitin ön sıralarında gedən, cəmiyyətin inkişafına çalışan, zəhmətə və axtarışlara üstünlük verən ziyalılardan biri kimi qəbul olunur. Çoxillik səmərəli ictimai və elmi fəaliyyəti, əldə etdiyi bilik və təcrübə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Gövhər Baxşəliyevanın bundan sonra da cəmiyyətimizə fayda vermək yollarında inamla xidmət göstərəcəyinə gur işıq salır.

Alim həmkarımı ürəkdən təbrik edir, ona elmi-təşkilati fəaliyyətində daha böyük uğurlar və möhkəm cansağlığı arzulayıram!

# COP29: Azərbaycan Tərəflər

**BMT-nin 29-cu iqlim sessiyasının bağlanış plenar iclasının gərgin keçməsi, lakin uzun müzakirələrin sonunda uğurlu razılaşmanın əldə edilməsi iqlim dəyişikliyi ilə mübarizə tarixinə qızıl hərflərlə yazıldı. Beynəlxalq liderlər, diplomatlar və iqlim mütəxəssislərinin saatlarla davam edən danışıqlarının yekununda iki qütb–inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığın yeni keyfiyyət mərhələsinin əsası qoyuldu. Yeni razılaşmaya əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim tədbirləri–təbii fəlakətlərin zərərini azaldılması, bərpaolunan enerji keçidinin dəstəklənməsi və yoxsulluğun azaldılması məqsədilə hər il 100 milyard dollar əvəzinə 2035-ci ilə qədər 300 milyard dollar vəsait ayırması öhdəliyi götürməsi qərara alındı.**

Bağlanış mərasimində BMT Baş katibi Antonio Quterreş çıxışında həm hökumətləri, həm də qlobal ictimaiyyəti bundan sonra da iqlim dəyişikliyinə qarşı mübarizədə daha fəal olmağa, iddialı addımlar atmağa səslədi, eyni zamanda, bu məsələdə xüsusilə G20 ölkələrinin dəstəyinə daha çox ehtiyac duyulduğunu vurğuladı.

Antonio Quterreş Azərbaycana COP29 sammitinə uğurla ev sahibliyi etdiyinə və konfransın təşkilini yüksək səviyyədə həyata keçirdiyinə görə minnətdarlığını bildirdi. Baş katib Azərbaycan Prezidenti İlham Əliyevə, COP29 prezidenti Muxtar Babayevə və iqlim konfransı komandalarına təşəkkürünü çatdıraraq dedi: “Bakı iqlim mübarizəsində beynəlxalq həmrəyliyin və əməkdaşlığın simvoluna çevrildi. Azərbaycan bu sammitlə qlobal problemlərin həllində nə qədər əhəmiyyətli rol oynadığını bir daha sübut etdi”.

A.Quterreş iqlim tədbirlərinin sürətləndirilməsinin vacibliyini diqqətə çatdırdı, eyni zamanda, bütün ölkələri öz iqlim planlarını yeniləməyə və daha iddialı hədəflər müəyyənləşdirməyə çağıraraq bildirdi: “COP29-da əldə olunan razılaşma bir başlanğıc nöqtəsidir. Bu razılaşmaya yalnız bir təməl kimi yanaşılmalıdır. Hər bir ölkə bu təməl əsasında fəaliyyət göstərərək öz iqlim hədəflərini yenidən nəzərdən keçirməli və daha irəliyə getməlidir. Bu mübarizə uzun, lakin qaçılmazdır”.

BMT Baş katibinin bu sözlərindən belə bir nəticəyə gəlmək olur: 29-cu iqlim konfransının uğurlu yekunu ilə iqlim dəyişikliyinə qarşı qlobal mübarizənin yeni bir mərhələsi başlanır. Sessiyanın yekununda əldə edilən razılaşma gələcəkdə ən mürəkkəb iqlim problemlərinin əməkdaşlıq və birgə iradə ilə həllini şərtləndirir, eyni zamanda, bu razılaşma təkcə inkişaf etmiş ölkələrin deyil, həm də bütün planetin xoşbəxt gələcəyinə dərin inam yaradır.

COP29-un son plenar iclasının gecə yarıya qədər davam etməsi və uğurla yekunlaşması isə çoxunun yuxusuna haram qatdı. Bu nüfuzlu konfransın Azərbaycanda keçiriləcəyi ilə bağlı yekdil qərar imzalandığı ilk günlərdən ta indiyədək Fransa, ABŞ, Niderland, Norveç, Almaniya və digər ölkələrin respublikamıza qarşı qarayaxma, təzyiq kampaniyaları səngimədi. İstəkləri ürəklərində qaldı. Qarabağ savaşında olduğu kimi, ədalətsiz, haqsız çağırışları, şər-böhtanları heç bir bir nəticə vermədi, konfrans vurğuladığımız kimi, uğurlu sonluqla yekunlaşdı. Şübhəsiz ki, BMT kimi nüfuzlu bir təşkilatın Baş katibi A.Quttereşin belə bir taleyüklü sessiyanı yüksək səviyyədə yekunlaşdırdığına görə, Azərbaycana təşəkkürünü bildirməsi də işğalçı Ermənistanın havadarlarının ürəklərinə çalın-çarpaq dağ çəkdi.

Qeyd edək ki, bütün ölkələr, o cümlədən Ermənistan COP29-a dəvət edilmişdi. Əlbəttə, bu dəvət, çağırış Azərbaycanın sülhpərvər bir ölkə olmasından irəli gəlməklə yanaşı, həm də iqlim fəlakətləri ilə bağlı ölkələrin birlik, həmrəylik missiyasına sadiqliyi ilə bağlı idi. Eyni zamanda dünyanın sülhpərvər qütbü bu dəvəti Azərbaycanın 30 illik münaqişədə Ermənistanla arasındakı münasibətlərin normallaşması istəyindən irəli gələn müsbət bir addım kimi dəyərləndirmişdi.

Bir sözlə, Azərbaycana qarşı “səlib yürüşü” iştirakçılarının, bu iqlim konfransını siyasi şouya çevirmək istəyənlərin, suyu bulandırmağa cəhd göstərənlərin bütün cəhdləri nəticəsiz qaldı. Bəşəriyyəti iqlim fəlakətindən xilas missiyasını üzərinə götürən BMT-yə, xüsusilə Azərbaycana qarşı yönələn bu çirkin oyun Don Kixotun yel dəyirmanı ilə mübarizəsini xatırlatdı.

Yeri gəlmişkən, Azərbaycana qarşı aparılan bu qarayaxma kampaniyasının, ədalətsiz təhdidlərin arxasında erməni diasporu və dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni lobbi təşkilatları dayanır. Onlar anlamaq istəmirlər ki, Azərbaycana qarşı yönəldilən bu çirkin siyasət indiyədək olduğu kimi, bundan sonra da heç bir bir nəticə verməyəcək.

***

BMT-nin Baş katibi Antonio Quterreş bəyanatında COP29-da əldə olunan razılaşma ilə iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasının qoyulduğunu bildirib. Baş katib daha sonra vurğulayıb: “29-cu iqlim konfransında əldə olunan razılaşma qlobal istiləşməni 1,5°C-də saxlamaq məqsədini möhkəmlətmək üçün həyati əhəmiyyət daşıyır. Ölkələr bu sammitdə üzərlərinə düşən vəzifənin öhdəsindən gəldilər. Fikrimcə, maliyyələşdirmə və yumşaldılmada indiki nəticə gələcək fəaliyyət üçün möhkəm əsas verir”.

Baş katib daha sonra deyib: “Qonaqpərvərliyə görə Azərbaycan hökumətinə, COP29-un prezidenti Muxtar Babayevə, onun komandasına göstərdikləri gərgin əməyə görə təşəkkür edirəm”.

BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Still də COP29-un yüksək səviyyədə keçirilməsinə və bu iqlim konfransında müsbət nəticələr əldə olunmasına görə, Azərbaycan hökumətinə razılığını ifadə edib.




S.Still COP29-un yekun plenar sessiyasında Azərbaycana iqlim maliyyələşdirilməsi sahəsində çətin hədəfə uğurla nail olduğu üçün təşəkkür edib: “Bu, çətin yol idi, amma biz müəyyənləşdirilən məqsədə çatdıq. Bu yeni maliyyə hədəfi, hər bir ölkəyə artan iqlim təsirləri şəraitində bəşəriyyət üçün sığorta polisidir”. O əlavə edib ki, hər hansı bir sığorta polisi kimi, yalnız bütün ödənişlər tam və vaxtında həyata keçirildiyi halda işləyir.

Onun sözlərinə görə, bu qərar bütün ölkələrə iş yerləri yaratmağa, daha sürətli iqtisadi inkişafı gerçəkləşdirməyə, hamı üçün daha ucuz və təmiz enerjinin əldə olunmasını sürətləndirməyə, eləcə də təmiz enerji bumunu genişləndirməyə əlverişli şərait yaradacaq. Bu, iqlim böhranının ön cəbhəsində gələnlər, xüsusən də ən həssas olanlar üçün real müdafiə tədbirlərini maliyyələşdirməyə kömək edəcək.

COP29-un prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev COP29-un yekun plenar sessiyasında bildirib ki, COP29 sədrliyi işini davam etdirəcək və Braziliyanın COP30-a sədrlik fəaliyyətinə dəstək verəcək: “Biz hamıya yeni milli səviyyədə müəyyənləşdirilmiş töhfələrin fevrala qədər təqdim olunmasını tövsiyə edəcəyik. Braziliyanın gələcək sədrlik fəaliyyətini dəstəkləyəcəyik və Rio konvensiyaları arasında tərəfdaşlıq əlaqələrini gücləndirməyə davam edəcəyik”.

M.Babayev, həmçinin COP29 konfransının bütün iştirakçılarına Azərbaycana iqlim məsələsində göstərdikləri etimada görə təşəkkürünü bildirib. “Bu imkanları bizə verdiyiniz üçün minnətdaram. Gəlin, birlikdə gələcəyə doğru irəliləyək və “yaşıl” dünya naminə həmrəyliyimizi nümayiş etdirək”, – o əlavə edib.

BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen Bakıda COP29-un yekunları barədə danışarkən bildirib ki, 29-cu iqlim konfransı ilə quracağımız gələcəyin təməli qoyulub. BMT-nin fəaliyyətində iqlim dəyişikliyi ilə mübarizə, xüsusilə inkişaf etməkdə olan ölkələrdə daha şəffaf və inklüziv maliyyələşməyə nail olmaq qarşıya mühüm vəzifə kimi qoyulub.

İ.Andersenin sözlərinə görə, ciddi tədbirlər görülməsə, iqlim dəyişikliyi daha da güclənəcək. BMT-nin Ətraf Mühit Proqramı bütün maraqlı tərəflərlə işləməyə davam edəcək. Maliyyələşmənin ən səmərəli şəkildə, yerlərdə ona ən çox ehtiyacı olan icmalar üçün maksimum bölüşdürülməsi gerçəkləşdiriləcək.

Britaniyanın xarici işlər naziri Devid Lemmi isə özünün “X” sosial media şəbəkəsindəki paylaşımında COP29 razılaşmasının mühüm bir addım olduğunu bildirib. Nazir paylaşımında daha sonra vurğulayıb ki, yeni iqlim maliyyələşdirilməsi hədəfi qlobal iqlim tədbirlərini sürətləndirməyə kömək edəcək. Bununla da həm Britaniyanın gələcək rifahı və təhlükəsizliyi, həm də planetimizi getdikcə təhlükəli xarakter alan iqlim böhranından qorunması həyati əhəmiyyət daşıyacaq.

İqlim məsələləri üzrə Avropa Komissarı Vopke Hukstra COP29-un bağlanış plenarında konfransın iqlim maliyyəsində yeni eranın başlanğıcı kimi xatırlanacağını vurğulayıb. O bildirib ki, hazırda dünya son dərəcə çətin geopolitik dövrdən keçir və belə zamanda vəziyyətin düzələcəyi ilə bağlı hissə qapılmaq doğru olmaz: “Belə bir məqamda yekun razılığa gəlmək çox böyük nailiyyətdir. Hər birimiz daha çox maliyyə təmin etmək üçün gərgin əmək sərf etdik. 100 milyard ABŞ dollarI hədəfini 3 dəfə artırdıq. Bu, daha real hədəfdir. Biz maliyyəni gələcəkdə artırmağı da qəbul edirik. İqlim qarşısında daha müdafiəsiz ölkələrə dəstək olmaq üçün çox çalışdıq və onların maliyyəyə əlçatanlığı təmin olunacaq”.

Braziliyanın ətraf mühit və iqlim naziri Marina Silva mətbuat konfransında COP29-da adaptasiya gündəlikləri ilə bağlı irəliləyişin həssas ölkələr üçün mühüm önəm daşıdığını, vətəndaşların həyatını, ərzaq təhlükəsizliyini, cəmiyyətin rifahı naminə zəruri maraqların qorunması istiqamətində inkişaf edən və həssas ölkələr üçün vacib olduğunu bildirib.

Marina Silva, həmçinin deyib ki, 9 illik intensiv danışıqlar və müzakirələrdən sonra karbon kreditini həyata keçirə biləcək strukturların axtarışında uğur əldə edilib: “Biz Braziliyada bu prosesin, həqiqətən, maksimum dürüstlüklə və şəffaf olması üçün işləməyə davam edəcəyik. Çünki başa düşürük ki, karbon bazarı inkişaf etməkdə olan ölkələrin bütün problem və ehtiyaclarını həll edəcək universal həll olmasa da, vacib bir vasitədir”.

## Paris Sazişi və karbon bazarlara “yaşıl” işıq

COP29-un Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev 29-cu iqlim konfransının noyabrın 23-də keçirilən bağlanış plenar iclası barədə məlumat verərkən son iki həftə ərzində tərəflərin çox gərgin işlədiyini bildirdi, heç kimin Bakıdan əsas məqsədimizlə bağlı yaxşı nəticə əldə etmədən getmək istəmədiyini, dünyanın gözünün bu nüfuzlu tədbirə yönəldiyini vurğuladı. Braziliyanın ətraf mühit naziri Marina Silva ölkəsində keçiriləcək COP30 konfransının bütün ölkələr arasında möhkəmlənəcək əməkdaşlıq nümunəsinə çevrilməsinin Bakı sammitinin yekunlarından asılı olacağını diqqətə çatdırdı. O, üzləşilən böhranın qarşısının alınması üçün təsili tədbirlər görülməsinin zəruriliyini, Azərbaycanda razılaşmanın əldə edilməsinin yalnız tərəflər arasında həmrəyliyin formalaşmasından asılı olduğunu dedi.

Həmin gecə COP29 çərçivəsində keçirilmiş müzakirələrin hesabatları və iclasların protokolları, həmçinin razılaşdırılmış sənədlər təsdiqləndi. COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan edilməsi barədə qətnamə qəbul olundu.

Bağlanış plenar iclasında Paris Sazişinin 6-cı maddəsi tam təsdiq edildi. Bu, yüksək inteqrasiya olunan karbon bazarları üzrə danışıqların 10 ildən sonra uğurla başa çatması demək idi. COP29 Sədrliyinin əsas prioritetlərindən biri Paris Sazişi Tərəflərin intensiv ikitərəfli texniki və siyasi danışıqları vasitəsilə, nəhayət, tam təsdiqini tapdı. Bununla da illərlə davam edən adıçəkilən strateji sənədin reallaşdırılmasına yol açıldı.

Xatırladaq ki, Paris Sazişinin 6-cı maddəsi iqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarlarının gerçəkləşdirilməsi nəzərdə tutulur. Bu transsərhəd əməkdaşlıq sayəsində ölkələrin milli iqlim planlarının həyata keçirilməsi nəticəsində xərclərin ildə 250 milyard dollara qədər azalcağı gözlənilir.

COP29 Sədrliyi Tərəfləri bu vəsaiti daha böyük iqlim ambisiyalarına yenidən investisiya yatırmağa təşviq edir. Gələn ilin fevral ayında təqdim ediləcəyi planlaşdırılan növbəti nəsil etibarlı və şəffaf karbon bazarlarının yaradılması dünyanın 1,5 dərəcə hədəfinə çatmaqda mühüm əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, iqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birinin həlli sayılan 6-cı maddə üzrə razılıq kömür zavodlarının istismardan çıxarılması, külək stansiyalarının qurulması və meşələrin salınması kimi məsələləri əhatə edir. Ekspertlərin fikrincə, bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir. Eyni zamanda, həmin maddə üzrə yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünün təmin edilməsini şərtləndirir.

Bu qərarın, real, əlavə, yoxlanıla və ölçülə bilən emissiyaların azaldılması və aradan qaldırılması vasitəsilə karbon bazarlarının şəffaflığını və dayanıqlılığını təmin etməkdə, qlobal iqlim investisiyalarına təkan vermək üçün böyük potensialı üzə çıxarmaqda önəmli rol oynayacağı gözlənilir. Ümumiyyətlə, bu istiqamətdə qəbul edilmiş təlimatlar və qaydalar karbon layihələrinin praktikliyinin və inklüzivliyinin qorunub saxlanmasını təmin etmək üçün nəzərdə tutulur. Həmin təlimatlar və qaydalar elə təşkil olunub ki, onlar karbon layihələrinin öz praktikliyinin və inklüzivliyinin qorunub saxlanmasını təmin edir, insan hüquqlarına hörmət bəsləyir və davamlı inkişafa dəstək göstərir, o cümlədən ölkələrə və layihə tərtibatçılarına Paris Sazişi çərçivəsində inamla əməkdaşlıq etmək imkanı verir.

Karbon bazarlarının fəaliyyətinə “yaşıl” işıq yandırılması COP29 bağlanış plenar iclası iştirakçıları tərəfindən yüksək dəyərləndirilib. Braziliyanın ətraf mühit naziri Marina Silva plenar iclasın birinci hissəsinin yekunlarına dair mətbuat konfransında karbon bazarlarının yaradılması istiqamətində mühüm addım atıldığını bildirib. Nazir vurğulayıb ki, Paris Sazişinin 6.2 və 6.4-cü bəndləri son dərəcə texniki və təfərrüatlıdır, həmçinin bir çox ölkələrin milli qanunvericiliyinin aspektlərini ehtiva edir. “Bu, heç vaxt sövdələşmə vasitəsi kimi görünmürdü: inkişaf etməkdə olan bir çox ölkələr də karbon bazarının yaradılmasını müdafiə edirdilər. Beləliklə, məsələ təkcə inkişaf etmiş ölkələrə aid deyildi, əksinə, xeyli sayda inkişaf etməkdə olan ölkə də bu təşəbbüsü dəstəklədi. Bu, həqiqətən uzun bir proses idi. Biz indi davamlı və ekoloji bütövlüyü gerçəkləşdirən karbon bazarı yaratmaq üçün irəliləyə bilərik, bu, bizim əsas prioritetimizdir”.

Nazir, eyni zamanda qeyd edib ki, maliyyə ilə əlaqədar öhdəliklərə sadiqlik məsuliyyəti olmalıdır. İnkişaf etməkdə olan ölkələr yoxsulluqla bağlı problemləri həll etmək üçün maliyyə mənbəyi tələb etmir. Ayrılan vəsait bu məsələyə hər nə qədər təsir göstərsə də, əsas məqsəd iqlim hadisələrinin qarşısını almaq üçündür.

***

Azərbaycanın ev sahibliyi etdiyi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) tarixin yaddaşına köçdü. Bu mötəbər iqlim tədbiri indiyədək keçirilmiş COP-ların ən uğurlusu kimi yadda qalacaq. Təkcə onu qeyd etmək kifayətdir ki, dünya dövlətləri qlobal iqlim dəyişikliklərinin mənfi təsirlərini azaltmaq üçün tələb edilən maliyyə razılaşmasına məhz Azərbaycan paytaxtında nail oldular. Belə ki, iqlim tədbirinin sonuncu günündə, noyabrın 23-də iştirakçılar karbon bazarları barədə razılaşma sənədinə imza atdılar. Bununla da, dünya ictimaiyyətinin COP29-dan ən mühüm gözləntisi gerçəkliyə çevrildi.

Məlum olduğu kimi, Paris sazişinin karbon emissiyalarının ticarəti və karbon vergilərini özündə ehtiva edən 6-cı maddəsi uzun illər idi ki, iqlimlə bağlı tədbirlərin əsas mövzusu idi. Hətta ötən il Dubayda keçirilmiş COP28 zamanı sözügedən maddənin razılaşdırılmasına böyük ümidlər bəslənilsə də, bu mümkün olmadı. Bu da qlobal iqlim dəyişiklikləri ilə mübarizəyə əlavə vəsaitin cəlb edilməsinə mane olurdu. Azərbaycan paytaxtında isə tərəflər bu sazişin 6.2, 6.4 və 6.8-ci maddələrini razılaşdırmaqla karbon bazarının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tam nəzarəti altında fəaliyyətinə yaşıl işıq yandırdılar. Xatırladaq ki, bu maddə ölkələr arasında mitiqasiya tədbirlərinin nəticələrinə dair əməkdaşlıq edilməsini nəzərdə tutur. Belə ki, dövlətlər karbon qazlarının emissiyasının azaldılması və bu qazların meşələr vasitəsilə emal edilməsi üzrə həyata keçirdikləri tədbirləri barədə bir-birinə hesabat verməli, həmçinin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrində bunu göstərməlidirlər. Yeri gəlmişkən, Dünya Bankının “2024-cü ildə karbon qiymətlərinin vəziyyəti və trendləri” adlı icmal hesabatına əsasən, beynəlxalq təcrübədə birbaşa və dolayı qiymətləndirmə mexanizmlərinin tətbiqi geniş yayılıb.

# Konfransının lider tərəfi oldu




Paris sazişinin 6.4-cü maddəsi iqlim fəaliyyətinə dair hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarlarının yaradılması, karbon kreditlərinin verilməsini nəzərdə tutur. Bakı razılaşmasından sonra dövlətlər ikitərəfli deyil, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının cəlb olunması və nəzarəti ilə əməkdaşlığı həyata keçirəcək. Yəni, artıq dövlətlər bir-birlərinə karbon kreditləri sata biləcəklər.

Bəs, karbon bazarı, və ya karbon ticarəti nə deməkdir? Hər şeydən əvvəl qeyd edək ki, son illər dünya dövlətlərinin qlobal iqlim dəyişikliyinin təsirlərini minimuma endirmək, ətraf mühiti bərpa etmək və təmiz ekoloji mühit yaratmaq üçün tam səfərbər olunduğu hazırkı şəraitdə ekoloji tarazlığın qorunması üçün müxtəlif vergilərin və mexanizmlərin tətbiqi nəzərdə tutulur. Bu baxımdan karbon ticarəti aktuallığını getdikcə artırır. Karbon emissiya ticarəti (karbon bazarı, emissiya ticarəti) karbon qazı (CO2) və digər istixana qazları üçün nəzərdə tutulmuş emissiya ticarəti sxeminin bir növüdür. Bu, karbon qiymətlərinin bir formasıdır. Onun məqsədi emissiyalar üçün məhdud ehtiyatlarla bazar yaratmaqla iqlim dəyişikliyinin mənfi təsirlərini azaltmaqdır. Belə ki, bu mexanizm çərçivəsində hər bir dövlətin illik karbon qazı emissiyası norması müəyyənləşəcək. Normadan az karbon qazı emissiya edən dövlətə istifadə etmədiyi payı normalardan artıq karbon qazı buraxan dövlətlərə satmaq imkanı yaradılacaq. Məsələn, hər hansı bir ölkə Birləşmiş Millətlər Təşkilatının müəyyən etdiyi CO2 qazı emissiyası normasını keçmirsə, o zaman həmin dövlət yerdə qalan kvotanı sata bilər. Bu kvotaları isə normadan artıq emissiya edən ölkələr əldə edə bilərlər.

Əsasən inkişaf etmiş ölkələrin daha çox karbon qazı emissiyası ilə bağlı müəyyən edilmiş normaların onları qane etməyəcəyi nəzərə alınsa, bu mexanizm inkişaf etməkdə olan və kasıb ölkələrə əlavə vəsaitin cəlb edilməsinə imkan yaradacaq. Yeri gəlmişkən, iqlim dəyişikliyinin əsas hərəkətverici amili sayılan qalıq yanacaqlar CO2 emissiyalarının 89 faizini, bütün istixana emissiyalarının isə 68 faizini təşkil edir. Ekspertlər deyirlər ki, emissiya ticarəti bütün iştirakçı emitentlər tərəfindən istehsal olunan emissiyalara ümumi limit təyin etməklə işləyir. Nəticədə, qiymət avtomatik olaraq bu hədəfə uyğunlaşır. Bu, sabit karbon vergisi ilə müqayisədə əsas üstünlükdür. Daha az emissiyaya malik olan müəssisə karbon emissiya hüququnu digər müəssisələrə satır. Yaxud bir ölkə atmosferə qazlar buraxır, digərində isə çoxlu ağac var və ağaclar karbon qazını udur. Bu zaman atmosferə qaz buraxan ölkə, meşələri olan ölkəyə pul ödəyir.

Artıq dünya ictimaiyyəti, ekoloqlar, xüsusən də COP29-un iştirakçıları Bakıda əldə olunmuş uğurları yüksək qiymətləndirilər. Məsələn, Braziliyanın ətraf mühit və iqlim naziri Marina Silva COP29-un bağlanış plenar iclasının birinci hissəsinin nəticələrinə həsr olunmuş mətbuat konfransında bildirib ki, Bakı iqlim konfransında karbon bazarlarının yaradılması istiqamətində mühüm addım atıldı. Karbon bazarının yaradılmasının ekoloji bütövlüyün təmin edilməsi üçün prioritet olduğunu vurğulayan nazirin sözlərinə görə, maliyyə ilə əlaqədar öhdəliklərə sadiqlik məsuliyyəti olmalıdır.

Nazir deyib ki, ayrılan vəsait bu məsələyə hər nə qədər təsir göstərsə də, əsas məqsəd iqlim hadisələrinin qarşısını almaq üçündür: “Karbon bazarının yaradılmasını təkcə inkişaf etmiş deyil, həm də bir çox inkişaf etməkdə olan ölkələr dəstəkləyib. Beləliklə, bu təşəbbüs çoxsaylı ölkələr üçün ümumi vəzifəyə çevrilib. Müzakirə prosesi doqquz il davam edib - bu, həqiqətən uzun və çətin yol olub. Layihənin qəbulundan sonra səslənən alqışlar bütün iştirakçıların bu mərhələni başa çatdırmağa can atdığını aydın göstərdi. İndi biz irəli gedə, davamlı və ekoloji dayanıqlığı təmin edəcək karbon bazarı yarada bilərik. Bu, bizim əsas prioritetimiz olaraq qalır”.

## İtki və Zərər Fondunun fəaliyyətə başlamasını təmin edən tarixi qərar

Sözükeçən gərgin gecədə inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi bir məsələdə həllini tapdı–İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını gerçəkləşdirən tarixi qərar qəbul olundu. Əslində, bu, Prezident İlham Əliyevin iqlim dəyişmələrinin fəsadlarının kiçik ada ölkələrinə törətdiyi çətinliklərin həlli məsələsinin COP29 Sədrliyinin prioriteti kimi müəyyən edilməsinə uyğunlaşdırılması idi.

Xatırladaq ki, İtki və Zərər Fondunun yaradılması Misirdə keçirilmiş COP27 zamanı qərara alınıb. Əsas məqsəd isə bu maliyyə qurumunun iqlim dəyişmələrinin təsirlərinə ən həssas ölkələrə maliyyə yardımı göstərmək olub. Birləşmiş Ərəb Əmirliklərində keçirilmiş COP28 zamanı Fondun fəaliyyətə başlaması ilə bağlı qərar qəbul olunub. COP29 Sədrliyi tərəfindən isə İtki və Zərər Fondunun fəaliyyətinin gerçəkləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, bu istiqamətdə İdarə Heyəti və Dünya Bankı ilə sıx əməkdaşlığa başlanılıb.

Cari ilin sentyabrında İtki və Zərər Fondu İdarə Heyətinin Bakıda keçirilmiş 3-cü iclası zamanı adıçəkilən qurumun fəaliyyətə başlaması üçün vacib tədbirlər görülüb, Fondun icraçı direktoru təyin edilib. COP29 çərçivəsində isə İtki və Zərər Fondu ilə bağlı bir sıra mühüm sazişlər imzalanıb. Bunlar Fondun İdarə Heyəti ilə Dünya Bankı arasında “Qəyyumluq Sazişi” və “Katibliyin Ev Sahibliyi Sazişi”, eləcə də fondun İdarə Heyəti ilə ev sahibi ölkə olan Filippin Respublikası arasında imzalanmış “Ev Sahibi Ölkəyə dair Saziş”-dir. Hazırda fonda vəd edilən ümumi maliyyə dəstəyinin məbləği 730 milyon ABŞ dollarından artıqdır. Əldə edilən bu nailiyyətlərlə İtki və Zərər Fondu 2025-ci ildən etibarən layihələri maliyyələşdirə biləcək. Bu, Azərbaycanın COP29 Sədrliyinin növbəti uğurudur.

Çoxtərəfli İnkişaf Bankları (MDB-lər) 2030-cu ilə qədər iqlim tədbirlərinə illik 170 milyard ABŞ dolları töhfə verməyi, bunun 120 milyard ABŞ dollarının aşağı və orta gəlirli ölkələrə yönəldiləcəyini açıqlayıblar.

İtki və Zərər Fondunun 2025-ci ilə qədər maliyyə ayırmağa hazır olmasını təmin edərək, töhfə verən tərəflərin razılaşmalarını və vədlərini əldə edib, həmçinin Filippinlə ev sahibi ölkə müqaviləsinin imzalanması və Dünya Bankı ilə ev sahibi və qəyyumluq müqavilələri imzalanması təmin edilib.

## İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması gerçəkləşib

Bağlanış plenar iclasında Paris Sazişinin 13-cü maddəsinə uyğun olaraq İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması, eləcə də bununla əlaqədar inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki dəstəyin göstərilməsinə dair qərar qəbul olunub. Qərar Paris Sazişinin 13-cü maddəsi ilə yaradılan Zənginləşdirilmiş Şəffaflıq Çərçivəsinin həyata keçirilməsi, o cümlədən inkişaf etməkdə olan ölkələr tərəfindən İkiillik Şəffaflıq Hesabatlarının hazırlanmasına maliyyə və texniki dəstəyin göstərilməsi nəzərdə tutulub. Sənəddə COP29 Sədrliyinin təşəbbüsü olan Bakı Qlobal İqlim Şəffaflığı Platforması da yer alıb.

Həmin qərarda COP29 Sədrliyinin iqlim şəffaflığı sahəsində həyata keçirdiyi tədbirlər, o cümlədən iqlim şəffaflığına həsr olunmuş bir sıra forumlar və qabiliyyət quruculuğu təlimlərinin təşkili, COP29-un iqlim şəffaflığı sahəsində əsas irsi olan Bakı Qlobal İqlim Şəffaflığı Platformasının yaradılması tərəf dövlətləri tərəfindən alqışlanıb.

## İqlim sammitində Yeni Kollektiv Kəmiyyət Hədəfi

Plenar iclasın davamında yeni iqlim hədəfi qəbul olunub. Belə ki, COP29-un əsas prioriteti olan iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi qəbul olunub.

Sənədə əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək, ən azı, 300 milyard ABŞ dollarına çatdırılması təmin ediləcək. Bu vəsait dövlət, özəl, habelə çoxtərəfli mənbələr daxil olmaqla bütün mümkün mənbələr hesabına təmin olunacaq. Sənəd inkişaf etməkdə olan ölkələri könüllülük prinsipi əsasında iqlim maliyyəsinə töhfə verməyə çağırır.

Yeri gəlmişkən, bağlanış plenar iclasında Azərbaycanın COP29 Sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi razılaşmasını elan edib. BMT-nin İqlim Sammiti üçün COP29 Sədrliyinin əsas prioriteti üzrə əldə olunan uğur əvvəlki 100 milyard ABŞ dolları həcmində iqlim maliyyəsi hədəfindən əhəmiyyətli dərəcədə artım deməkdir və qlobal investisiyaların yeni dalğasına təkan verəcəkdir.

Bakı Maliyyə Məqsədi inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il ən azı 300 milyard dollar vəsaitin səfərbər olunmasına liderlik etmək üçün inkişaf etmiş ölkələrin əsas hədəfini özündə ehtiva edir. Bu, COP29 Sədrliyi tərəfindən 48 saatlıq intensiv diplomatik fəaliyyətin nəticəsidir. Burada az inkişaf etmiş ölkələri və inkişaf etməkdə olan kiçik ada dövlətlərini dəstəkləməyə xüsusi diqqət yetirilir. Bu sənəddə əlçatanlıq və şəffaflıq haqqında müddəalar da əksini tapıb.

Bu irəliləyişlər çoxtərəfli iqlim fəaliyyətində ən mürəkkəb və mübahisəli vəzifələri yerinə yetirmək üçün Azərbaycan Sədrliyinin aylarla davam edən intensiv diplomatiyasının məntiqi nəticəsidir. Bu qərarlar 1,5C məqsədinə çatmaq üçün vasitələrin təmin edilməsində xüsusi əhəmiyyətə malik addımlardır. COP29-un prezidenti Muxtar Babayevin sözlərinə görə, bütün dünya Bakıya gələndə bir çox insanlar Azərbaycanın bütün bunlara nail ola biləcəyinə şübhə ilə yanaşırdılar. Onlar tərəflərin razılığa gələ biləcəklərinə inanmırdılar. Hər iki məsələdə yanılma isə artıq hər kəsə bəllidir.

COP29-un prezidenti daha sonra deyib: “Bu uğurla Bakı Maliyyə Məqsədi növbəti onillikdə milyardları trilyonlara çevirəcək. Biz inkişaf etməkdə olan ölkələr üçün əsas illik iqlim maliyyəsi hədəfinin 3 dəfə artırılmasını təmin etdik. Bakı Maliyyə Məqsədi əldə edə biləcəyimiz ən yaxşı razılaşmadır və biz bunun üçün donor ölkələri maksimum dərəcədə təşviq etmişik. Biz qlobal maliyyə strukturunu həmişəlik dəyişmişik və 1,5C-yə çatmaq yolunda bütün vasitələri çatdırmaq üçün əhəmiyyətli bir addım atmışıq”.

***

Bağlanış plenar iclasında yuxarıda sadlanan qərarlarla yanaşı, “Gender və iqlim dəyişikliyi”, “Uyğunlaşmaya dair qlobal hədəf”, “Şarm əl-Şeyx yumşaltma ambisiyaları və icra iş proqramı” da daxil olmaqla bir sıra digər sənədlər də təsdiqlənib.

Sonra çıxış edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil COP29-da önəmli qərarların qəbul olunduğunu, bununla belə qarşıda xeyli görülməli işlərin dayandığını diqqətə çatdırıb. O, COP29-da iqlim maliyyə hədəfinin 3 dəfə artırılması barədə razılığın əldə edildiyini, bunun iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalanlara dəstək üçün önəmli olduğunu deyib. Saymon Stil təxminən 10 il davam edən çətin fəaliyyətdən sonra COP29-da qlobal karbon bazarı barədə razılığın əldə olunmasını yüksək qiymətləndirib.

COP29 Prezidenti Muxtar Babayev Azərbaycan Prezidenti İlham Əliyevə tədbirin yüksək səviyyədə təşkilinə verdiyi dəstəyə görə minnətdarlığını bildirib. O, BMT-nin rəhbərliyinin və müvafiq qurumlarının, Azərbaycanın dövlət orqanlarının, COP29 Əməliyyat Şirkətinin, könüllülərin fəaliyyətini vurğulayıb.

***

Qeyd edək ki, Azərbaycanın COP29-a ev sahibliyi etməsi ilə bağlı qərar COP28-in 2023-cü ilin dekabrın 11-də keçirilən plenar iclasında verilib. Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası noyabrın 11-də başlayıb. COP29 Sədrliyi Fəaliyyət Gündəliyi çərçivəsində qlobal təşəbbüsləri elan edib. Sədrlik tərəfindən irəli sürülən təşəbbüslərin məqsədi iqlim fəaliyyətini irəlilətmək, tərəf olmayan maraqlı tərəflərin fəal iştirakını təşviq etmək və iqlim dəyişmələri ilə bağlı ambisiyaları artırmaq və fəaliyyətə təkan verməkdir.

Tədbirin ilk günü COP29-un rəsmi açılış mərasimi olub. Sonra dünya liderlərinin İqlim Fəaliyyətinin Təqdimatı baş tutub. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyanın tərəf dövlətlərindən 80-ə yaxın dövlət və hökumət başçısı COP29 çərçivəsində Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin yüksək səviyyəli seqmentində rəsmi bəyanatlarla çıxış edib. Noyabrın 13-də dövlət və hökumət başçılarının çıxışları davam edib.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransı 1995-ci ildən hər il keçirilir. Tədbirin keçirilməsində əsas məqsəd dünyada iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişləri qiymətləndirməkdir. 1990-cı illərin ortalarından başlayaraq konfrans çərçivəsində inkişaf etmiş ölkələrdə istixana qazlarının atmosferə tullantılarının məhdudlaşdırılması ilə bağlı icbari hüquqi öhdəlikləri ehtiva edən Kioto Protokolu müzakirə olunmuşdu. 2011–2015-ci illərdə keçirilən sessiyalarda iqlim dəyişikliyi ilə mübarizədə ən əhəmiyyətli beynəlxalq sənəd hesab olunan Paris Sazişi müzakirə edilib və 2015-ci ildə qəbul olunub. Razılaşmaya bu günədək 195 ölkə, o cümlədən Azərbaycan da qoşulub.

***

## İqlim savaşı qeyri-neft sektorunun “yaşıl” iqtisadiyyata transformasiyasını sürətləndirəcək

İqtisadçı-ekspert Rəşad Həsənovun sözlərinə görə, dünyada hər bir ölkə və icma artıq iqlim dəyişikliyinin mənfi təsirlərini hiss etməyə başlayıb. Azərbaycan da onun fəsadlarından təsirlənən dövlətlər sırasındadır. Quraqlıq, Xəzər dənizi suyunun azalması ölkənin gələcəyi baxımından ciddi təhlükələr yaradır. COP29 tədbiri çərçivəsində bu məsələnin ictimaiyyətdə daha aktual şəkildə gündəmə gətirilməsi müəyyən mənada icma davranışlarına öz töhfəsini verəcək.

İqtisadçı-ekspert, eyni zamanda, Azərbaycanda keçirilən COP29 müzakirələrinin və hökumət tərəfindən gələcəkdə atılması planlaşdırılan tədbirlərin yerli vətəndaşları ətraf mühitə qarşı həssas və məsuliyyətli yanaşmaya təhrik edəcəyini deyib: “Bu gün dünyada yeni enerji keçidi və ya digər adla yaşıl energetikaya keçid bütün sahələrdə özünü göstərir. COP29 konfransı yerli əhalinin bəşəriyyətin gələcəyi ilə bağlı məlumatlandırılması baxımından vacibdir. Bu proses şüur inkişafının növbəti mərhələsidir və qlobal iqlim dəyişikliyi, eləcə də temperatur artımı ilə bağlı üzləşdiyimiz problemin həlli üçün insanlar ətraf mühitə və çevrəsinə, o cümlədən birgə yaşadığı ekosistemə qarşı həssas və məsuliyyətli davranmaq məcburiyyətindədir”.

Onun sözlərinə görə, vətəndaşların maarifləndirilməsi istiqamətində “ekologiya və iqlim dostu” siyasəti yürüdülməlidir. Düşünürəm ki, ekologiyaya həssas icmaların yaradılması istiqamətində təhsilin ilkin pillələrindən – bağçadan başlayaraq vətəndaşların “ekologiya və iqlim dostu” siyasətini yürüdə biləcək mövzularla davamlı maarifləndirilmə işləri aparılmalıdır. Eyni zamanda, ictimai birliklərin, biznesin, hökumətin və medianın birlikdə aparmalı olduğu uzunmüddətli proses nəticəsində Azərbaycan ciddi nəticələr əldə edə bilər.

İqtisadçı-ekspert bildirib ki, dayanıqlı maliyyə vasitələri emissiyasının yaradılması və bunun biznesə təqdimi ilə bağlı yaxın perspektivdə gözləntilər var. Hazırda Mərkəzi Bank tərəfindən taksonomiya sənədinin imzalanması istiqamətində işlər gedir. Bu gözləntilər qısa müddətdə reallaşacaq və səmərəli bir mexanizm ortaya qoymaqla biznesin dayanıqlı keçidini şərtləndirən layihələrin icrasını həyata keçirmək mümkün olacaq. Bununla yanaşı, mikro biznesin “yaşıl” transformasiyasını gerçəkləşdirmək də diqqətdə saxlanılacaq. Çünki təbii ehtiyatların səmərəli istifadə edilməsi, “yaşıl” zonaların salınması və qorunması, suyun təkrar istifadəsi, bərpaolunan enerjiyə keçid, dairəvi-iqtisadi modelin tətbiqi effektiv maliyyə dəstəyi nəticəsində gerçəkləşəcək.

Rəşad Həsənov əlavə edib ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması prosesinə start verildiyini nəzərə alsaq, COP29 şəhərsalmada yeni və müasir baxışların tətbiq olunması üçün ciddi imkanlar da formalaşdıracaq.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**EKSPERT RƏYİ**

**İlham ŞABAN,**
**enerji məsələləri üzrə ekspert**



Azərbaycan COP29 kimi beynəlxalq konfransa uğurla ev sahibliyi etdiyi kimi planetimizi təhdid edən iqlim dəyişiklikləri ilə mübarizə yolunda da mühüm qərarların qəbuluna nail oldu. Beləliklə də, ölkəmizdə keçirilən bu mühüm iqlim tədbirinə şübhə ilə yanaşanlara, onun əhəmiyyətini heçə endirməyə cəhd edənlərə, bir növ, tutarlı cavab verildi.

COP29 aydın şəkildə göstərdi ki, varlılar üçün təbiətin problemi önəm daşımır, onlar son anadək varlanmaq, daha çox qazanc əldə etmək haqqında düşünmək zorundadırlar. Yeri gəlmişkən, 2000-ci ildə deyirdilər ki, tezliklə dünya enerji balansında qaz kömürü üstələyəcək və ikinci yerdə qərarlaşacaq. Amma gözləntilərin əksi olaraq 2023-cü ildə enerji balansında kömürün xüsusi çəkisi 26,5 faizədək artıb. Belə ki, il ərzində dünyada 8,2 milyard ton kömür istehsal edilib. Xüsusən də Almaniya kömürdən istehsal edilən elektrik enerjisinin payını artırıb.

Təbii qazın enerji balansındakı xüsusi çəkisində isə Rusiyada hasilatın azalması və Avropada qaz istehlakının 100 milyard kubmetr aşağı düşməsi nəticəsində 23,3 faizədək geriləmə müşahidə olunub. Bunun fonunda isə külək və günəş enerjisinin istehsalında artım qeydə alınıb. Düzdür, bərpaolunan bu enerjinin qlobal miqyasda istehlakı, hələlik, 7 faiz təşkil edir.

Bəs, görəsən, Qərbin COP29-un keçirildiyi günlərdə Azərbaycanı, guya, qaz hasilatını 2030-a qədər 2 dəfə artıracağı ilə bağlı ittihamı nəyə köklənib? Təbii ki, təbiətin qorunmasına deyil. Amma COP29-da onu da gördülər ki, artıq onların dünya ilə əvvəlki qaydalarla davranışları da yetərli deyil.

Elə Azərbaycanın COP29 Sədrliyinin inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi razılaşmasını elan edilməsi də bunu təsdiq edir. Məlum olduğu kimi, Bakı Maliyyə Məqsədi inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il ən azı 300 milyard dollar vəsaitin səfərbər olunmasına liderlik etmək üçün inkişaf etmiş ölkələrin əsas hədəfini özündə ehtiva edir. Bundan əlavə, COP29-da BMT çərçivəsində yüksək inteqrasiya edilmiş karbon bazarlarına dair 6-cı maddə üzrə bütün məsələlərə tam aydınlıq gətirildi.

Dünya şöhrətli irsimiz

# Sazlı, sözlü kəlağayı günləri

**Məlum olduğu kimi, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayısı "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Bu gün həmin tarixi hadisənin 10 illik yubileyidir. İl ərzində "Sazlı, sözlü kəlağayı günləri" layihəsi çərçivəsində festivallar, konsertlər, sərgilər təşkil olunub.**



Kəlağayı gözəllik, ismət, həya simvolu sayılan qadın baş örtüyüdür. Təbriz, Ərdəbil, Gəncə, Şamaxı, Şəki, Naxçıvan şəhərlərində, İsmayıllının qədim Basqal kəndində yüz illərdən üzübəri bu tip gözəl ipək örpəklər hazırlanıb. 10 il əvvəl isə Heydər Əliyev Fondunun rəhbəri, Birinci vitse-prezident Mehriban Əliyevanın xidmətləri sayəsində Azərbaycan kəlağayısı UNESCO-da lazımi dəyərini alıb. Beləliklə, göz-könül oxşayan bu baş örtüyü xalqımıza məxsus milli-mənəvi irs nümunəsi kimi beynəlxalq səviyyədə təsdiqlənib.

"Kəlağayı muzeyi"nin sahibi, "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyin sədri, şair-publisist Güllü Eldar Tomarlı Ərzincan səfərində, Uluslararası Türk Dünyası Simpoziumunda 40-dan çox Türk dövlətinin nümayəndələrinə Azərbaycan xalqının qədim baş örtüyü, onun istifadə qaydası, sosial məzmunu haqqında informasiya verib və onlar da xalqımızın dünyagörüşünə, mənəvi dəyərlərinin dərinliyinə, kəlağayının hikmətinə heyran qalıblar. Güllü xanım "XQ"-yə müsahibəsində bildirib ki, yubiley münasibətilə ilin əvvəlindən paytaxtın elm və təhsil ocaqlarında, Naxçıvanda, bölgələrdə, o cümlədən mədəniyyət beşiyi Şuşada, hətta qonşu Gürcüstanda – Tbilisi, Rustavi və Marneulidə yaddaqalan mərasimlər keçirilib.

Qədim İpək yolu ab-havası ilə nəfəs alan, kəlağayı məskəni olan Basqalda hər evdə bu sənətlə məşğul olunub. Əsrimizin əvvəllərində burada ayrıca fabrik də işə salınıb və yeni nəsil dizaynerlərin sayəsində qədim baş örtüyü sanki 2-ci həyatını yaşamağa başlayıb. Ünlü modelyer Fəxriyyə Xələfova dəfələrlə öz geyim kolleksiyasında kəlağayıdan istifadə edib. Bir neçə il əvvəl Avropa Azərbaycan Cəmiyyəti tərəfindən Parisdə azərbaycanlı dizayner Mənzər Hacıyevanın "Kəlağayı" butiki təşkil olunub.

Azərbaycan ipəkçiliyinin kələğayı istehsalı ilə birbaşa bağlı olduğunu söyləyən psixoloq Rəna İbrahimbəyova çıxışlarında, kələğayının insan həyatını təsvir etdiyini vurğulayıb: "Kələğayının üzərindəki naxışlar kainatın və dünyanın quruluşunu təsvir edir. Örpəyin kənarındakı haşiyə dağ anlamındadır, bu, insanları qoruyur. Ortadakı haşiyə isə o biri dünyanı təsvir edir və naxışlardan göründüyü kimi, o dünya indikindən daha rəngli və mürəkkəbdir".

Bakıda, Güllü xanımın ev şəraitində yaratdığı "Kəlağayı muzeyi"nə gələnlərin sayı da bu il artıb. Burada Şərq motivləri əsasında basma üsulu ilə bəzənib haşiyələnən, naxışları – baxışları adamı sehirləyən ipək kəlağayılardan göz çəkmək olmur. Bu gün "sehirli" baş örtüyünün dünyaca şöhrət qazanması fərəh doğurur. "Günəş", "Səmayi-şəms", "Haşiyə", "Şax", "Buta", "Mədahil", "Xarıbülbül", "Heyratı", "Xətayi", "Kəpənək", "Çobanyastığı", "Çiyələk" və "Aypara" naxışlar daha məşhurdur. "Şah buta", "Saya buta", "Xırda buta" çeşnili, "Heyratı", "Soğanı", "İstiotu ", "Albuxarı", "Abi", "Yeləni" adlı örtüklər sənət nümunələri kimi sərgilərdə, yarmarkalarda həmişə göz oxşayıb. Azərbaycana qonaq gələn əcnəbiləri "Bəstə-nigar", "Gəlinlik", "Qızılı", "Mixəyi", "Noxudu", "Yaşıl-qara", "Zeytun", "Bənövşəyi", "Ağzəmin-zanbağı", "Ağzəmin-qızılı" kəlağayılar daha çox cəlb edir.

Onu da deyək ki, ayrı-ayrı soydaşlarımız muzeyə nənələrinin yadigarı olan kəlağayıları həvəslə, təmənnasız olaraq bağışlayırlar. Nəsillikcə kəlağayı sənətinə könül verən Mürşüd Talıbovun əl işləri də maraq doğurur. Bunlar klassiklərimizin portretləri ilə bəzədilmiş kəlağayı nümunələridir. Kəlağayıya həsr olunan rəsmlərdən Səttar Bəhlulzadənin 1973-cü ildə çəkdiyi "Kəlağayı ilə natürmort"u qeyd etmək olar. Rəssamlar Gülnarə Məmmədova, Natiq Nəcəfzadə, Sehran Allahverdi də kəlağayı mövzusunda gözəl əsərlər yaradıblar.

"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyi "Azərbaycan kəlağayısı – min illərin yadigarı" adlı kitab da çap etdirib. Topluda Aşıq Ələsgərdən üzübəri bu misilsiz baş örtüyünü şairlərin sevə-sevə vəsf etdiyi şeirlər verilib:



*Gözəl, sənin nə vədəndi,*
*Kəsilib qısa tellərin?*
*Kəlağayı əlvan, qıyqacı*
*Üstündən basa tellərin...*

Bu gün Kəlağayı Günü ilə əlaqədar olaraq Bakının Suraxanı rayonunda, Qurban Abbasov adına Mədəniyyət Sarayında "Sazlı-sözlü kəlağayı" bayramı keçiriləcək. İçərişəhərdə – Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində isə "Kəlağayı" Basqal İpək Mərkəzi ilə birgə yubileyə həsr olunan gecə təşkil olunacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

Təqdimat

# Rəşad Məcid: Sözün portreti

**Azərbaycan Mətbuat Şurasının sədri, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru, yazıçı-publisist Rəşad Məcidin 60 illik yubileyi ilə əlaqədar "Qələmli və qələmsiz" Rəşad Məcid portreti" kitabı işıq üzü görüb. Dünya Gənc Türk Yazarlar Birliyinin təşkilatçılığı ilə Gəncliyə Yardım Fondunun konfrans zalında kitabın təqdimat mərasimi keçirildi.**




Tanınmış ictimaiyyət nümayəndələri, Milli Məclisin üzvləri və mətbuat nümayəndələrinin də iştirak etdiyi tədbirin aparıcısı, gənc yazar Ayşən Rəhim kitab haqqında məlumat verərək bildirdi ki, kitabın müəllifləri Dünya Gənc Türk Yazarlar Birliyinin sədr müavini, AYB Gənclər Şurasının katibi, yazıçı Şahanə Müşfiq və birliyin idarə heyətinin üzvü, yazıçı Şəfa Vəlidir.

"Xan" nəşriyyatının dəstəyilə çap olunmuş kitabda Rəşad Məcidin yaradıcılığı və şəxsiyyəti haqda onun ailəsi, dostları, müəllimləri, iş yoldaşlarının ürək sözləri, eləcə də müəlliflərin məqalələri vasitəsi ilə dolğun məlumatlar yer alıb. Bir insan ziyasının ömürlərə işıq salacağı həqiqətinin anladılması nəşrin əsas qayələrindəndir.

Mərasimdə Xalq şairi Sabir Rüstəmxanlı, Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin kafedra müdirləri, professorlar Cahangir Məmmədli və Qulu Məhərrəmli, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, Əməkdar incəsənət xadimi, professor Əli Əmirli, deputat, politoloq Elçin Mirzəbəyli, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin eksperti, şair Əkbər Qoşalı, "Hədəf" Şirkətlər qrupunun qurucusu, filologiya üzrə fəlsəfə doktoru Şəmil Sadiq, "525-ci qəzet"in baş redaktor müavini Seyfəddin Hüseynli, "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin sədri Arzu Bağırova və Şahanə Müşfiq çıxış edərək Rəşad Məcid yaradıcılığı və şəxsiyyəti haqqındakı yüksək fikirlərini dilə gətirib, onu yubileyi, müəllifləri isə yeni kitabın nəşri münasibəti ilə təbrik etdilər.

Şair, publisist Rəşad Məcid bu kitabı onun yubileyinə olan gözəl hədiyyə kimi dəyərləndirdi, müəlliflərə, nəşrin çapında əməyi olan hər kəsə və tədbir iştirakçılarına təşəkkürünü bildirdi. Sonda şair İlqar Türkoğlu Çukurova Ədəbiyyatçılar dərnəyinin təsis etdiyi "Atatürk" medalını, İntiqam Yaşar isə DGTYB-nin yubiley medalını Rəşad Məcidə təqdim etdi.

Bədii qiraətçi Müşfiqə Baləddin Rəşad Məcidin "Çiyələk qadın" şeirini səsləndirdi.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Çinli alimlər Türk Akademiyasında

**Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev Çin Xalq Respublikasının Qazaxıstan Respublikasındakı səfirliyinin nümayəndələri ilə görüşüb. Çin nümayəndə heyətinə İnformasiya və İctimai Diplomatiya Departamentinin rəhbəri Li Quanqzuo və Səfirliyin 3-cü katibi Tan Lu daxildir.**



Görüşdə Şahin Mustafayev Akademiyanın əsas fəaliyyət istiqamətləri barədə qonaqlara məlumat verib, qurumun türk xalqlarının tarixi, mədəniyyəti və dillərinin öyrənilməsinə yönəlmiş davamlı elmi layihələrini diqqətə çatdırıb.

Çin Xalq Respublikası səfirliyinin nümayəndələri çinli alimlərin Türk Akademiyası, eləcə də təşkilata üzv olan ölkələrin akademik dairələri ilə əlaqələr qurmaqda maraqlı olduqlarını vurğulayıblar.

***XQ***

XQ təqdim edir

# "Uçdu "Bayraqdar"lar aydın səmada..."

**...İkinci Dünya müharibəsində əsgərləri qələbəyə səsləyən Səməd Vurğunun "Bayraqdar" şeiri o vaxt "Kommunist" adlanan bizim qəzetin 1943-cü il 12 oktyabr tarixli sayında dərc olunub. Bu əsər Rusiyanın Oryol şəhərinin düşməndən təmizlənməsində qəhrəmanlıq göstərmiş, şəhərin ən yüksək zirvəsinə bayraq sancmış azərbaycanlı Hüseyn Əjdərova həsr edilmişdi:**




*O igidin tunc sinəsi*
*Bir Koroğlu qalasıdır.*
*Mehribandır onun səsi,*
*Azərbaycan balasıdır...*

İndi sənət aləmində başqa "Bayraqdar"lar cövlan edir. Xatırlayırıq ki, inişil "YouTube"platformasında Ukraynanın "Svyatovid" folklor qrupunun ifasında "Bayraqdar" mahnısı yayılmışdı. Bu, Türkiyənin pilotsuz uçuş aparatına aid populyar ifa idi. İki həftə əvvəl – Qarabağ zəfərinin ildönümündə isə Nərminə Məmmədbəylinin rus dilində yazdığı "Bayraqdar" şeiri Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktyoru Yaroslav Trifonovun qiraətində həmin kanala qoyulub və tar musiqisinin sədaları ilə həmahəng verilən ifanı bir neçə gündə on minlərlə adam bəyənib. "Budrooo News" platformasının paylaşdığı təsvirlərin üstündə "Qarabağ Azərbaycandır!" şüarı yazılıb, yarımbaşlıq isə belədir: "Rus aktyor Azərbaycanı Qələbə Günü münasibətilə təbrik edir – Şəhidlər ölməz, Vətən bölünməz".

Yaroslav Trifonovu dinlədikcə yadıma Xalq artistimiz Vera Şirye düşür. İki aydan sonra 110 yaşını qeyd edəcəyimiz Vera Şirye İkinci Dünya müharibəsində rəşadətli əməyinə görə "Qırmızı ulduz" ordeni və medallara layiq görülüb. Sonrakı dövrdə "Xalqlar dostluğu" və "İstiqlal" ordenləri ilə təltif olunan aktrisa Süleyman Rüstəmin "Ana və poçtalyon" şeirini Azərbaycan dilində elə ürəkdən və təsirli oxuyub ki, əsərin məşhurlaşmasında şair qədər rol oynayıb. Fərəhli haldır ki, onun çalışmış olduğu Azərbaycan Dövlət Rus Dram Teatrının aktyoru Yaroslav Trifonov indi ənənəni davam etdirməklə, "Bayraqdar" şeirini özünəməxsus tərzdə ifa edib.

**Şeirin müəllifi Nərminə Məmmədbəylinin dedikləri:**

– Hər bir Azərbaycan döyüşçüsünün rəşadəti önündə baş əyirəm. Biz çətin yollar keçərək, Böyük Zəfərə nail olmuşuq. Bu barədə yazdığım şeirin əla təqdimatına görə isə Yaroslava minnətdaram.

Şeiri sosial şəbəkədə trend edən aktyor teatrda çalışdığı 20 ildə canlandırdığı bir sıra parlaq obrazlarla sənətsevərlərin rəğbətini qazanıb. Bir neçə gün əvvəl isə aktyor Yaroslav Trifonov Bakıda keçirilən COP29-a töhfə olaraq, dostu Emil Hüseynovla təbiətə sevgi mövzusunda gözəl bir videosüjet hazırlayıb. Onun iştirakı ilə "COP29. Nobellər Evi" immersiv şousu da maraqla qarşılanıb. O ərəfədə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın baş prodüsseri olduğu "Tağıyev: Neft" adlı epik kino-trilogiyasında Lyudvid Nobel obrazını canlandırıb. Yeri gəlmişkən, indiyədək o, "Hökmdarın taleyi","Qorxma, mən səninləyəm", "Ən sadə soyad", "Mən evə qayıdıram", "Barama" (serial), "Qarabağ" filmlərində yaddaqalan rollar ifa edib. Neçə-neçə hərbçi obrazını məharətlə yaradıb.

**Bizimlə söhbətində Yaroslav Trifonov bildirdi ki, 1982-ci ildə Qroznı şəhərində doğulub, onun 4 yaşı olanda ailəsi ilə atasının Vətəninə – Bakıya köçüb.**

– Uşaqlığım Badamdarda keçib. Hövsan və Zabratda da yaşamışam. Mən Bakının rus azərbaycanlısıyam. Siz çox humanist və xeyirxah millətsiniz. Hər xalqa hörmətla yanaşırsınız. Biz bir ailə kimiyik. Burada camaat "öz" və "özgə"yə bölünmür. Atam bu teatrda aktyor, anam isə qrimçi olub. Mən də 16 yaşımdan səhnədəyəm. Pandemiya vaxtı sənət ocaqları bağlananda "Bir aktyorun teatrı" stilində çalışmış, məşhur müəlliflərin şeirlərini səsləndirmişəm.

– Bəs, müharibə, Qarabağ ağrısı?

– Bu, mən də daxil, hər bir azərbaycanlıya aid məsələdir. Mən 6 il əvvəl "Qarşıdurma" adlı vətənpərvərlik filmində Moskvada toyda qardaşı öldürülmüş gəncəli Vadim roluna çəkilmişəm. Özü də digər filmlərdən fərqli olaraq, yaxşı rus zabitini canlandırmışam. O kinoda bədii çəkilişlərlə bərabər, Qarabağa aid sənədli xronika da var. Bilirsiniz, Qarabağ sevgisi yalnız azərbaycanlılara aid deyil, buradakı ruslara, ləzgilərə, talışlara, yəhudilərə də aid müqəddəs duyğudur. Həm I, həm də II Qarabağ müharibəsində özünü azərbaycanlı sayan xalqların oğulları da işğalçılara qarşı qeyrətlə vuruşublar. Bu şeirin də mayası elə Vətən sevgisindən yoğrulub.

Yaroslav Trifonovun trend etdiyi şeiri rus dilindən azərbaycancaya çevirərək, oxuculara təqdim edirik.

**P.S:** Onu da deyək ki, Yaroslav Trifonov Vətən müharibəsində şanlı Qələbəmizin 4-cü ildönümü ərəfəsində Bakıda keçirilən "Zəfərimiz – Şərəfimiz" bədii qiraət müsabiqəsində qalib gələrək, Mədəniyyət Nazirliyi və Teatr Xadimləri İttifaqının diplomunu alıb.

***Ə.ƏLİYEV***
***XQ***

## Байрактар

*Целый месяц ракетного звона,*
*Не обняться не как с тишиной.*
*Снова бьёт пулемет из заслона -*
*В мире это зовётся войной.*

*В небе ясном кружат Байрактары,*
*истребляя врагов на нет.*
*Не дарили мы земли в подарок,*
*Боль Шуши в нас, жили тридцать лет.*

*Тридцать лет не много-не мало,*
*Мы в кольцо окружали врага.*
*Знали родина наша устала*
*От армянского сапога.*

*Это вы, молодые ребята,*
*Как один присягнули стране.*
*30 лет наступил день расплаты*
*Снова наш Карабах в огне.*

*Целых сорок четыре мгновенья*
*Дни и ночи без сна напролет.*
*И в победе у нас нет сомнения*
*Эту веру Ильхам нам даёт.*

*Джабраил Зангилан услышал*
*Скрежет танков средь бела дня*
*Прочь враги прячьтесь в норы как мыши*
*Флаг страны наш солдат поднял.*

*Физули, Губадлы проснулись,*
*Вновь к молитве взывает азан.*
*Мы в Шушу в Карабах вернулись,*
*Тридцать лет нас ждала Натаван.*

*И в Агдам, там где камень на камень*
*не оставил проклятый наш враг.*
*В город призрак вошли мы сами,*
*Водрузив свой трёх цветный флаг.*

*Пядь земли это высшая мера,*
*Муровдаг, Кяльбаджар Агдам.*
*Мы Лачин и Шушу не простили,*
*Путь Гейдара продолжил Ильхам.*

## Bayraqdar

*Bütöv bir aydır ki, raket səsləri,*
*Lərzəyə gətirib torpağı, daşı.*
*Pulemyot susmursa səhərdən bəri,*
*Deməli, başlayıb Vətən savaşı.*

*Uçdu "Bayraqdar"lar aydın səmada,*
*Düşməni bir anda çıxardı heçə.*
*Torpaqdan pay vermək olmaz nəbadə,*
*Otuz il Şuşasız dözmüşük necə?*

*Otuz il bir igid ömrü qədərdir,*
*Gəldi səbrimizin daşdığı zaman.*
*Düşmən çəkməsindən düşən izlərdir*
*Dedik, bu torpağın köksünü yaran.*

*Ey cavan oğlanlar, ayağa qalxıb,*
*Vətən namusuna siz and içdiniz.*
*Qorxunu, hürkünü qoymayıb yaxın,*
*Doğma Qarabağda candan keçdiniz.*

*Qırx dörd gün odlara bələndi hər yan,*
*Çarpışdıq biz gecə-gündüz bilmədən.*
*Qələbə eşqimiz sönmədi bir an,*
*Bizə bu inamı İlhamdır verən.*

*Günün günortası tank səslərinə*
*Cəbrayıl, Zəngilan dikəldi, baxdı.*
*Düşmən qoyub qaçan zirvələrinə*
*Vətən bayrağını əsgərim taxdı.*

*Füzuli, Qubadlı yetişdi kama,*
*Azan səsi gəlir necə də rəvan!*
*Qayıtdıq Şuşama, Qarabağıma,*
*Otuz il gözləyib orda Natəvan.*

*Boşalmış Ağdama dönəndə gördük,*
*Daş üstdə bir daş da qoymayıb düşmən.*
*Ruhlar şəhərinə döyüşsüz girdik,*
*Ucaltdıq üçrəngli bayrağı həmən.*

*Bir qarış torpaq da çox qiymətlidir,*
*Sevinir Murovdağ, Kəlbəcər, Ağdam.*
*Bizdədir Laçın da, Şuşa da indi,*
*Ata vəsiyyətin doğrultdu İlham!*

**Tərcümə Əli NƏCƏFXANLININDIR**

Arxa cəbhənin yaddaşından

# Döyüşçülər Vətən, həkimlər isə yaralılar uğrunda vuruşurdular

**– Təcili tibbi yardım maşını yavaş sürətlə hospitala yaxınlaşanda kədərlənirdik ki, şəhid gəlir. Maşın sürətlə gələndə tez lifti boşaldır, cərrahiyyə otağını hazır vəziyyətə gətirirdik ki, vaxt itirmədən dərhal əməliyyata götürək. Çünki bəzən əsgərlərin həyatı dəqiqələrdən, saniyələrdən asılı olurdu, – deyə Ruslan həkim sözə başlayır.**



Ruslan Məmmədov 2007-ci ildə Azərbaycan Tibb Universitetini bitirib. Əvvəlcə Füzuli Rayon Mərkəzi Xəstəxanasında işləyib. 2011-ci ildən 2022-ci ilin mayınadək Böyük Bəhmənli kəndindəki Füzuli Müalicə Diaqnostika Mərkəzində anesteziologiya və reanimatologiya şöbəsinin müdiri vəzifəsində çalışıb. Hazırda peşə fəaliyyətini paytaxtdakı tibb müəssisələrinin birində davam etdirir.

R.Məmmədov söhbətinə davam edir:

– Sentyabrın 27-də atəş səsləri, top və mərmilərin gurultusu, havada uçan təyyarələrin uğultusu bir-birinə qarışmışdı. Saat 9 radələrində cəbhədə yaralanan ilk əsgəri qəbul etdik. Üç əməliyyat bloku və reanimasiya şöbəsi fasiləsiz işləyir, həkimlər gecəli-gündüzlü yaralıları həyata qaytarmaqla məşğul idilər. Həm əməliyyatlara girir, həm də reanimasiya palatalarında xəstələrə baxırdım. Qəbul etdiyimiz xəstələrin çoxu huşsuz vəziyyətdə olurdu, onların adını-soyadını belə bilmirdik. Elə gün olurdu ki, 250–300 xəstə gətirilirdi. Ümumiyyətlə, hospitalın fəaliyyət göstərdiyi həmin günlərdə 6 minə yaxın yaralı döyüşçü qəbul etmişik. 44 gün ərzində cəmi iki dəfə 2–3 saat əməliyyat bloku boş qalıb, qalan vaxt həmişə xəstə ilə dolu idi... Onların 609 nəfəri reanimasiya şöbəsində qeydiyyatdan keçib.

Ruslan həkim sonra bunları dedi:

– Respublika Neyrocərrahiyyə Xəstəxanasından həmin günlərdə Böyük Bəhmənlidəki hospitala gələn neyrocərrah Şamil Tahirov oktyabrın 16-dək 26 ağır vəziyyətdə olan əsgərin üzərində cərrahiyyə əməliyyatı aparmışdı. Həmin xəstəxananın professoru Fariz Camalov, akademik M.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin damar cərrahı İlham Budaqov, akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının ümumi cərrahı Samir Aslanov, İmişlidən gələn Fərzulla həkim, Gəncədən Əli həkim çox böyük fədakarlıq göstərirdilər. Elə gün olurdu ki, sutkanın 22 saatını iş başında keçirirdik, başqa cür də mümkün deyildi.

Həkim aşağıdakı hadisəni xatırlayarkən köks ötürdü:

– Həmin günlərdə bir dəfə gecə saat 2 radələrində iki hərbi texnikanın arasında qalaraq dalağı partlayan əsgər gətirmişdilər. Əslən Qusar rayonundan idi, 2 litrdən çox qan itirmişdi. Onu əməliyyat stoluna çıxaranda əlimdən tutub dedi:

– Həkim, mənim 5 aylıq oğlum var!

Əlbəttə, mən nə qədər soyuqqanlı olmağa çalışsam da, onun bu sözlərinin qarşısında biganə qalmaq çətin idi. Yaralı əsgərə toxtaqlıq verdim, hər şeyin yaxşı olacağına inandırdım. Səhəri günü uğurlu əməliyyatdan sonra onu arxa cəbhəyə yola salanda, özümdən çox məmnun idim.

Ruslan Məmmədov hospitalda çalışan həkim və tibb işçilərinin əməyi barədə də ürəkdolusu söz açdı:

– İki dəfə hospitalın yaxınlığına raket düşdü, çox güclü silkələnmə oldu. Buna baxmayaraq, bir nəfər iş yerindən kənara ayaq qoymadı. Reanimasiya şöbəsində 20 orta və kiçik tibb işçisi var idi. Təsəvvür edin ki, onların 11 nəfəri həmin günlərdə COVID-19 virusuna yoluxduğundan 9 nəfərlə qalmışdıq. Nəinki mən, həmin kənddən və qonşu kəndlərdən olanlar da həftələrlə evə getmədən yaralılara qulluq edirdik. Bu, bizim həm peşə, həm də insani borcumuz idi.

*Süleyman QARADAĞLI*

XQ-nin araşdırması

# Ətə tələbat ilbəil artır

## *İstehsalın azalması isə qiymətləri yüksəldir*

**Bakıda ət satışı məntəqələrində qiymətlər artıb. Mal ətinin 1 kiloqramının qiyməti 15 manat 50 qəpik–16 manat, quzu əti isə 20–21 manat arasında dəyişir. Hətta marketlərdə "can əti" 30 manata satılır. Qiymət artımının bir sıra səbəbləri var. Bu, ilk növbədə, otlaq və örüş sahələrinin, təbii yem ehtiyatlarının azalması ilə bağlıdır. Bələdiyyə yaradılarkən örüş kimi istifadə edilən ərazilər də qurumun balansında idi. Ancaq sonradan bələdiyyələr həmin torpaqları biznes strukturlarına, sahibkarlara uzunmüddətli icarəyə verdi. Bununla da bölgələrdə olan örüş ərazilərinin bir hissəsi sıradan çıxdı. Dövlət fondunun torpaqlarında olan örüş sahələri tütün və pambıq sahələrinə çevrildi. Keçmiş yay otlaqlarında indi xeyli istirahət məkanları salınıb. Bunlar da otlaq və örüş sahələrini azaldıb.**



### Örüş çatışmır

Əgər 1990-cı ilədək respublika üzrə 1 hektar otlaq sahəsinə 7–8 baş heyvan düşürdüsə, indi bu göstərici 25–30 baş olub. Məsələn, cənub zonasını – Masallını götürək. Masallı əhalisi çox, ərazisi, örüş və otlaq sahələri az olan rayondur. Kənd təsərrüfatı heyvanları ilə yüklənmə normadan 5-6 dəfə çoxdur. Göyçayda vəziyyət daha ağırdır. Rayondakı otlaqların 1 hektarına 40-dan çox heyvan düşür. Maraqlıdır ki, həmin rayonlarda torpaq münbit olduğundan son dövrlərdə örüş və otlaq sahələrinin bir hissəsi əkin sahələrinə çevrilib. Nəticədə, otlaq və örüş sahələri azalsa da, heyvanların sayı artıb.

Oxşar vəziyyət digər rayonlarda da müşahidə olunur. Kənd təsərrüfatı regionu olan Qərb bölgəsində erroziyaya məruz qalan otlaqların sahəsi genişlənib. 370 hektar ərazini əhatə edən Ceyrançöldə bəslənilən heyvanların sayı artıb.

Dağətəyi sahələr həddindən artıq yüklənildiyindən bitki örtüyü sıradan çıxıb. Ucar, Ağdaş kimi aran rayonlarında torpaqların şoranlaşması ciddi həddə çatıb. Nəticədə, ildən-ilə heyvanlar üçün yem ehtiyatı azalır. Maldarlıqla məşğul olan sakinlər isə otlaq və örüş sahələri azaldığından mal-qaranı tövlədə saxlamaq məcburiyyətində qalırlar. Hətta bəzi sakinlər örüşsüzlük ucbatından iri və xırda buynuzlu heyvanlarını satmaq məcburiyyətindədir. Qəbələ rayonunun Əmirvan kənd sakini Abbas Nərullayev deyir: "Əvvəllər mal-qara, qoyun-quzu otlaq sahələrindən tox qayıdırdı. Amma indi onları otarmaq üçün sahə tapmırıq. Hər tərəf əkin sahəsidir. Məcburuq tövlədə saxlayaq, əlavə yem tədarük edək. Yem isə çox bahadır. Bunlar xərclərimizi artırır. Biz ətin qiymətini artırmaq məcburiyyətindəyik".

### Mal-qara azalır

Təbii yem ehtiyatlarının çatışmazlığı heyvanların saxlanılması xərclərini artırır. Bu, da öz növbəsində təsərrüfatlarda mal-qaranın sayının azalmasına səbəb olur. İqtisadçı ekspert Əli Musayev bildirir ki, son 10 ildə qoyunların sayı təxminən 1 milyon 625 min, iribuynuzlu mal-qaranın sayı isə 214 min azalıb. Azalma bu il də davam edir. Bu da tələb təklif arasında balansı pozur və özünü qiymət artımında göstərir. Məhsulun azlığı tələbatın isə çoxluğu davam edərsə, qiymətlərin artması gələcək aylarda da müşahidə ediləcək. Çünki ən çox heyvan saxlanılan yer hazırda Aran rayonlarıdır. Lakin Aran zonalarında ət istehsalının artım tempi aşağıdır. Daha doğrusu, artım demək olar ki, yoxdur. Yəni bu göstəricinin daxili bazara təsir etmək imkanı yoxdur.

### Xərclər çoxalıb

Ətin qiymət artımına digər səbəb heyvanların saxlanılması ilə bağlı xərclərin artmasıdır. Onlar üçün nəzərdə tutulan yemlər, küləş, yonca, quru ot bağlamaları və dərmanlar bahalaşır. Bu da qiymətlərin formalaşmasına səbəb olur. Xüsusən, heyvanların kökəltməsində istifadə edilən gündəlik yemin, arpanın, buğdanın qiyməti 2 dəfə artıb. Fermerlər heyvanlar üçün istifadə edilən buğda və arpanın bir qismini yerli istehsal hesabına, digər hissəsini isə idxal hesabına ödəyirlər. Bu da, öz növbəsində, əti balaşdırır. Yemin qiymət artımı Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatında yer alıb. Bildirilir ki, taxıl qiymətləri indeksi, əsasən, buğdanın dünya bazarında bahalaşması hesabına 3 faiz artıb. Əgər yem qıtlığı davam edərsə, onda ətin qiymətində artım müşahidə olunacaqlar. Çünki lazım olduğundan xeyli az ot və heyvan yemi istehsal edilir. Qidalı yemi əsasən, xaricdən gətirilir. İdxal etdilən yemin qiyməti isə dünyada çox yüksəkdir və artmaqda davam edir.

Enerji resurslarının, yanacaq, inflyasiyaya, vergilərin artması da qiymət artımına öz təsirini göstərir. Bundan əlavə, payız-qış mövsümü mal-qaranın isti yerdə saxlanılması və işıqlandırılması əlavə xərclər tələb edir.

İqtisadçı Əli Musayev deyir ki, paytaxtda ət məhsullarının bahalaşmasına logistika xərclərinin artması və kreditlərin baha olması da öz "töhfəsini" verir. Heyvanların bölgələrdən gətirilməsi izafi xərclər yaradır və ətin qiymətinə əlavə olunur. Hazırda bölgələrdə quzu əti 17 manata, mal əti 14 manatdır.

### İdxal artıb

Son illər ölkəmizdə örüş sahələrinin azalması, yem komponentlərinin bahalaşması və yuxarıda qeyd etdiyimiz digər amillər heyvandarlığın inkişafına mənfi təsir göstərir. Həm iri, həm də xırdabuynuzlu heyvanların saxlanılmasına çəkilən xərclərin artması bu sahə ilə məşğul olan sahibkarları profillərini dəyişmək məcburiyyətində qoyur. Bu, ölkəmizin ətlə təminatda idxaldan asılılığını artırır.

Bunu rəsmi rəqəmlər də təsdiqləyir. Məsələn, 2024-cü ilin yanvar–iyul aylarında Azərbaycana 30 min 722 ton ət idxal edilib. Dövlət Gömrük Komitəsinin statistikasına görə, bu həcmdə ətin dəyəri 68 milyon 543 min ABŞ dolları təşkil edib. Bunlar, ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 6 min 490 ton (26,7 faiz), dəyər baxımından isə 21 milyon 602 min ABŞ dolları (46 faiz) çoxdur. Ət idxal etdiyimiz əsas ölkələr isə Rusiya, Gürcüstan, Ukrayna, Belarus və Qazaxıstandır.

Heyvandarlığa ən çox zərər Rusiya–Ukrayna müharibəsindən sonra dəyib, yem məhsullarının qiyməti artıb. O səbəbdən ət bahalaşıb. Gürcüstanda da vəziyyət ürəkaçan deyil. Bu ölkədə iribuynuzlu heyvanlar Səudiyyə Ərəbistanına tədarük olunur. Yerli bazarda isə tələbat artığından qiymət də artır.

Qiymət artımın əsas səbəblərindən biri də ən böyük ət istehsalçılarından olan Braziliya, Argentina, Hindistan və s. ölkələrdən tədarükün azalmasıdır. Şübhəsiz ki, bu, qlobal iqtisadiyyata təsir edir, çünki bir çox ölkələr bu və ya digər dərəcədə bu ölkələrdəki tədarükdən asılıdır. Səbəb isə onların özündə ət qıtlığı və qiymət artımıdır. Bu, artıq ixrac qiymətlərinə təsir edir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

Beynəlxalq həyat

**Rusiya–Ukrayna savaşı 34 aydır ki, davam edir və son həftələr Rusiyanın rəqibini üstələdiyi açıq-aşkar hiss olunur. Hadisələrin bu məcrada davam etməsi "Köhnə qitə"ni, xüsusilə, Şərqi Avropa dövlətlərini ciddi narahat edir. Ukrayna uduzarsa, Avropa yaxın gələcəkdə məğlubiyyət sindromu ilə üzləşə bilər.**

# Rusiya–Ukrayna müharibəsi:
## Avropa təşviş içindədir

ABŞ-də Donald Tramp seçkiləri udub və Avropa Rusiyanın təhdidləri qarısında tək qala bilər. Hətta NATO-nun "təhlükəsizlik çətiri" belə qitəni Rusiyanın mümkün hücumları qarşısında narahatlığını azaltmır. Gələn il yanvarın



20-də Ağ evdə ali səlahiyyətlərinin icrasına başlayacaq 47-ci prezident isə Avropanın Rusiya ilə "haqq-hesab"ı özünün həll etməli olduğunu söyləyir.

Rusiya–Ukrayna cəbhəsinin bir çox gərgin nöqtələrindən gələn xəbərlər Avropanın narahatlığına ciddi əsaslar olduğuna dəlalət edir. Ukrayna ordusunun yüksək rütbəli hərbi mənbəsi bildirib ki, Ukrayna Rusiyanın Kursk bölgəsində avqust ayında gözlənilməz hücumu nəticəsində sürətlə ələ keçirdiyi ərazilərin 40 fazidən çoxunu itirib, belə ki, Rusiya qüvvələri əks-hücum dalğalarını artırıblar.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahında olan həmin mənbə, həmçinin bildirib ki, Rusiya Ukraynanın hücumuna hazırlıqsız yaxalanaraq Kursk bölgəsinin bir hissəsinə nəzarəti itirdikdən sonra əraziyə 60 minə yaxın əsgər cəlb edib.

"Maksimum olaraq biz, təxminən, 1376 kvadratkilometr əraziyə nəzarət edirdik. İndi təbii ki, bu ərazi daha kiçikdir. Düşmən əks-hücumlarını artırır", – deyə mənbə bildirib: "İndi biz, təxminən, 800 kvadratkilometr əraziyə nəzarət edirik. Biz bu ərazini hərbi baxımdan uyğun gələn müddətə qədər saxlayacağıq".

Kursk hücumu İkinci Dünya müharibəsindən sonra xarici dövlətin Rusiyaya ilk quru hücumu idi və Moskvanı hazırlıqsız tutmuşdur. Ekspertlər qeyd edirlər ki, Rusiya hazırda revanş hissi ilə alışıb yanır.

Kurska zərbə endirməklə Kiyev rəqibin Ukraynanın şərqində və şimal-şərqində hücumlarını dayandırmaq, Rusiyanın şərqdə irəliləyən qüvvələrini tədricən geri çəkməyə məcbur etmək və istənilən sülh danışıqlarında Kiyevə əlavə təsir rıçaqları vermək məqsədi güdürdü.

Lakin Rusiya qüvvələri hələ də Ukraynanın şərqindəki Donetsk bölgəsində davamlı şəkildə irəliləyir. Ukrayna Baş Qərargahındakı mənbə belə bir məqamı da vurğulayıb ki, təxminən, 11 min Şimali Koreya əsgəri Rusiyaya əsgək üçün Kursk bölgəsinə gəlib, lakin onların əsas qüvvələri hərbi təlimlərə cəlb olunub. Moskva Şimali Koreya qüvvələrinin Kurskda olmasını nə təsdiq, nə də təkzib edir.

Ötən həftə müharibənin gedişatı tarixində ən gərgin hadisələrin baş verdiyi diqqətdən yayına bilməz. Belə ki, Ukrayna ilk dəfə olaraq Rusiyaya ABŞ və Böyük Britaniya istehsalı olan raketlər atıb. Rusiya isə buna cavab olaraq "Oreşnik" ballistik raketindən istifadə edib və bu, müharibədə kəskin eskalasiyaya səbəb olub.

Ölkəsinin Ukraynanın Dnepr şəhərinə yeni ballistik raket atmasından bir gün sonra Prezident Vladimir Putin deyib ki, Rusiyanın "istifadə olunmağa hazır" güclü yeni raket ehtiyatı var. Televiziya ilə xalqa müraciətində Rusiya lideri "Oreşnik" raketinin qarşısının alınmasının mümkün olmadığını bildirib və "döyüş şəraiti" də daxil olmaqla, daha çox sınaq keçiriləcəyinə söz verib.

Ukrayna Prezidenti Volodimir Zelenski isə dünya liderlərini "hərəkətlərinin real nəticələrini hiss etməsi" üçün Putinə "ciddi cavab" verməyə çağırıb. Onun sözlərinə görə, Rusiyanın Dneprdə yeni ballistik raketdən istifadə etməsi müharibənin "aydın və şiddətli eskalasiyasını" göstərir.

Rusiyanın əbədi və əzəli rəqibi Polşa da Ukraynada Rusiyanın işğalın güclənməsindən çox narahatdır. Bu ölkənin Baş naziri Donald Tusk müharibənin həlledici mərhələyə daxil olduğunu deyir. Onun sözlərinə görə, qlobal münaqişə təhlükəsi ciddi və realdır. Dünya bunun fərqinə varmalıdır.

Rusiyanın Ukraynaya yeni tip ballistik raketlə hücumu ilə əlaqədar NATO və Ukrayna gələn həftə Brüsseldə təcili danışıqlar aparacaq. Belə görüşün olmasını Kiyev istəyib.

Hərbi alyansın sözçüsü Farah Daxlallah əmindir ki, Rusiyanın noyabrın 21-də Ukraynaya qarşı yeni tipli ballistik raketdən istifadə etməsi "nə münaqişənin gedişatını dəyişdirəcək, nə də NATO-nun Kiyevə dəstəyini əngəlləyəcək".

Kreml isə bildirib ki, yeni hipersəs ballistik raketdən istifadə edilməsi Qərbə xəbərdarlıq məqsədi daşıyır ki, Moskva onların Ukraynanı dəstəkləyən "ehtiyatsız" qərarlarına və hərəkətlərinə cavab verəcək.

Kremlin sözçüsü Dmitri Peskov deyib ki, Moskva nüvə başlıqları daşıya bilən yeni raketi Ukraynanın hərbi obyektinə atıb və şübhə etmir ki, Vaşinqton Putinin xəbərdarlığını başa düşüb.

Peskov, həmçinin bildirib ki, Rusiya ABŞ-ni raket zərbəsi ilə bağlı xəbərdar etmək məcburiyyətində deyil, lakin atışdan 30 dəqiqə əvvəl qarşı tərəfi xəbərdar edib. D.Peskov əlavə edib ki, Prezident Vladimir Putin hələ də dialoqa açıqdır.

*Məsaim ABDULLAYEV*
*XQ*

EKSPERT RƏYİ



**Atamoğlan Məmmədli, BDU-nun professoru**

Rusiya–Ukrayna münaqişəsi əslində real olaraq Rusiya-Qərb qarşıdurmasına çevrilib. Lakin "Kollektiv Qərb" bu məsələyə münasibətdə Rusiyanın dünyanın iki böyük nüvə dövlətindən biri olduğunu nəzərə alaraq qətiyyətli mövqe nümayiş etdirə bilmir.

ABŞ-da Trampın 4 illik fasilədən sonra ikinci dəfə dövlət başçısı seçilməsi Avropanı seçim qarşısında qoyur. Qitənin iqtisadi lokomotivi sayılan Almaniya başda olmaqla, Avropa ya birbaşa olaraq hərbi münaqişəyə cəlb olunmalı, ya da Rusiyanın Ukrayna ilə bağlı ağır şərtlərini qəbul etməlidir.

Hələlik, Berlin ara-sıra bəyanatlar səsləndirməklə öz missiyasını bitmiş hesab edir. Almaniya kansleri Olaf Şolts Rusiyanın Ukraynada yeni orta mənzilli ballistik raketdən istifadə etməsini "təhlükəli eskalasiya" adlandırıb. Lakin o deyib ki, Almaniya Ukraynaya "Taurus" qanadlı raketləri göndərməyəcək, çünki NATO ilə Rusiya arasında qarşıdurmanın qarşısını almaq lazımdır.

Almaniyanın xarici işlər naziri Annalena Berbok isə Rusiyanı "Avropa ailəsinin bir hissəsi" adlandırsa da, Kremlin Ukraynada davam edən müharibəsini qitənin "sülh mühitinə edilən hücum" kimi qiymətləndirib.

O, Rusiyanı Almaniya da daxil olmaqla, Şərqi Avropa ölkələrinə qarşı kiber hücumlar etməkdə və "qaçqın axını siyasəti" yeritməkdə günahlandırıb. Nazirin sözlərinə görə, Moskva bu yolla Avropa İttifaqını bölməyə və rəsmi Brüsseli Kiyevi dəstəkləməkdən çəkindirməyə çalışır.

Düşünürəm ki, Rusiya–Ukrayna müharibəsində hadisələrin sonrakı gedişatı daha çox ABŞ-nin atdığı addımlardan asılı olacaq. Pentaqon isə tələsir. Onu ingilislərin "Pasifik" adlandırdığı Sakit okean regionunda Çinlə mübarizə gözləyir. Hələlik, tərəflər bir-birlərinə qarşı əzələ nümayiş etdirməklə kifayətlənirlər. Amma ehtiyatsız bir qığılcım yetər ki, bölgədə ağır silahlar "danışmağa başlasın".

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 260 (30664) 26 noyabr 2024-cü il, çərşənbə axşamı

## İdman xəbərləri

### Braziliyada 3 medal



**Kapoeyra üzrə Azərbaycan millisinin üzvləri Braziliyanın Curitiba şəhərində keçirilmiş "Difazio Capoeira" turnirində uğurla çıxış edərək 3 medal qazanıblar.**

Yeniyetmələrin mübarizəsində Dilqəm İsmayılov və Mehriban Hacıbabayeva fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Böyüklərin yarışında isə Fərid Səlimov qızıl, Asya Atayeva gümüş mükafata yiyələnib.

Qeyd edək ki, Azərbaycan yığması turnirə baş məşqçi Elgiz Əlizadənin rəhbərliyi altında 5 idmançı ilə qatılıb.

### Botsvanada 6 mükafat

**Azərbaycan badmintonçuları Botsvanada keçirilən "Future" seriyalı "Botswana International 2024" turnirində 6 medal qazanıblar.**



Kişilərin şəxsi yarışında Diki Pangestu, qoşa yarışında Aqil Qəbilov–Diki Pangestu, qarışıq qoşa kateqoriyasında isə Aqil Qəbilov–Era Maftuha tandemi Afrika və Avropa ölkələrinin təmsilçilərinin iştirak etdiyi beynəlxalq turnirdə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qarışıq qoşa kateqoriyasında daha bir medalı Cahid Əlhəsənov–Həcər Nuriyeva cütü qazanıb. Yarımfinala kimi irəliləyən badmintonçular üçüncü yeri tutublar. Həcər Nuriyeva və Era Maftuha isə qadınların şəxsi yarışında bürünc mükafata layiq görülüblər.

### "Odlar Yurdu"nun növbəti uğuru



**Almaniyanın Maqdeburq şəhərində yerləşən "Odlar Yurdu" boks klubunun üzvləri növbəti uğura imza atıblar.**

Klubun kiçik yaşlı üzvləri Dmutro Turkulets və Halili Bleorent Almaniyanın Görzig şəhərində keçirilən "Fuhne-Pokal 2024" turnirinin qalibi olublar.

"Odlar Yurdu"nun 4 idmançı ilə qatıldığı bu turnir uşaq və yeniyetmə boksçuların həvəslə mübarizə apardığı yarışdır. Builki turnirdə Almaniyanın müxtəlif şəhərlərindən 100-dən artıq idmançı iştirak edib. Bu turnirdə qalibiyyət boksçuların reytinq xallarına da təsir edir.

*L.QURBANOVA*
*XQ*

# Yağıntılı və dumanlı

***Abşeron yarımadasında leysan da gözlənilir***



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 26-da Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı gözlənilir.**

Yarımadanın ayrı-ayrı yerlərində şimşək çaxacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 7-10°, gündüz 11-13° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunu, nisbi rütubət gecə 80-90, gündüz 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 10-15° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-6° isti olacaq.

*Q.QASIMOV*
*XQ*


## OXUCULARIN NƏZƏRİNƏ!

**"Xalq qəzeti"**

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Kütləvi qaçış

**"Zəfər" Qaçış Klubunun və Azərbaycan Atletika Federasiyasının təşkilatçılığı ilə 25 Oktyabr Kəlbəcər Şəhər Gününə həsr olunmuş kütləvi qaçış keçirilib. Bu barədə mətbuata federasiyadan məlumat verilib.**

Xəbərdə deyilir ki, Bakı Bulvarındakı "7 gözəl" fəvvarəsinin yaxınlığından başlayan və "Kristal Hol"un qarşısından dönməklə, 3 dairə olmaqla keçirilən yarış 30 kilometr məsafəni əhatə edib.

*XQ*



## XQ-nin foto qalereyası




## Sağlamlıq

# İtburnu – C vitamini deposu

**Qızılgülün yaxın qohumu olan itburnu da tikanlıdır, lakin C vitamini və digər faydalı bioloji aktiv maddələrlə zəngindir. İtburnu bir çox vitaminlərlə, xüsusilə, C vitamini ilə zəngindir ki, bu da qan damarlarını gücləndirmək üçün faydalıdır və təbii antioksidant sayılır.**



Yabanı qızılgül giləmeyvələrində çoxlu P vitamini, K, E, A və B2 vitaminləri, karotenoidlər, taninlər və pektinlər kifayət qədərdir. İtburnu üzvi turşuları və flavonoidləri ödqovucu təsirə malikdir. Bu, meyvənin ən qiymətli müalicəvi xüsusiyyətlərindən biridir. Flavonoid rutin və ya P vitamini askorbin turşusu ilə birlikdə kapilyar damarların keçiriciliyini və kövrəkliyini azaldır. Bununla yanaşı, askorbin turşusu toxumaların bərpasını yaxşılaşdırır, qanın laxtalanmasını normallaşdırır və orqanizmin infeksiyalara qarşı müdafiəsini artırır, zehni və fiziki qabiliyyətləri artırır, maddələr mübadiləsini yaxşılaşdırır.

Vitamin A dərinin və selikli qişaların epitelini qoruyur. Görmə qabiliyyəti, hüceyrə böyüməsi və immunitet sisteminin düzgün işləməsi üçün vacibdir. E vitamini hüceyrələrin qocalma prosesini ləngidir və onları oksidləşdirici stressdən qoruyur. Vitamin B2 qırmızı qan hüceyrələrinin, antikorların meydana gəlməsi üçün lazımdır və dərinin, dırnaqların və saçın sağlamlığı ondan asılıdır.

*Z.HÜSEYNLİ*
*XQ*


## "F.S" ASC səhmdarlarının nəzərinə!

10 yanvar 2025-ci il saat 14.00-da "F.S" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2023-cü və 2024-cü illər üzrə maliyyə hesabatlarının və maliyyə balansının təsdiq edilməsi.
2. 2023-cü və 2024-cü illərin dividendlərinin bölüşdürülməsi.
3. ASC-nin bölünməsi və bölünmə şəklində yenidən təşkili.
4. ASC-nin bölünmə balansının təsdiq edilməsinə və bölünmüş əmlakının təhvil verilməsi qaydasının müəyyən edilməsi.
5. ASC-nin bölünməsi nəticəsində yenidən təşkil edilən MMC-lərin təsis edilməsinə razılığın verilməsi.
6. ASC-yə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
7. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanışlıq üçün həftənin iş günləri saat 10.00-dan-13.00-dək cəmiyyətin icra orqnının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu- 012-564-25-76.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi, 1999-cu məhəllə.

✓ *"Qobustan Olimpiya İdman Kompleksi "MMC-yə məxsus (VÖEN-4800213191 Seriya ƏXZ-N 263101-263200, Seriya Ə/AN588701-588900, SeriyaƏXZ N974401-974500, Seriya Ə/A/4N 003001-003100, SeriyaƏ/A/5N723701-723900, Seriya Ə/A/6N132701-132900, Seriya Ə/A6 N578401-578600 və SeriyaƏ/A6N719101-719300 nömrəli mədaxil qəbzləri itdiyi üçün etibarsız sayılır.*

✓ *"DR MS" MMC-yə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır. VÖEN 1403416611.*


## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin maliyyə işləri üzrə müşaviri Nüşabə Tanrıverdiyevaya qardaşı

**NƏSİBİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi regionşunaslıq kafedrasının müdiri Sevdagül Əliyevaya anası

**CƏMİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2740
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00